

# AZƏRBAYCANDA SİYASİ MƏHBUSLAR

## Vahid Siyahı\Hesabat

## Düzüm

GİRİŞ ... 3
SİYASİ MƏHBUS MEYARLARI ... 4
SİYASİ MƏHBUSLAR ... 5
A. JURNALİSTLƏR/BLOGERLƏR ... 5
B. YAZARLAR/ŞAİRLƏR ... 19
C. HÜQUQ MÜDAFİƏÇİLƏRİ ... 21
D. SİYASİ VƏ İCTİMAİ FƏALLAR ... 22
Müxalifətin maliyyələşdirilməsi işi ... 40
E. İNANCLI FƏALLAR ... 45
(1) Müsəlman Birliyi Hərəkatının üzvləri və Nardaran qəsəbəsində tutulanlar ... 45
(2) 2012-ci ildə Masallı rayonunda həbs edilən inanclı fəallar ... 78
(3) 2012-ci ilin mayında həbs edilən inanclı fəallar ... 80
(4) Azərbaycan İslam Partiyasının Sədri və onunla birlikdə tutulanlar ... 85
(5) Digər inanclı fəallar ... 90
F. ÖMÜRLÜKLƏR ... 95
Keçmiş Xüsusi Təyinatlı Polis Dəstəsinin (XTPD) üzvləri ... 95
G. SOSİAL ETİRAZLARLA BAĞLI TUTULANLAR ... 102
(1) 2013-cü il İsmayıllı etirazlarına görə tutulanlar ... 102
(2) 2015-ci il Mingəçevir etirazlarına görə tutulanlar ... 104
(3) 2016-cı il Siyəzən etirazlarına görə tutulanlar ... 106
H. KEÇMİŞ DÖVLƏT MƏMURLARI ... 112
I. SİYASİ GİROVLAR ... 116
J. SƏİD DADAŞBƏYLİ VƏ ONUNLA BİRGƏ TUTULANLAR ... 122
NƏTİCƏ/TÖVSİYƏLƏR ... 130
ƏLAVƏ ... 130
TƏŞƏKKÜRLƏR ... 131

# GİRİŞ

Bu sənədin hazırlanmasında məqsəd Azərbaycan toplumunun və beynəlxalq icrtimaiyyətin uzun illər ərzində çözülməyən siyasi məhbus probleminə diqqət çəkməkdir. Yerli və beynəlxalq təşkilatların ardıcıl çağırışlarına baxmayaraq, problemin biryolluq həlli üçün hakimiyyət siyasi iradə göstərməyib və siyasi motivli həbslər "qapalı dairə" kimi davam etməkdədir.

Siyahını hüquq müdafiəçiləri, hüquqçular, jurnalistlər və ekspertlərdən ibarət **Azərbaycanda Siyasi Məhbusların Siyahısı üzrə İşçi Qrup** hazırlayıb[1]. Hesabat 2019-cu ilin fevral ayının 20-nə qədər olan dövrü əhatə edir.[2]

Hesabat hazırlanarkən siyasi məhbus məsələsi ilə məşğul olan çoxsaylı yerli və beynəlxalq təşkilatlarla məsləhətləşmələr aparılıb, o sıradan nüfuzlu beynəlxalq insan haqları təşkilatlarının hesabatları, Azərbaycanın üzv və qarşısında öhdəlikləri olduğu təşkilatların, xüsusən də Avropa Şurasının uyğun sənədləri öyrənilib, mətbuatın monitorinqi, məhkəmələrin müşahidəsi aparılıb. Məhkəmə hökmü və başqa hüquqi sənədlər təhlil edilib, hesabatda adı olan siyasi məhbusların vəkilləri və ailə üzvləri, müdafiə komitələri ilə görüşlər keçirilib. Sənəddə hər bir siyasi məhbusla bağlı detallı bilgilər, həmçinin hər bir həbsin əsl səbəbləri, bu zaman yol verilmiş qanun pozuntuları və s. informasiyalar var.

Hesabatda siyasi məhbuslar aşağıdakı kateqoriyalar üzrə bölünüb:

A. Jurnalistlər/blogerlər
B. Yazarlar/şairlər
C. Hüquq müdafiəçiləri
D. İctimai və siyasi fəallar
E. İnanclı fəallar
F. Ömürlüklər
G. Sosial etirazlarla bağlı tutulanlar
H. Keçmiş dövlət məmurları
I. Siyasi girovlar
J. Səid Dadaşbəyli və onunla birgə tutulanlar

Bir neçə kateqoriya da öz növbəsində alt kateqoriyalara bölünüb.

İşçi Qrup ev dustaqlığında olan 1 nəfərin (Siyahıda 22-ci olan Mirfeyzulla Seyidovun) də adını Siyahıya əlavə edib. Qrup o mövqedən çıxış edir ki, barəsində cinayət təqibi başlanmış şəxs cəmiyyətdən təcrid edilirsə, digər şəxslərlə ünsiyyət hüququ məhdudaşdırılırsa, yaşayış yerini tərk etmək imkanı əlindən alınırsa, ev dustaqlığının azadıqdan məhrumetmədən fərqi olmadığı üçün onu da məhbus saymaq olar.

---

[1] 2019-cu ilin yanvar ayının 22-də AŞPA-nin Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi təyin edilmiş İslandiyadan olan deputat Torhildur Sunna Varsdottir siyasi məhbuslarla bağlı ilkin memorandumu hazırlayaraq AŞPA İnsan Hüquqları və Hüquq Komitəsinə təqdim edib. Məruzəçi həmin sənədi hazırlayarkən Azərbaycanda Siyasi Məhbusların Vahid Siyahısı üzrə İşçi Qrupun hazırladığı Siyahıya istinad etdiyini vurğulayıb[1].

[2] Siyahıda siyasi məhbusların adları hər bölmə üzrə tutulma tarixlərinə uyğun olaraq təqdim edilir.

# SİYASİ MƏHBUS MEYARLARI

Hesabatın hazırlanmasında Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 3 oktyabr 2012-ci il 1900 saylı Qətnaməsində təsbit edilmiş meyarlardan istifadə olunub[3]. Həmin sənədə əsasən, azadlıqdan məhrum edilmiş şəxs aşağıdakı hallarda siyasi məhbus sayılır:

a. həbs İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya (Konvensiya) və onun protokollarında təsbit olunmuş fundamental təminatlardan biri, xüsusilə fikir, vicdan və din azadlığı, ifadə və informasiya azadlığı, toplaşma və birləşmə azadlığı pozulmaqla həyata keçirilibsə;

b. həbs heç bir cinayətlə əlaqəsi olmadan sırf siyasi səbəblərdən həyata keçirilibsə;

c. siyasi səbəblərdən, saxlanmanın müddəti və ya onun şərtləri şəxsin şübhəli və ya təqsirkar sayıldığı cinayətə aydın şəkildə proporsional deyilsə;

d. şəxs başqa şəxslərlə müqayisədə siyasi səbəblərdən ayrı-seçkilik şəraitində həbs edilirsə;

e. həbs aydın şəkildə ədalətsiz məhkəmə proseslərinin nəticəsidirsə və bu, hakimiyyətin siyasi motivləri ilə bağlıdırsa.

AŞPA bu qətnaməsində xatırladır ki, "siyasi məhbus" anlayışını Ermənistan və Azərbaycanın Avropa Şurasına qəbulu kontekstində hər iki dövlətdə mövcud olduğu iddia edilən siyasi məhbusların işinin qiymətləndirilməsi üçün mandat verilən Baş Katibin müstəqil ekspertləri Avropa Şurası çərçivəsində işləyib.

Terror cinayətlərinə görə azadlıqdan məhrum edilən şəxs İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya və yerli qanunvericiliyə uyğun olaraq belə cinayətlərə görə məsuliyyətə cəlb edilib və məhkum olunubsa, siyasi məhbus sayılmır.

Hesabat hazırlanarkən Amnesty International təşkilatının kriteriyalarına[4] uyğun olaraq vicdan məhbusu kimi tanınmış şəxslərin işlərində bu təşkilata istinad edilib.

---

[3] http://bit.ly/1piq992

[4] http://bit.ly/18KQFUz

# SİYASİ MƏHBUSLAR

## A. JURNALİSTLƏR/BLOGERLƏR

### 1. Nicat Nazim oğlu ƏLİYEV




© www.azadxeber.net

**Saxlanma tarixi:** 21 may 2012-ci il

**İttiham:** CM-in 167.2.2.1 *(qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma)*, 234.1 *(qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma)*, 281.2 *(bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma)* və 283.2.3-cü *(mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 10 il

**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Nicat Əliyev dini yönümlü tənqidi www.azadxeber.az veb-səhifəsinin baş redaktorudur. N.Əliyevin həbsindən qabaq bu saytda hökumətin din siyasətini, habelə Avroviziya-2012 mahnı yarışmasına həddən artıq maliyyənin ayrılmasını, o sıradan Bakıda gey-paradın keçirilmə ehtimalını tənqid edən materiallar çap edilib. Mahnı yarışması ərəfəsində bu materialları, o sıradan ruhanilər Abgül Süleymanov və Taleh Bağırzadənin çıxışlarını əks etdirən diskləri şəhərin müxtəlif yerlərində yaydıqdan dərhal sonra N.Əliyev və onunla birlikdə daha bir neçə nəfər həbs edilib.

Jurnalistə ilkin olaraq, adətən fəallara qarşı növbətçi ittiham kimi istifadə edilən narkotik maddə ittihamı irəli sürülüb. Həbsindən yalnız 8 ay sonra, 2013-cü ilin yanvarın 23-də AŞPA siyasi məhbuslar üzrə məruzəçi cənab Ştrasserin siyahısının əleyhinə səs verdikdən və nəticədə, məruzəçi mandatı dayandırıldıqdan 2 gün sonra, yanvarın 26-da N.Əliyevə qarşı daha ağır üç yeni ittiham irəli sürülüb.

*Bakı Ağır Cinayətlər Məhkəməsinin 9 dekabr 2013-cü il tarixli qərarı ilə Nicat Əliyev* ***10 il*** *azadlıqdan məhrumetmə cəzasına məhkum olunub (prokuror çıxışında jurnalistin məhz 10 il azadlıqdan məhrum edilməsini istəmişdi ki, məhkəmə də bu istəyi olduğu kimi təmin edib). Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü ildə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb. Ali Məhkəmə isə 07 aprel 2016-cı ildə apellyasiya məhkəməsinin qərarından verilmiş şikayəti təmin etməyib.*

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Nahid Məmmədov ekspert kimi işə cəlb olunub. Yayılan disklərdəki çıxışlarda milli ədavəti qızışdıran nüanslar olduğunu müəyyənləşdirib, bununla belə, ekspert bu nüansların detallarını məhkəmədə izah edə bilməyib. Belə nüanslar olduğu hallarda həmin çıxışları jurnalist deyil, işdə adı keçməyən başqa şəxslər edib, bununla belə jurnalist bu cür çıxışlar etməkdə təqsirli bilinib. Jurnalistin evindən götürülən və dini ekstremizmi təbliğ etdiyi iddia olunan Ərşad Əzimzadənin "Möcüzəsiz möcüzə" kitabı isə insan orqanizminin ac qalmaqla müalicəsi barədədir. Kitab Azərbaycanda çap edilib və rəsmi şəkildə qadağan olunmayıb. Bununla belə, ekspertiza bu kitabın idxal edildiyini və dini ekstremizmə çağırışları əks etdirməsi ilə bağlı jurnalistin əleyhinə olan rəy verib. Məhkəmə prosesində ekspertiza rəyi elan edilərkən və ekspert suallara cavab verərkən rəyin sifarişlə hazırlandığı açıq şəkildə müşahidə olunub. Məhkəmə prosesləri zamanı jurnalistin özü, o sıradan vəkili Yalçın İmanov da N.Əliyevin həbs edilən zaman polisin işgəncələrinə məruz qaldığını, ağır xəsarətlər aldığını bildirsələr də, bu iddialar araşdırılmayıb.

Nicat Əliyev ailəlidir, toyundan cəmi 23 gün sonra həbs edilib. Amnesty International təşkilatı jurnalistə qarşı ittihamları şübhəli adlandırıb[5].

---

## 2. Araz Faiq oğlu QULİYEV



© www.xeber44.com

**Saxlanma tarixi:** 9 sentyabr 2012-ci il

**İttiham:** CM-in 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)*, 283.1 *(milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)*, 315.2 *(hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə)* və 324-cü

[5] http://bit.ly/P8Z9vo

*(Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 8 il

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Araz Quliyev Masallıda yerləşən www.xeber44.com internet qəzetin baş redaktorudur. Bu saytda yayılan məqalələr əsasən hakimiyyətin dinlə bağlı siyasətinin tənqidinə, o sıradan Masallı rayonundakı sosial problemlərə həsr edilirdi. Bu saytdakı fəaliyyətinə görə A.Quliyev həbsindən öncə də dəfələrlə polis bölməsinə aparılıb, ona fəaliyyətini dayandırmaq barədə xəbərdarlıq edilib. Bu cür xəbərdarlıqlar yerli icra hakimiyyətindən də dəfələrlə olunub. Həbsindən 2 gün əvvəl - 2012-ci il sentyabrın 6-da A.Quliyevi və onunla birlikdə olan Masallı sakini Rza Qorxmaz oğlu Ağalını polis və mülki geyimdə olan şəxslər saxlayaraq döyüblər və Masallı Rayon Polis Şöbəsinə aparıblar. Onlar rəis müavini Əlifağa Kazımovun göstərişi ilə gecə saat 03.00 radələrində sərbəst buraxılıblar.

Sentyabrın 8-də isə saat 21 radələrində A.Quliyev rayon sakini Ziya Tahirovla birlikdə Masallıda keçirilən folklor festivalı çərçivəsində Nizami Parkında təşkil olunan diskotekaya etiraz ediblər və tənqidi material hazırlamaq məqsədilə əlavə məlumat almaq üçün təşkilatçıları axtarmağa başlayıblar. Lakin ərazidə olan polislər hər iki şəxsi oradan uzaqlaşdırıb. Bundan 2 saat sonra yenə həmin əraziyə qayıdan A.Quliyev və Z.Tahirov diskotekanın sona çatdığını və park ətrafında yalnız polis maşınının olduğunu görüblər. Polis maşını yaxınlaşıb və rəis müavini Əlifağa Kazımov onlarla 30 dəqiqəyə qədər söhbət etdikdən sonra ərazidən gedib. Bundan dərhal sonra 25-30 nəfərlik mülki geyimli dəstə əraziyə gələrək onları təhqir etməyə və daş atmağa başlayıb, az sonra hadisə yerinə gələn polislər hər iki şəxsi döyərək həbs ediblər. Jurnalistə qarşı xuliqanlıq və polisə müqavimət maddələri ilə ittiham irəli sürülüb. Həbsindən 11 gün sonra, sentyabrın 20-də evində axtarış aparılıb və oradan qumbara tapıldığı bildirilib. 2012-ci ilin dekabrında A.Quliyevə qarşı baş redaktoru olduğu internet qəzetdə yayılan məqalələrdə dini düşmənçilik salınması, ictimai asayişin pozulması, silah saxlama, dövlət bayrağının təhqir edilməsi kimi maddələrlə ittiham irəli sürülüb.

*Jurnalist Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 05 aprel 2013-cü il tarixli hökmü ilə **8 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunub. Şirvan Apellyasiya Məhkəməsi 09 yanvar 2014-cü il, Ali Məhkəmə isə 04 iyul 2014-cü il tarixli qərarlarla həmin hökmü qüvvədə saxlayıb.*

Jurnalistin evində axtarış məhkəmə qərarı olmadan və özünün iştirakı təmin edilmədən aparılıb, axtarış zamanı hal şahidi kimi iştirak etmiş şəxslərin məhkəmədə verdiyi izahatlarla istintaqa verdiyi izahatlar arasında ciddi fərqlər olub. Məhkəmə araşdırması zamanı məlum olub ki, hal şahidlərindən biri, Nahid Şirəliyev nə oxumağı, nə də yazmağı bacarır (halbuki axtarış haqqında protokola imza atıb və qumbaranın aşkar edildiyini təsdiqləyib). Şirvan Apellyasiya Məhkəməsində o, işlədiyi fəhlə bazarından həmkarı ilə birgə hal şahidliyi etmək üçün polislərin onları apardıqlarını və bunun əvəzində hər birinə 20 AZN verildiyini bildirib. Zərərçəkmiş kimi tanınan şəxslərin heç birini istintaq zamanı A.Quliyevlə üzləşdirməyiblər, onların çoxu polis əməkdaşlarıdır və hamısı məhkəmədə eyni məzmunlu ifadə veriblər. Buna baxmayaraq, işdə jurnalistin polislərə xəsarət yetirdiyini təsdiqləyən

hər hansı sübut yoxdur. Cırılaraq təhqir edildiyi iddia olunan dövlət bayrağı da maddi sübut kimi cinayət işinin materiallarında olmayıb.

A.Quliyev onun barəsində Şirvan Apellyasiya Məhkəməsinin qərarından sonra 14 saylı Cəzaçəkmə Müəssisəsinə göndərilib. 22 dekabr 2014-cü ildə həmin CM-də olan məhkum Elşad Babayevin ölümünə dustaqlar etirazlarını bildiriblər. Belə ki, Babayevin işgəncələrə məruz qalaraq yeməksiz və susuz saxlanılaraq öldüyü barədə məlumatlar olub. Onun bacısı Simuzər Babayeva Lökbatan qəsəbəsində yerləşən morqda qardaşının meyitinin şəkillərini çəkərək sosial şəbəkələr və mətbuat vasitəsilə yayıb. Həmin şəkillərdən də aydın görünür ki, məhkumun üzərində zorakılıq izləri var. Ancaq açılmış cinayət işi nəticəsində 31 yaşlı Elşad Babayevin ürək çatışmazlığından öldüyü iddia olunub.

Etiraz bildirən məhkumlar arasında jurnalist A.Quliyev də olub, buna görə o, karserə salınıb və işgəncələrə məruz qalıb. Bu hadisədən sonra CM-in rəhbərliyi jurnalistin daha ağır rejimli müəssisəyə köçürülməsi barədə vəsatətlə məhkəməyə müraciət edib və Qaradağ Rayon Məhkəməsinin 19 mart 2015-ci il tarixli qərarı ilə A.Quliyev cəzasının 3 ilini Qobustan Qapalı Həbsxanasında çəkməyə məhkum edilib.

---

### 3. Rəşad Ağaəddin oğlu RAMAZANOV



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 9 may 2013-cü il

**İttiham:** CM-in 234.4.3-cü (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə*) maddəsi

**Cəzasının müddəti:** 9 il

**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Dindar olan Rəşad Ramazanov aktiv şəkildə sosial şəbəkələrdə, xüsusən Facebook-da (https://www.facebook.com/HAQQINqulu777) hakimiyyətin apardığı siyasəti, prezident də daxil olmaqla yüksək rütbəli məmurları tənqid edən mikrobloqlar paylaşırdı. Ona da Azərbaycanda fəallara qarşı geniş şəkildə istifadə edilən narkotik maddə ittihamı irəli sürülüb. R.Ramazanov həbs edildikdən sonra qanunsuz olaraq 11 gün müddətində Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılıb, yerli və beynəlxalq təşkilatların çağırışından sonra o, istintaq təcridxanasına köçürülüb. Tanınmış vəkil Aslan İsmayılov R.Ramazanovun bu idarədə işgəncələrə və döyülməyə məruz qaldığını bildirib və bunun araşdırılması üçün uyğun qurumlara müraciət edib. Ancaq bu iddialar nəinki araşdırılıb, A.İsmayılovun özünü polis saxlayaraq bu cür bəyanatlar verməməsi barədə ona xəbərdarlıq edib. Bir müddət sonra A.İsmayılov Vəkillər Kollegiyasından çıxarılıb.

*Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 noyabr 2013-cü il tarixli qərarı ilə Rəşad Ramazanov **9 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Bakı Apellyasiya Məhkəməsi 16 yanvar 2014-cü ildə, Ali Məhkəmə isə 14 may 2014-cü ildə bu hökmü olduğu kimi qüvvədə saxlayıb.*

Amnesty International təşkilatı R.Ramazanovu vicdan məhbusu kimi tanıyıb[6].

---

## 4. Seymur Məşgül oğlu HƏZİ



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 29 avqust 2014-cü il

**İttiham:** CM-in 221.3-cü *(xuliqanlıq, silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 5 il

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Müxalif media qurumu olan "Azadlıq" qəzetinin şərhçisi və Azərbaycan hakimiyyətini və onun apardığı siyasəti sərt tənqid edən, peyk üzərindən xaricdən yayımlanan "Azərbaycan Saatı" onlayn televiziyasının aparıcısı Seymur Həzi ciddi əsas olmadan saxlanılıb. Jurnalistin yaşadığı Ceyranbatan qəsəbəsində Məhərrəm Həsənov adlı şəxs ona yaxınlaşaraq, ondan sosial şəbəkədə göndərdiyi mesaja cavab verməməsinin səbəbini soruşub və cavab gözləmədən ona hücum edib. Bundan bir neçə dəqiqə sonra əraziyə gələn polislər jurnalisti saxlayıb. Avqustun 30-da Abşeron Rayon Məhkəməsi onun barəsində həbs qətimkan tədbiri seçib.

*Jurnalist Abşeron Rayon Məhkəməsinin (hakim Şövkət Nəcəfova) 29 yanvar 2015-ci il tarixli hökmü əsasında **5 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. S.Həzinin əleyhinə ifadə verən Məhərrəm Həsənov isə 6 ay müddətinə azadlıqdan məhrum edilib və o artıq azadlıqdadır. Sumqayıt Apellyasiya Məhkəməsi 5 sentyabr 2015-ci il, Ali Məhkəmə isə 15 aprel 2016-cı il tarixli qərarlarla həmin hökmü qüvvədə saxlayıblar.*

Məhkəmə müşahidələri birmənalı şəkildə deməyə əsas verir ki, jurnalistin həbsi əvvəlcədən qurulmuş plan üzrə həyata keçirilib, ona qarşı təxribat törədilib və nəticədə bu təxribatdan istifadə edilərək saxlanılıb. Proseslər zamanı jurnalistin və onun vəkilinin verdiyi və birbaşa işin mahiyyətinin açılmasına yönələn vəsastətlərin heç biri təmin olunmayıb. Xüsusən, ittiham aktında cinayət işinin açıldığı vaxtın göstərilməməsi, işin ekspertiza keçirilmədən başlanması, hadisənin iştirakçısı olan M.Həsənovun ziddiyyətli ifadələri, jurnalistlə onun arasında əslində Facebook-da heç bir yazışmanın olmaması, M.Həsənovun hadisə yerinə 2 saat qabaq gələrək jurnalisti

[6] http://bit.ly/1jYMJQI

gözləməsi və bunu sübut edəcək telefon danışıqlarının siyahısının və vaxtının alınması kimi məsələlər araşdırılmayıb.

S.Həzi həbsindən əvvəlki illərdə də jurnalist fəaliyyətinə görə təzyiq və təqiblərə məruz qalıb. O, 26 mart 2011-ci ildə yaşadığı Ceyranbatan qəsəbəsində bu hadisənin baş verdiyi eyni yerdən oğurlanaraq naməlum yerə aparılıb, naməlum maskalı şəxslərin zorakılığına məruz qalıb və "Axmaq olma, İlham Əliyev haqqında yazma" mesajını alıb. Bu hadisə ilə bağlı jurnalist açıq şəkildə mətbuata müsahibə verib, hüquq mühafizə orqanlarına müraciətləri cavabsız qalıb, təkidlərdən sonra faktla bağlı açılmış cinayət işi nəticəsiz yekunlaşıb.

Amnesty International jurnalisti vicdan məhbusu kimi tanıyıb[7].

---

## 5. Fikrət Fərəməz oğlu İBİŞBƏYLİ (Fikrət Fərəməzoğlu)



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 30 iyun 2016-cı il

**İttiham:** CM-in 182.2.1 *(hədə-qorxu ilə tələb etmə, yəni zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə)*, 182.2.2 *(eyni əməllər təkrar törədildikdə)* 182.2.4-cü *(eyni əməllər xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 6 il

**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** www.jam.az (Jurnalist Araşdırma Mərkəzi) portalının baş redaktoru F.Fərəməzoğlu mütəmadi qaydada Bakı şəhərinin mərkəzində əxlaqsızlıq yuvaları kimi istifadə edilən mehmanxana və digər obyektlərin məmurlar tərəfindən idarə edilməsi barəsində yazılar dərc edib. İyunun 20-də həbsindən 10 gün qabaq o "YAP[8]-ın mərkəzi binasının yaxınlığında əxlaqsızlıq yuvası" adlı məqalə dərc etmiş, bu məqalədə bu və digər əxlaqsızlıq yuvalarının "Antaliya" Mehman ləqəbli şəxsə məxsus olduğunu və bu şəxsin yüksək rütbəli məmurlar tərəfindən himayə edildiyini və himayə altında olduğu üçün hətta Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə İdarəsinin belə heç bir müdaxilə edə bilmədiyini vurğulamışdır[9]. Jurnalist iyunun 23-də yenidən adı çəkilən şəxs barəsində ifşaedici məqalə ilə çıxış etmişdir[10]

---

[7] http://bit.ly/29JyV26
[8] Yeni Azərbaycan Partiyası (YAP), hazırda hakimiyyətdə olan partiyadır
[9] http://bit.ly/2ekKcDt
[10] http://bit.ly/2edW3Uz

"Antaliya" Mehman ləqəbli şəxsin Daxili İşlər Nazirinin 1-ci müavini Vilayət Eyvazovun bilavasitə himayəsində olması ilə bağlı məlumatlar mövcuddur.

Daxili İşlər Nazirliyi rəsmi məlumat yayaraq jurnalistin Bakı şəhərində yerləşən restoranlardan birinin sahibindən hədə-qorxu yolu ilə 3000 manat alarkən saxlanıldığını və onun barəsində həbs qətimkan tədbirinin seçildiyini bildirib. Lakin jurnalist saxlandıqdan əvvəl həmkarları ilə iaşə obyektlərinin birində olub və oranı tərk edən kimi saxlanılıb, iaşə obyektinin əməkdaşı bu barədə obyektdə qalan həmkarlarına məlumat verib.

F.Fərəməzoğlu həbs edildikdən sonra Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılıb; burada təzyiqlər nəticəsində vəkildən imtina etməyə məcbur olub. O, İdarədən Bakı İstintaq Təcridxanasına köçürüldükdən sonra həbsinin qanunsuz olduğunu, 34 gün heç bir əsas olmadan Polis İdarəsində saxlanıldığını, polis idarəsində işgəncəyə məruz qaldığını, konkret olaraq 12 gün ərzində davamlı olaraq qolundan qandalın açılmamasını, başına yumruq və təpik zərbələrinin endirildiyini, dişlərinin sındırıldığını, təzyiqlər nəticəsində vəkildən imtina etməyə məcbur edildiyini bəyan edib. Jurnalist vəkili vasitəsilə işgəncələrlə bağlı Baş Prokurorluğa müraciət etsə də, bu müraciət hələ də araşdırılmayıb. F.Fərəməzoğlu təzyiqlərə və işgəncələrə məruz qaldığını bəyan etdikdən sonra sentyabrın 17-də yenidən Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıb və bir müddətdən sonra geri qaytarılıb.

Jurnalist həbs edildikdən sonra onun İran vətəndaşı olan həyat yoldaşı Faiqə Nosrətiyə qarşı təzyiqlər başlayıb, o Azərbaycandan deportasiya edilməsi ilə və ölümlə hədələnib, onun avtomobilinin üzərinə qırmızı rəng çəkilib və hədə dolu məktub qoyulub. Oktybarın 16-da F.Fərəməzoğlunun həyat yoldaşı və 2 azyaşlı övladının yaşadığı mənzilə basqın cəhdi olub, naməlum şəxslər mənzili açarla açmağa cəhd edib, həyat yoldaşının səsini eşitdikdən sonra qaçıblar; polis bu hadisə barədə məlumatlandırılıb. Evinə basqınla bağlı jurnalistin həyat yoldaşı Daxili İşlər Naziri Ramil Usubova rəsmi şəkildə müraciət ünvanlayıb. Xanım Nosrəti baş vermiş hadisələrlə bağlı İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinə məlumat verib və Səfirlikdən yardım göstərilməsini istəyib.

Jurnalistin vəkili Elçin Sadıqov da məhz bu iş üzrə fəal şəkildə müdafiə tədbirlərini həyata keçirdiyi üçün hədələrə və təzyiqlərə məruz qalıb. Vəkilin və onun həyat yoldaşının adına saxta profillər açılıb və onların saxta profillərindən nalayiq məlumatlar və şəkilləri əks etirən statuslar paylaşılıb. Daha sonra bir sıra hökumətyönlü saytlarda vəkillə jurnalistin həyat yoldaşı arasında intim münasibətlərin olmasına dair yalan məlumatlar yayılıb, qısa müddət sonra bu məlumatlar həmin saytlardan yığışdırılıb. Noyabrın 2-də jurnalistin işi ilə tanış olmaq üçün Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə gedən vəkil müstəntiq tərəfindən hədələnib. Vəkilə bildirilib ki, onlar jurnalistlə bağlı məlumatların ictimaiyyətləşdirilməsindən və bu işdə vəkilin fəaliyyətindən narazıdırlar və ona ehtiyatlı olmağı məsləhət görüblər. E.Sadıqov bu hədələrlə bağlı güc strukturlarının rəhbərlərinə müraciət edib. Noyabrın 3-də isə vəkilin Göygöl rayonunda yaşayan qardaşı yerli polis bölməsinə çağırılıb və səbəb göstərilmədən bir neçə saat ərzində dindirilib. Dindirmə zamanı, əsasən, vəkil E.Sadıqovla bağlı suallar verilib. Freedom House və Amnesty International təşkilatları vəkilə qarşı olan təzyiqlərdən

narahatlıqlarını bildiriblər və Azərbaycan hökumətini bu məsələni araşdırmağa çağırıblar[11][12].

*Jurnalist Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən hakim Eldar Mikayılov) 14 iyun 2017-ci il tarixli hökmü ilə **7 il** müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Namiq Məmmədov) bu hökmü 18 sentyabr 2017-ci il tarixdə dəyişdirmədən qüvvədə saxlayıb. Ali Məhkəmə (sədrlik edən Hafiz Nəsibov) 26 sentyabr 2018-ci il tarixli qərarı ilə cəzanı **6 ilə** endirib.*

---

## 6. Elçin Səməd oğlu İSMAYILLI



*© Azadlıq radiosu*

**Saxlanma tarixi:** 17 fevral 2017-ci il

**İttiham:** CM-in 182 *(hədə-qorxu yolu ilə pul tələb etmə),* 308 *(vəzifəsindən sui-istifadə),* 311-ci *(rüşvət alma)* maddələri

**Cəzasının müddəti:** 7 il

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

**İş barədə qısa arayış:** E.İsmayıllı İsmayıllıda yaşayır, müxalif Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Ali Məclisinin üzvüdür, Həmçinin jurnalist fəaliyyəti ilə məşğul olub: kend.info saytının baş redaktorudur, həbsinə qədər bir sıra media qurumları ("Azadlıq" qəzeti, "Azadlıq" Radiosu) ilə bölgə müxbiri kimi əməkdaşlıq edib. E.İsmayıllı 2017-ci ilin fevral ayının 17-də saat 16.00 radələrində yaşadığı evdən çıxdıqdan sonra geri qayıtmayıb. Fevralın 17-dən 18-nə keçən gecə saat 2 radələrində polis və prokurorluq əməkdaşlarından ibarət olan 8 nəfərlik qrup onun kirayədə qaldığı evə gələrək axtarış aparıblar. Əməliyyatçılar jurnalistin evində kompyuterini və sənədlə aldığı ov tüfəngini götürüb gediblər. Fevralın 18-də Nəsimi Rayon Məhkəməsi onun barəsində 24 günlük həbs qətimkan tədbiri seçib. Sonradan həbs müddəti bir neçə dəfə artırılıb.

Jurnalist barəsində Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu yolu ilə pul tələb etmə) və 308-ci (vəzifəsindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. O, İsmayıllı rayonunda vəzifəli şəxslərdən, onların barəsində rüsvayedici məlumat yaymaq hədəsi ilə pul tələb etməkdə ittiham elan olunub. Sonradan ittihama daha bir maddə - Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi əlavə edilib.

İttihama görə, jurnalist mədəniyyət və turizm şöbəsinin rəisi Azər Abbasovdan pul tələb edib. A.Abbasov Dövlət Təhlükəsizlik Xidmətinə müraciət edib və qurumun əməkdaşları jurnalisti həbs ediblər.

---

[11] http://bit.ly/2fm4yA4
[12] http://bit.ly/2ftNYMg

E.İsmayıllı ilk gündən ona elan edilmiş ittihamda özünü təqsirli bilmir. Saxlanılarkən üzərində olan 1000 manatı illərdir tanıdığı A.Abbasovdan borc aldığını deyib. İsmayıllı Rayon Mədəniyyət və Turizm Şöbəsinin keçmiş rəhbəri A.Abbasov məhkəmədə deyib ki, həmin vəsaiti ona icra başçısı M.Sadıqov verib və E.İsmayıllıya çatdırmasını istəyib.

Jurnalistin işi üzrə məhkəmə prosesləri kobud qanun pozuntuları ilə müşayiət ounub. İstintaq dövründə olduğu kimi, məhkəmə araşdırması zamanı da jurnalistə qarşı irəli sürülmüş hədə-qorxu ilə tələb etmə, vəzifə səlahiyyətlərindən sui-istifadə və rüşvət alma ittihamlarını əsaslandıran şübhə yeri qoymayan sübutlar təqdim edilməyib. Müdafiə tərəfi E.İsmayıllının dövlət məmurundan 600 dollar rüşvət almaqda ittiham olunan həbsində heç bir əsas olmadığı halda Dövlət Təhlükəsizlik Xidmətinin iştirakını bu həbsin arxasında aşkar siyasi motivin olmasını təsdiq edən ciddi sübut kimi irəli sürüb. Həmçinin jurnalist həmin cinayəti törətsə idi belə, ona təyin olunan cəza həddən artıq sərt olmaqla, həbsin siyasi motivliliyi ilə bağlı şübhələri gücləndirir.

*E.İsmayıllı Şəki Ağır Cinayətlər Məhkəməsinin (hakim Rəşid Hüseynovun sədrliyi ilə) 18 sentyabr 2017-ci il tarixli hökmü ilə CM-in 182, 308 və 311-ci maddələri ilə təqsirli bilinərək **9 il** azadlıqdan məhrum edilib. Dövlət ittihamçısı E.İsmayıllıya 10 il həbs istəyib. Şəki Apellyasiya Məhkəməsi 05 dekabr 2017-ci il tarixdə birinci instansiya məhkəməsinin hökmünü qüvvədə saxlayıb. Ali Məhkəmə (sədrlik edən İmran Hacıqayıbov) 20 noyabr 2018-ci il tarixli qərarı ilə E.İsmayıllının ittiham olunduğu üç maddədən ikisinə – Cinayət Məcəlləsinin 308 və 311-ci maddələri ilə ittihamlara xitam verərək jurnalistin cəzanı 7 **ilə** endirib.*

---

## 7. Mehman Rafik oğlu HÜSEYNOV



*© Fərqanə Novruzova*

**Saxlanma tarixi:** 3 mart 2017-ci il

**İttiham:**

***Birinci cinayət işi üzrə:*** CM-in 147.2-ci *(ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma)* maddəsi

***İkinci cinayət işi üzrə:*** CM-in 317.2-ci *(Cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının əməkdaşını, habelə məhkumu onun islah olunmasına mane olmaq və ya ictimai vəzifələrini yerinə yetirməsinə görə ondan intiqam almaq məqsədi ilə onların həyat və sağlamlığı üçün təhlükəli olmayan zor tətbiq etmə)* maddəsi

**Cəzasının müddəti:**

***Birinci cinayət işi üzrə:*** 2 il

***İkinci cinayət işi üzrə:*** İşə xitam verilib.

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

**İş üzrə qısa arayış:** Tanınmış fotoqraf və videobloger Mehman Hüseynov Facebook sosial şəbəkəsində böyük izləyici kütləsi olan "Sancaq Production" səhifəsinin inzibatçısıdır. M.Hüseynov 325.000-dən artıq izləyicisi olan bu səhifədə nazirlərə, millət vəkillərinə məxsus mülkləri və dəbdəbəli həyat tərzini göstərən, sosial problemlərə görə tənqidi xarakterli video roliklər yerləşdirirdi. Eyni zamanda, bu məsələlərlə bağlı insanlar arasında etdiyi video sorğular da səhifədə çoxsaylı şəxslər tərəfindən izlənilirdi. Video materialların böyük əksəriyyəti sarkastik və ironik məzmunda hazırlanırdı. Həbsindən bir gün əvvəl yaydığı video sorğu ölkənin birinci xanımının prezident tərəfindən həm də ölkənin birinci vitse-prezidenti təyin olunmasına ironik tənqid üslubunda idi. Bu videodan bir gün sonra Hüseynov Nəsimi Rayon Polis İdarəsinin rəisi Musa Musayevin ona qarşı irəli sürdüyü xüsusi ittiham qaydasında şikayət əsasında məhkəmə zalında həbs edilib. Həbsinin səbəbi M.Hüseynovun 11 yanvar 2017-ci ildə Nəsimi Rayon Məhkəməsinin qarşısında polisi ona işgəncə verməkdə və qeyri-insani rəftara məruz qoymaqda ittiham etməsi olub. M.Hüseynov yanvarın 10-da şəhərin mərkəzində saxlanılaraq polis bölməsinə aparılıb və ona qarşı zorakılıq hərəkətləri edilib, qeri-insani və ləyaqəti alçaldan rəftara məruz qalıb. Onun bu şikayəti lazımınca araşdırılmasa da, M.Hüseynov və vəkili paltarlarında qan izini, zərbələrin yerlərini nümayiş etdiriblər və hətta ekspertiza da onun zədələr aldığını müəyyən edib. Yanvarın 11-də polis M.Hüseynovu fəallara qarşı geniş şəkildə istifadə edilən polis nəfərinə tabe olmama ittihamı ilə inzibati qaydada cəzalandırılması üçün Nəsimi Rayon Məhkəməsinə gətirilib və məhkəmədən onun inzibati qaydada həbsi tələb olunub. Məhkəmə M.Hüseynovun 200 AZN cərimələnməsi barədə qərar çıxararaq onu azad etdikdən sonra M.Hüseynov məhkəmənin qarşısında polisdə saxlandığı zaman məruz qaldığı fiziki zorakılıq barədə mətbuata məlumat verib.

M.Hüseynov 2012-ci ildə də fəaliyyəti ilə bağlı polis tərəfindən saxlanılıb, ona qarşı xuliqanlıq ittihamı irəli sürülüb; həbs edilməsi tələbi ilə məhkəmə qarşısına çıxarılsa da, onun barəsində polis nəzarətində saxlanması barədə qərar çıxarılıb. Bundan sonra Hüseynovun ölkədən çıxışına qadağa qoyulub, sonradan isə şəxsiyyət vəsiqəsi və pasportu əlindən alınıb, yenisini verməkdən isə imtina edilib.

Həbsindən bir neçə ay öncə M.Hüseynov əvvəllər qardaşı, hüquq müdafiəçisi Emin Hüseynovun rəhbərlik etdiyi Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun (RATİ) sədri seçilib. Sədr seçildikdən sonra RATİ-nin təşəbbüsü ilə yerli ictimaiyyət nümayəndələrinin adından Avropa Şurası Parlament Assambleyasına ölkədə insan hüquqlarının ağır durumu, o cümlədən Azərbaycanın nümayəndə heyətinin 2 üzvünün adının korrupsiya qalmaqalında keçdiyi üçün onların səsvermə hüquqlarının dondurulmasına çağırışı əks etdirən müraciət hazırlanıb göndərilib.

*M.Hüseynov Suraxanı Rayon Məhkəməsinin (hakim Ceyhun Qədimov) 3 mart 2017-ci il tarixli hökmü ilə* ***2 il*** *müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən hakim Vaqif Mursaqulov) 12 aprel 2017-ci il tarixdə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb. Ali Məhkəmə (sədrlik edən Əli Seyfəliyev) 29 sentyabr 2017-ci il tarixdə işin yenidən Bakı Apellyasiya Məhkəməsinə qaytarılması barədə qərar çıxarsa da, apellyasiya instansiyası 15 dekabr 2017-ci ildə birinci instansiya məhkəməsinin hökmündə dəyişiklik etməyib. Həmin qərardan verilmiş kassasiya şikayətinə Ali Məhkəmə (hakim İmran Hacıqayıbov) 25 iyun 2018-ci ildə baxaraq şikayəti təmin etməyib.*

M.Hüseynov həbsdə olduğu müddətdə anası F.Hüseynova ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Özünün və vəkillərinin siyasi məhbusa anası ilə görüşə icazə verilməsi barədə müraciətləri təmin olunmayıb. Ona yalnız anası rəhmətə getdikdən sonra yasda iştiraka icazə verilib.

M.Hüseynov 10 avqust 2018-ci ildə həbs müddətinin yarısından çoxunu çəkməsi ilə əlaqədar cəzanın çəkilməmiş hissəsindən vaxtından əvvəl azad edilməsi üçün Qaradağ Rayon Məhkəməsinə müraciət edib. Qaradağ Rayon Məhkəməsi (hakim Rəşad Məmmədov) 24 avqust 2018-ci il tarixli qərarı ilə müraciəti təmin etməyib. Hakim bunu M.Hüseynovun müəssisə əməkdaşlarına qarşı qeyri-səmimi olduğu, abadlıq işlərində, mədəni tədbirlərdə iştirak etmədiyi, əməyə münasibətinin qənaətbəxş olmadığı ilə əsaslandırıb. 17 oktyabr 2018-ci ildə Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Elşad Şamayev) jurnalistin birinci instansiya məhkəməsinin qərarından verdiyi şikayəti təmin etməyib.

***İkinci cinayət işi:*** 26 dekabr 2018-ci ildə Penitensiar Xidmət açıqlama yayaraq bildirib ki, 14 saylı cəzaçəkmə müəssisəsində plan üzrə aparılan növbəti ümumi axtarış-baxış tədbirləri zamanı məhkum M.Hüseynov müəssisənin Rejim-nəzarət şöbəsinin böyük inspektoru, ədliyyə leytenantı Əli Abdalovun qanuni tələblərinə tabe olmayaraq ona qarşı zor tətbiq edib, fiziki müqavimət göstərərək sonuncuya bədən xəsarəti yetirib, xidməti otaqda olan əşyaları dağıdaraq sındırıb. Bu faktla bağlı Bakı şəhəri Qaradağ Rayon Prokurorluğunda CM-in 315.2-ci maddəsi (hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə müqavimət göstərmə) ilə cinayət işi başlanıb. Bloger ittihamın yalan və böhtan olduğunu bildirib və bu qərara etiraz olaraq aclığa başlayıb.

M.Hüseynova qarşı yeni cinayət işinin açılması ciddi beynəlxalq reaksiyalara səbəb olub. ABŞ senatoru Marko Rubio,[13] ABŞ Helsinki Komissiyasının həmsədri Kris Smit,[14] ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi Harlem Desir,[15] Avropa Şurasının İnsan Haqları üzrə Komissarı Dunya Miyatoviç,[16] Avropa Şurası Paplament Assambleyasının Azərbaycan üzrə məruzəçiləri Stefan Şennak və Rocer Qeyl,[17] Fransa Xarici İşlər Nazirliyi,[18] o cümlədən Sərhədsiz Reportyorlar və Amnesty International da daxil olmaqla çoxsaylı beynəlxalq təşkilatlar Azərbaycan hökumətini M.Hüseynovu həbsdən azad etməyə çağırıb.

17 yanvar 2019-cu ildə Avropa Parlamenti "Azərbaycanda insan haqları, demokratiya və qanunun aliliyinin pozulması ilə bağlı qətnamə" qəbul edib. Sənəddə M.Hüseynovu dərhal, qeyd-şərtsiz azad etməyə, ona qarşı yeni ittihama xitam verilməsinə çağrılıb[19].

22 yanvar 2019-cu ildə Baş Prokurorluğun Mətbuat xidmətininin yaydığı məlumatda bildirilib ki, M.Hüseynov və bir qrup hüquq müdafiəçisi bloqer barəsində aparılan istintaqın obyektivliyinin təmin edilməsi üçün dövlət başçısına müraciəti əsasında *"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman olduğu kimi*

---

13 https://bit.ly/2RFlk1p
14 https://bit.ly/2sz6JFJ
15 https://bit.ly/2QYhXgV
16 https://bit.ly/2TwopNR
17 https://bit.ly/2Cw0RBX
18 https://bit.ly/2ARp4mc
19 https://bit.ly/2Rzwwwx

*ədalət və humanizm prinsiplərini önə çəkərək həmin müraciətləri nəzərə alıb və cinayət işi üzrə araşdırmanın obyektiv aparılması, ədalətli və humanist qərar qəbul olunması üçün qanunla nəzərdə tutulmuş bütün zəruri tədbirlərin görülməsini"* Baş Prokurora tövsiyə edib; Bu tövsiyəyə uyğun olaraq Baş Prokuror M.Hüseynovun barəsində hazırda istintaq olunan cinayət işi üzrə müvafiq tapşırıqlar verib və istintaq orqanı *"M.Hüseynovun gənc olduğu, cəza çəkdiyi müddətdə intizam məsuliyyətinə cəlb edilmədiyi, islah olunma yoluna qədəm qoyduğu, ailəsində qayğıya ehtiyacı olan yaşlı və tək yaşayan atasının olduğu, törətdiyi cinayətin az ağır cinayətlər kateqoriyasına aid olmaqla, hazırda onun əməlinin və şəxsiyyətinin cəmiyyət üçün təhlükəli olmadığını"* nəzərə alınaraq, bloger barəsindəki cinayət işinin icraatına xitam verib. Həmçinin Baş Prokurorluğun müraciətində *"şəxsi mənafe və siyasi məqsədləri naminə M.Hüseynovun ətrafında süni ajiotaj yaratmağa cəhd edənlərə, eyni zamanda M.Hüseynov haqqında həqiqətə uyğun olmayan məlumatlar yayan kütləvi informasiya vasitələrinin redaksiyalarına"* xəbərdarlıq edilərək bildirilib ki, *"ölkədə bərqərar olmuş sabitliyin və əmin-amanlığın pozulmasına yönələn istənilən qanunazidd hərəkətlərin qarşısı qanunun aliliyi təmin edilməklə qətiyyətlə alınacaq".*

---

## 8. Əfqan Sabir oğlu MUXTARLI



*© şəxsi Facebook səhifəsi*

**Saxlanma tarixi:** 29 may 2017-ci il

**İttiham:** CM-in 206.1 *(qaçaqmalçılıq, yəni Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə bu Məcəllənin 206.2-ci maddəsində qeyd edilənlər istisna olmaqla*[20] *malların və digər əşyaların külli miqdarda keçirilməsi),* 315.2 *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* və 318.1-ci *(Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və ya dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçmə)* maddələri

**Cəzasının müddəti:** 6 il

**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Son illər ərzində müstəqil şəkildə jurnalist fəaliyyəti ilə məşğul olan və Azərbaycanda vəzifəli şəxslərin, o cümlədən Prezident və onun ailəsinin

---

[20] 206.2-ci maddə ilə qadağan edilən əşyalar: narkotik vasitələr, psixotrop maddələr, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələr və qurğular, hərbi silah və texnika, odlu silah və ya döyüş sursatı, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahları, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən və Azərbaycan Respublikası gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materiallar və avadanlıqlar, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üçün müvafiq qaydalar müəyyən edilmiş strateji əhəmiyyətli xammal, mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyalar

biznesi ilə bağlı araşdırma aparan Ə.Muxtarlı 2014-cü ildə təqiblərdən qorunmaq məqsədilə Tbilisi şəhərinə köçmüşdü. Burada yazıları ilə yanaşı, o, siyasi məhbuslara dəstək verib, onların azadlığa buraxılması tələbi ilə Azərbaycanın Gürcüstandakı səfirliyi qarşısında keçirilən aksiyaların təşkilatçısı və iştirakçısı olub.

Mayın 4-də Azərbaycan hakimiyyətinə yaxın bir sıra xəbər saytlarında "Gürcüstanda gizli anti-Azərbaycan yuvaları" adlı yazı dərc edilib. Məqalədə heç bir əsas göstərilmədən Azərbaycan hakimiyyətini tənqid edən və Gürcüstanda məskunlaşan və ya fəaliyyət göstərən bir sıra jurnalistlər, hüquq müdafiəçiləri, fəallar, o cümlədən Əfqan Muxtarlı dövlətə qarşı cinayət törətməkdə, qeyri-qanuni məqsədlər üçün xaricdən maliyyə dəstəyi almaqda ittiham ediliblər.

Mayın 29-da axşam saatlarına evə gəlməli olan jurnalistdən xəbər çıxmadığından onun yaxınları mətbuata bu barədə məlumat veriblər, eyni zamanda, Tbilisi polisinə də rəsmi qaydada müraciət ediblər. Mayın 30-da məlum olub ki, Ə.Muxtarlı saxlanılıb və artıq Azərbaycana aparılıb. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti və Baş Prokurorluq mayın 31-də birgə məlumat yayaraq Ə.Muxtarlının Gürcüstandan Azərbaycana qanunsuz keçmək istəyərkən saxlanıldığını və üzərindən 10,000 avro götürüldüyünü, saxlanılarkən sərhədçilərə müqavimət göstərdiyini bildirib. Təqiblərə görə ölkəsini tərk edən jurnalistin xarici pasportunu Tbilisidə evdə qoyub, üzərində 10,000 avro pulla Azərbaycana qayıtmağa cəhd etməsini inandırıcı saymayan müdafiə tərəfi bəyanatda deyilənləri əsassız və ittihamları qondarma sayıb.

Mayın 30-da vəkili ilə görüşən Ə.Muxtarlı Tbilisidə axşam saatlarında evə gedərkən yerli kriminal polis tərəfindən oğurlanaraq "Opel" markalı avtomobilə zorla otuzdurulduğunu, əllərinin arxadan bağlanıldığını və ona zərbələrin endirildiyini, başına torba keçirildiyini, 2 saata yaxın yol getdikdən sonra maşının dəyişdirilərək yenidən naməlum istiqamətdə aparıldığını, daha sonra isə Azərbaycan dilində danışan şəxslərin olduğu üçüncü maşına mindirildiyini bildirib. Hər üç avtomobildə olan şəxslər kimlərəsə yolboyu məruzə ediblər. Jurnalist maşından endirildikdən və torba başından çıxarıldıqdan sonra Dövlət Sərhəd Xidmətinin zastavasında olduğunu vəkilinə xəbər verə bilib.

Ə.Muxtarlının barəsində mayın 31-də Səbail Rayon Məhkəməsinin qərarı ilə 3 aylıq həbs qətimkan tədbiri seçilib (2017-ci ilin avqustunda bu müddət daha 2 aylıq artırılıb). Məhkəməyə gətirilərkən jurnalistin alnında, burnunda, qaşlarının arasında qançır və çağıqların olduğunu müşahidə etmək mümkün olub. Bununla belə, jurnalist dərhal tibbi ekspertizadan keçirilməyib və zastavanın müşahidə kameralarının görüntüləri vəkil tərəfindən istənilsə də təqdim olunmayıb.

Gürcüstanın Daxili İşlər Nazirliyi hadisə ilə bağlı azadlığın qanunsuz məhdudlaşdırılması maddəsi ilə cinayət işi açıb. Jurnalistin həyat yoldaşı cinayət işinin gedişindən narazılığını bildirib. O, mayın 29-da Ə.Muxtarlının olduğu və keçdiyi, o cümlədən aparıldığı ehtimal olunan yol boyu heç bir təhlükəsizlik kamerasının işləməməsinin təsadüf olmadığını bildirib. Cinayət işi iyul ayından Gürcüstanın Baş Prokurorluğunun icraatındadır.

Avropa Parlamenti iyunun 15-də Ə.Muxtarlının işi ilə bağlı qətnamə qəbul edib və onun dərhal azad edilməsinə çağırıb[21]. Amnesty International təşkilatı həbsindən

---

[21] http://bit.ly/2vSsbpV

dərhal sonra jurnalisti “vicdan məhbusu” kimi tanıyıb[22]. Avropa İnsan Hüquqları Məhkəməsi jurnalistin şikayəti üzrə prioritet qaydada araşdırmalara başlayıb.

*12 yanvar 2018-ci ildə Balakən Rayon Məhkəməsi (hakim Hümbət Səlimov) Əfqan Muxtarlını* ***6 il*** *müddətinə həbs cəzasına məhkum edib. Şəki Apellyasiya Məhkəməsi (sədrlik edən Rafail Əliyev) 24 aprel 2018-ci il tarixli qərarı ilə birinci instansiya məhkəməsinin, Ali Məhkəmə (sədrlik edən Fərhad Kərimov) isə 18 sentyabr 2018-ci il tarixli qərarı ilə apellyasiya instansiyasının qərarını qüvvədə saxlayıb.*

7 oktyabr 2018-ci ildə Ə.Muxtarlı karsa salınıb. Səbəb kimi onun tibb məntəqəsinə icazəsiz getdiyi göstərilib. Həyat yoldaşının bildirdiyinə görə, əsas səbəb jurnalistin siyasi məhbus Məmməd İbrahimə qarşı yeni cinayət işinin açılmasına etirazı olub. Ə.Muxtarlı karsda soyundurularaq 1 saat yağışlı havada saxlandıqdan sonra sərbəst buraxılsa da, telefon danışıqlarına məhdudiyyət qoyulub. Əvvəllər həyat yoldaşı, ailə üzvləri və ona yemək aparan dostlarına həftədə iki dəfə zəng edirdisə, karsdan sonra yalnız həyat yoldaşı ilə danışmağa icazə verilib. Jurnalist ailəsi ilə konfidensial danışığın təmin edilməməsindən, telefon danışığı zamanı Cəzaçəkmə Müəssisəsinin əməkdaşının yanında dayanmasından şikayətlənib. Onun həyat yoldaşı göndərilən siyasi məzmunlu kitabların da ona verilməsinin qadağan edildiyini bildirib. Məhdudiyyətlərlə bağlı Baş Prokurora, Ədliyyə Nazirliyinə, Ombudsman Aparatına şikayətlər edilsə də, nəticəsiz qalıb. Ə.Muxtarlı həbsdə qeyri-insani rəftara məruz qalması, telefonla danışığına, yaxınları ilə görüşünə və kitab verilməsinə məhdudiyyət qoyulması ilə bağlı Suraxanı Rayon Məhkəməsinə iki şikayət verib.

27 dekabr 2018-ci ildə Suraxanı Rayon Məhkəməsi (hakim Ramil Həsənov) Əfqan Muxtarlının pis rəftara məruz qalması ilə bağlı şikayətinə baxaraq Cəzaçəkmə Müəssisəsinin əməkdaşlarının rəftarında cinayət tərkibinin olub-olmadığını araşdırmaq üçün işi Suraxanı Rayon Prokurorluğuna göndərib. 28 dekabrda Suraxanı Rayon Məhkəməsində (hakim Ceyhun Qədimov) jurnalistin telefonla danışığına, yaxınları ilə görüşünə və kitab verilməsinə gətirilən məhdudiyyətlərlə bağlı verdiyi şikayətə baxılıb. Məhkəmə şikayəti əsassız sayaraq təmin etməyib.

---

## 9. Ziya Əlirza oğlu ƏSƏDLİ



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 5 sentyabr 2017-ci il (məhkəmə zalında həbs olunub)

**İttiham:** CM-in 221.3-cü *(xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 3 il

---

[22] http://bit.ly/2qA3HOS

**Saxlandığı yer:** 5 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Z.Əsədli Azərbaycanda müxalif mövqeyi ilə fərqlənən "Azadlıq" qəzetinin bölgə müxbiri olub, Azərbaycan hakimiyyətini və onun apardığı siyasəti sərt tənqid edən, peyk üzərindən xaricdən yayımlanan "Azərbaycan Saatı" onlayn televiziyası ilə əməkdaşlıq edib. Rayonla bağlı tənqidi materiallar, videolar hazırlayaraq "Azərbaycan Saatı"na göndərib.

Jurnalist yaşadığı Biləsuvar rayonunda çayxanada guya xuliqanlıq etdiyinə görə haqqında cinayət işi qaldırılıb. Elan edilmiş ittihamda Z.Əsədli 19 aprel 2017-ci ildə Biləsuvar şəhəri M.İbrahimov küçəsində Aslan Həsənov adlı şəxsin işlətdiyi çayxanada onu təhqir etməkdə, istintaqın soyuq silah saydığı "Samsung" telefonu ilə ona xəsarət yetirməkdə ittiham olunub.

Cinayət işi 26 aprel 2017-ci ildə fakta görə CM-in 221.1-ci maddəsilə başlansa da, sonradan – 27 may 2017-ci ildə 221.3-cü maddəyə (xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) tövsif olunub.

27 may 2017-ci il tarixdə Z.Əsədli təqsirləndirilən şəxs qismində cəlb edilməklə ona CM-in 221.3-cü maddəsilə ittiham elan olunub və barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

*Z.Əsədli Biləsuvar Rayon Məhkəməsinin (hakim Ramiz Nurullayev) 5 sentyabr 2017-ci il tarixli hökmü ilə CM-in 221.3-cü maddəsi ilə nəzərdə tutulan cinayəti törətməkdə təqsirli bilinib və **3 il** müddətinə azadlıqdan məhrum edilib. 9 yanvar 2018-ci ildə Şirvan Apellyasiya Məhkəməsi (sədrlik edən Rafiq Cəfərov), 12 iyun 2018-ci ildə isə Ali Məhkəmə (sədrlik edən Ferhad Kerimov) həmin hökmdən verilən şikayətləri rədd edib.*

---

## B. YAZARLAR/ŞAİRLƏR

### 10. Tofiq Xasay oğlu HƏSƏNLİ



**Saxlanma tarixi:** 12 oktyabr 2015-ci il

**İttiham:** CM-in 234.4.3-cü *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 6 il

**Saxlandığı yer:** 6 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış**: Tofiq Həsənli hakimiyyəti və onun apardığı siyasəti tənqid edən şəxslərdən olub. O, tənqidlərini yazdığı satirik şeirlərdə ifadə edib və bu şeirlərini

Youtube portalındakı səhifəsində[23] yerləşdirərək onları sosial şəbəkələrdə geniş şəkildə yayıb. Şeirləri arasında Azərbaycanın keçmiş prezidenti olmuş Heydər Əliyevin siyasətini tənqid edən "Heydərnamə" adlı silsilə şeirlər toplusu[24] və başqa satirik şeirləri onun cinayət təqibinə səbəb olub. Şairin özü 2015-ci ilin yanvarında "Azadlıq" Radiosuna müsahibəsində şeirlərinə görə hədələndiyini, həbsinin real olduğunu bildirib[25].

T.Həsənli ANS telekanalında yayımlanan "Qulp" satirik verilişində ilk dəfə 2000-ci ildə şeirləri ilə çıxış edib. Yazdığı tənqidi "Dirsək" şeiri ilə populyarlaşıb və həmin kanalda başqa tənqidçi şair Baba Pünhanın müəllifi olduğu verilişə davamlı dəvət olunmağa başlayıb. Daha sonra "Millətin səsi" qəzetində fəaliyyətə başlayan şair qəzetin son səhifəsində 2015-ci ildə Youtube portalında yaydığı "Heydərnamə" adlı silsilədən 7 tənqidi şeir çap etdirib. Sonradan qəzet bağlandığından T.Həsənli müxtəlif mətbuat orqanları ilə əməkdaşlıq edib, bu əməkdaşlıq çərçivəsində onun "Xural" qəzetində "İlhamlı nəğmələr" silsiləsindən 7 şeiri çap edilib. Bu şeirlərinə görə o, tənqidi səslərə qarşı istifadə edilən narkotik maddə ittihamı ilə 2005-ci ildə həbs olunaraq ən yüksək cəzaya – 3 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib (qeyd edək ki, T.Həsənli ilk dəfə idi ki, cinayət məsuliyyətinə cəlb edilirdi və praktikada bu cür işlərdə ən yüksək cəza 2 ilə qədər olur). O, 2007-ci ildə Amnistiya Aktı əsasında azadlığa buraxılmışdı.

13 oktyabr 2015-ci ildə sosial şəbəkələrdə və bəzi xəbər portallarında şairin yoxa çıxması ilə bağlı xəbərlər yayıldı. Bundan 5 gün sonra T.Həsənlinin yaxınları onun həbs edildiyini və Bakı İstintaq Təcridxanasına köçürüldüyünü öyrənə biliblər. Polis şairin həbs edilməsi ilə bağlı xəbərləri onun həbsindən bir neçə gün sonra ictimaiyyətə açıqlayıb, halbuki qanunla şəxsin həbs edilməsi ilə bağlı məlumat dərhal onun yaxınlarına verilməli, istədiyi vəkillə təmin olunmasına şərait yaradılmalı idi.

T.Həsənli satıcılıq etdiyi dükanda həbs edilib. O, dükanı bağlamağa hazırlaşarkən yaşadığı ərazidə hamının narkoman kimi tanıdığı şəxs dükana girib, T.Həsənli onu dükandan çıxardıqdan sonra qapını bağlayıb, ordan uzaqlaşarkən polis əməkdaşları onu saxlayaraq geri qaytarıblar. Polis dükanda kassanın üzərindən narkotik maddənin tapıldığını iddia edib. Ancaq dükanda kassanın üzərində açıq şəkildə narkotik maddənin saxlanılması inandırıcı görünmür.

T.Həsənli Lənkəranda ahıl anası Zərifə Cəlalova ilə birgə yaşayırdı. Həbsindən sonra onun anasının bir neçə video müraciəti yayıldı; o, oğlunun qanunsuz həbs edildiyini, şeirlərinə, tənqidi çıxışlarına görə ondan qisas alındığını bildirib.

*T.Həsənli Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 22 avqust 2016-cı il tarixli hökmü ilə **6 il** müddətinə azadlıqdan məhrum edilib. Şirvan Apellyasiya Məhkəməsinin (sədrlik edən Ələsgər Novruzov) 22 dekabr 2016-cı il tarixli qərarı ilə bü hökm qüvvədə saxlanılıb. Ali Məhkəmənin 25 iyul 2017-ci il tarixli qərarı (sədrlik edən İmran Hacıqayıbov) ilə Şirvan Apellyasiya Məhkəməsinin qərarı qüvvədə saxlanılıb, kassasiya şikayəti təmin edilməyib.*

---

[23] http://bit.ly/29zyd76
[24] http://bit.ly/29zztYa
[25] http://bit.ly/29AYkap

## C. HÜQUQ MÜDAFİƏÇİLƏRİ

### 11. Əliabbas Fəxrəddin oğlu RÜSTƏMOV



*© www.azadliq.org*

**Saxlanma tarixi:** 28 iyun 2014-cü il

**İttiham:** CM-in 312.2-ci *(vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət vermə)* maddəsi

**Cəzasının müddəti:** 6 il

**Saxlandığı yer:** 10 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Əliabbas Rüstəmov "Yasavul" hüquq şirkətinin rəhbəri və tanınmış hüquq müdafiəçisidir. Həbsindən əvvəl Ə.Rüstəmov hakimiyyətin açıq tənqidçilərindən biri kimi çıxış edib. Facebook profilində ardıcıl olaraq ölkədəki problemlərlə bağlı sərt tənqidlər söyləyib və tənqidi yazıları paylaşıb. Ə.Rüstəmov Azərbaycanda 2013-cü ildə keçirilən prezident seçkisində müxalif blok olan Milli Şuranın namizədini və onun mitinqlərində iştirak edib. Seçkidən sonra da Milli Şuranın keçirdiyi tədbirlərə, ictimai dinləmə və marafonlara qatılıb.

Ə.Rüstəmov həbsindən öncə vicdan məhbusu Anar Məmmədlinin (Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri) vergi ittihamı ilə bağlı məhkəmə prosesində onun nümayəndəsi olmaq üçün müraciət edib. Xatırladaq ki, o, bu sahə üzrə ölkədə ən yaxşı ekspertlərdən biri sayılır, lakin onun A.Məmmədlinin müdafiəsində iştirakına inzibati yollarla əngəl yaradılıb. Həbsxanada olan A.Məmmədli Ə.Rüstəmovun nümayəndə olmasına razılıq imzasını notariusun iştirakı ilə təsdiqləməliydi; Təcridxananın rəhbərliyi ona bu şəraiti yaratmayıb.

17 mart 2014-cü ildə isə Ə.Rüstəmov prezident İlham Əliyevə ölkə ictimaiyyətinin diqqətini özünə çəkən çox sərt məzmunlu müraciət ünvanlayıb. Müraciət öncə açıq məktub kimi "Azadlıq" qəzetində dərc edilib, sonradan başqa KİV-lərdə və sosial mediada yayılaraq böyük rezonans yaradıb [26].

Dövlət başçısına "ətrafınızda olan yüksək rütbəli şəxslərin faktiki olaraq quldurluq fəaliyyəti barədə dolğun məlumat" sözləri ilə başlayan həmin müraciətdə 100 milyonlarla məbləğdə büdcə vəsaitinin oğurlanması barədə faktlar sadalanır. Bu məktubdan sonra Ə.Rüstəmovun həbs ediləcəyi deyilirdi və bu da 2014-cü ilin iyunun 28-də baş verdi. Ə.Rüstəmov həbs olunan gün yalnız "Azadlıq" qəzetinin müxbiri ilə danışmağa macal tapıb. "Saxlanılan gün Əliabbas Rüstəmov mənə zəng elədi və rüşvət almaqda ittiham olunduğunu dedi. O, saxlanılmasını sifarişli və prezidentə

[26] http://bit.ly/29NVGAi

müraciətlə bağlı olduğunu düşünür" – "Azadlıq" qəzetinin müxbiri Vidadi Məmmədov həmin gün "BBC Azərbaycanca"ya onun sözlərini çatdırıb.[27]

"Hüquq müdafiəçisi öz müştərisindən necə rüşvət ala bilər və bunu necə iddia etmək olar?!" deyə yerli mətbuat Ə.Rüstəmova qarşı irəli sürülən rəsmi ittihamı absurd" adlandırıb. Ə.Rüstəmovun həbsi tənqidi mövqeyi, müxalif mövqeli insanları müdafiə etməsi və dövlət başçısına sərt açıq məktub yazması ilə bağlıdır.

*06 noyabr 2015-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Rahib Salmanov) hökmü ilə Ə.Rüstəmov 7* ***il*** *müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi 18 avqust 2016-cı il tarixli qərarı ilə hüquq müdafiəçisinin şikayətini təmin etməyərək onu həbsdə saxlayıb. Ali Məhkəmə (sədrlik edən İmran Hacıqayıbov) 07 fevral 2017-ci il tarixli qərarı ilə təyin edilmiş çəzanın müddətini bir il azaldaraq onu* ***6 ilə*** *endirib.*

---

## D. SİYASİ VƏ İCTİMAİ FƏALLAR

### 12. İlkin Bakir oğlu RÜSTƏMZADƏ



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 17 may 2013-cü il

**İttiham:** CM-in 28 *(cinayətə hazırlıq)*, 220.1-ci *(zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə)*, 221.2.1 *(bir qrup şəxs tərəfindən və ya təkrar törədilən xuliqanlıq)* və 221.2.2 *(ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə törədilən xuliqanlıq)* maddələri

**Cəzasının müddəti:** 8 il

**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** İlkin Rüstəmzadə ictimai-siyasi proseslərdə fəal olan Azad Gənclik təşkilatının, həmçinin bir sıra müxalifət partiyalarının və vətəndaş cəmiyyəti təşkilatlarının birləşdiyi Milli Şuranın üzvüdür. NİDA Vətəndaş Hərəkatının üzvləri ilə birgə ittiham edildiyinə görə elə həbsxanada bu hərəkata qoşulub. Həbsinə qədər Azərbaycan Dövlət İqtisad Universitetində təhsil alıb.

---

[27] http://bbc.in/29If00u

12 yanvar və 10 mart 2013-cü il tarixlərində Azərbaycan Ordusundakı özbaşınalıq və qanunsuzluqlara, habelə dinc şəraitdə əsgər ölümlərinə etiraz olaraq Facebook vasitəsilə Bakının mərkəzində "Əsgər ölümlərinə son" aksiyasını təşkil edib, nəticədə, bu aksiyalara çoxsaylı etirazçı qatılıb. Məhz bu aksiyaları təşkil etdiyi üçün ona qarşı təzyiqlər başlayıb, o, polisə çağırılıb, bir neçə dəfə barəsində inzibati həbs seçilib. İ.Rüstəmzadə Azərbaycan Dövlət Neft Akademiyasında baş vermiş terror nəticəsində həlak olmuş şəxslərin anım günü – 30 aprel 2013-cü ildə gənclərin təşkil etdiyi "Terrora yox" aksiyasında saxlanılaraq 15 sutka inzibati həbs cəzası alıb. Bu həbs müddəti bitdikdən bir neçə gün sonra isə İ.Rüstəmzadə xuliqanlıq törətməkdə ittiham edilib və həbs olunub. Sentyabrın 12-də həbsdə olan NİDA üzvləri ilə bərabər ona qarşı da iğtişaşları təşkil etmə və ya iştirak etmə maddəsi ilə yeni ittiham irəli sürülüb və onun işi NİDA fəallarının cinayət işinə birləşdirilib.

*İlkin Rüstəmzadə Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Cavid Hüseynov) 6 may 2014-cü il tarixli hökmü ilə **8 il** müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Həsən Əhmədov) 16 dekabr 2014-cü il tarixli, Ali Məhkəmə (sədrlik edən İnqilab Nəsirov) isə 15 oktyabr 2015-ci il tarixli qərarlarla hökmü qüvvədə saxlayıblar.*

Amnesty International təşkilatı İlkin Rüstəmzadəni vicdan məhbusu kimi tanıyıb[28]. Onu da qeyd edək ki, onunla birgə həbs edilərək azadlıqdan məhrum edilmiş NİDA üzvləri sonradan əfv sərəncamları ilə azadlığa buraxılıblar.[29]

---

## 13. Asif Qəmbər oğlu YUSİFLİ


*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 25 dekabr 2014-cü il

**İttiham:** CM-in 178.2.4 *(dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə, xeyli miqdarda ziyan vurmaqla törədildikdə)* və 320.1-ci *(hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama, yaxud da bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma rəsmi sənədləri saxtalaşdırma)* maddələri

**Cəzasının müddəti:** 5 il

**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** A.Yusifli Azərbaycan Xalq Cəbhəsi Partiyası Sədrinin müşaviri, Partiyanın Rəyasət Heyətinin üzvüdür.

---

[28] http://bit.ly/1gJG6nt

[29] Avqustun 25-da Almaniyanın Kansleri Angela Merkel Bakıda rəsmi səfərdə olarkən ölkə prezidenti İlham Əliyevlə görüşü zamanı siyasi məhbuslar məsələsinə toxunanda İlkin Rüstəmzadənin və Mehman Hüseynovun adlarını xüsusu qeyd edib. https://bit.ly/2S4GQb9 .

O, həbs olunan gün AXCP-nin Nərimanov Rayon Şöbəsinin sədri Hacı Abbaslının avtomobili ilə birlikdə ofisə gedib, qayıdarkən sürücü yolda siqaret almaq üçün mağazaya gedib və oradan qayıdanda görüb ki, A.Yusifli avtomobildə yoxdur. Sonradan məlum olub ki, onu Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları saxlayıb.

*Bakı Ağır Cinayətlər Məhkəməsi 31 iyul 2015-ci il tarixdə Asif Yusiflinin **7 il 6 ay** müddətinə azadlıqdan məhrum edilməsi ilə bağlı hökm çıxarıb. Bakı Apellyasiya Məhkəməsi 09 oktyabr 2015-ci ildə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb. Ali Məhkəmə (sədrlik edən Əli Seyfəliyev) cəzanın azaldılaraq **6 ilə** endirilməsi barədə qərar qəbul edib.*

*Cinayət qanunvericiliyinə edilən vurulmuş ziyanın həcmi ilə bağlı dəyişklikləri nəzərə alaraq Nizami Rayon Məhkəməsi A.Yusifliyə qarşı ittihamı Cinayət Məcəlləsinin 173.2-ci maddəsindən 178.2.4-cü maddəsinə tövsif edərək cəzaçəkmə müəssisəsinin rejimini dəyişsə də, cəza müddətini azaltmayıb. Bu qərardan verilən apellyasiya şikayəti təmin edilməyib, Ali Məhkəmə isə (sədrlik edən İnqilab Nəsirov) 02 mart 2017-ci il tarixli qərarı ilə cəzanı **5 ilə** endirib.*

A.Yusiflinin cəzasının üçdə ikisini çəkdikdən sonra cəzanın çəkilməmiş hissəsindən vaxtından əvvəl azad edilməsi ilə bağlı müraciətini Suraxanı Rayon Məhkəməsi təmin etməyib. 13 iyun 2018-ci ildə Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Rizvan Səfərov) qərarı qüvvədə saxlayıb.

A.Yusifli Qarabağ müharibəsi əlilidir, həbsindən az öncə ayağından əməliyyat olunub, himayəsində iki azyaşlı uşağı var ki, onlardan da biri ağır formalı diabet xəstəliyindən əziyyət çəkir.

---

## 14. Fuad Əli oğlu QƏHRƏMANLI



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 8 dekabr 2015-ci il

**İttiham:** CM-in 220.2 *(hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırış etmə)*, 281.2 *(hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya ölkənin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma)* və 283.2.1-ci *(milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 10 il

**Saxlanıldığı yer:** 10 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** F.Qəhrəmanlı hakimiyyəti və onun apardığı siyasəti kəskin tənqid edən Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) Sədrinin müavinidir. Uzun müddətdir siyasətlə məşğul olur, bir sıra etiraz aksiyalarının təşkilatçısı olub, razılaşdırılmamış, lakin dinc etiraz aksiyalarında dəfələrlə inzibati qaydada saxlanılıb, fiziki təzyiqlərə məruz qalıb. Mətbuatda və sosial şəbəkələrdə davamlı tənqidi yazılarla çıxış edib.

2015-ci il noyabrın 26-da Bakının Nardaran qəsəbəsində dindar fəal Taleh Bağırzadə və tərəfdarları ilə polis arasında ikisi polis, beşi sakin olmaqla 7 nəfərin ölümü ilə nəticələnən münaqişə baş verir. Nəticədə T.Bağırzadə də daxil olmaqla onlarla dindar fəal həbs edilib və onlara qarşı çox sayda ağır maddələr üzrə ittihamlar irəli sürülüb. F.Qəhrəmanlı bu hadisələrlə bağlı Facebook-da statuslar yazaraq fikirlərini bölüşüb. Tutulan dindarların, əslində, təqsirsiz olduğunu, onların hakimiyyətin siyasətini tənqid etdikləri üçün saxlandıqlarını və dindar kəsimə xitabən Nardaran qəsəbəsində baş verən hadisələrə reaksiya verilmədiyini, T.Bağırzadənin meydanda tək qoyulduğunu vurğulayıb. Belə çıxışlarından sonra həm F.Qəhrəmanlıya, həm də təmsil etdiyi partiyaya qarşı “cinayətkarlara dəstək verirlər” tezisi ilə hakimiyyətyönlü mətbuat orqanlarında qarayaxma kampaniyası başlanıb.

F.Qəhrəmanlı bu hadisələrlə bağlı istintaqı aparan Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsinə Nardaran hadisələrindən 10 gün sonra telefon vasitəsilə dəvət edilib. O, hansı statusla istintaqa çağırıldığını və rəsmi bildirişin olub-olmamasını soruşub, lakin cavab ala bilmədiyindən istintaqa getməyib. Az sonra uşaqlarını məktəbdən evə gətirərkən polis əməkdaşları F.Qəhrəmanlını yaşadığı həyətdə saxlayaraq məcburi şəkildə İstintaq İdarəsinə aparıblar.

F.Qəhrəmanlıya qarşı rəsmi olaraq Facebook səhifəsində yazdığı fikirlərə görə ittiham irəli sürülüb və onun barəsində həbs qətimkan tədbiri seçilib. Məhkəmədə olduğu zaman onun evində axtarış aparılıb və axtarış nəticəsində kompüteri götürülüb.

Həbsindən 5 ay sonra - 2016-cı ilin mayında ona daha bir maddə, CM-in 220.2-ci maddəsi üzrə ittiham irəli sürülüb.

F.Qəhrəmanlının Nardaran hadisələri ilə bağlı yazdığı statusları analiz edərkən asanlıqla görmək mümkündür ki, bu qeydlər onun siyasi yanaşmasını əks etdirir, ona qarşı irəli sürülmüş ittihamların tərkibini yarada biləcək fikirlər söyləməyib, qeydlərdə zorakılığa və ya ayrı-seçkiliyə açıq çağırışlar yoxdur.

*F.Qəhrəmanlı Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Əlövsət Abbasov) 25 yanvar 2017-ci il tarixli hökmü ilə **10 il** müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Əmir Bayramov) 20 iyul 2017-ci il, Ali Məhkəmə (sədrlik edən Şahin Yusifov) 01 mart 2018-ci il tarixli qərarları ilə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb.*

Amnesty International Fuad Qəhrəmanlını vicdan məhbusu kimi tanıyıb[30].

---

[30] http://bit.ly/29JyV26

## 15. Qiyas Həsən oğlu İBRAHİMOV



© *Fərqanə Novruzova*

**Saxlanma tarixi:** 10 may 2016-cı il

**İttiham:**

***Birinci cinayət işi üzrə:*** CM-in 234.4.1 və 234.4.3-cü (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, qabaqcadan əlbir olan bir qrup tərəfindən və külli miqdarda törədildikdə)* maddələri

***İkinci cinayət işi üzrə:*** CM-in 289.2-ci *(məhkəmə baxışı iştirakçılarını təhqir etməklə məhkəməyə hörmətsizlik etmə, hakim barəsində törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 10 il 3 ay

**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** 10 may 2016-cı ildə səhər saatlarından etibarən sosial şəbəkələrdə və bəzi xəbər portallarında Azərbaycanın keçmiş Prezidenti Heydər Əliyevin Bakının mərkəzində olan heykəlinin üzərində yazıları əks etdirən fotolar yayılıb. Fotolardan aydın görünür ki, heykəlin postamentinə "Qul bayramınız mübarək" və "Fuck the System" ifadələri yazılıb və anarxistlərə məxsus simvolika da yazılarla bərabər postament üzərinə çəkilib. Mayın 10-da Azərbaycanda H.Əliyevin doğum günü ilə əlaqədar Gül Bayramı keçirilir. Bu yazılar həmin bayrama etiraz formasıdır.

Mayın 11-də isə sosial şəbəkələrdə və xəbər portallarında iki gənc fəalın yoxa çıxması ilə bağlı məlumatlar yayılıb. Bununla belə, rəsmi məlumat yalnız mayın 12-də yayılaraq bildirilib ki, Qiyas İbrahimov və Bayram Məmmədov adlı gənclər narkotik maddə ittihamı ilə mayın 10-da saxlanılıb. Onların hər birindən 1 kq-dan artıq heroinin aşkar edilərək götürüldüyü iddia olunub. İmkansız ailədə yaşayan gənclərin bu miqdarda narkotik maddəni əldə etmələri ilə barədə rəsmi məlumat cəmiyyətdə birmənalı qarşılanmayıb, bu həbslə bağlı yerli mediada, sosial şəbəkələrdə gedən müzakirələrdə, vəkillərinin çıxışlarında, həm yerli, həm də beynəlxalq təşkilatların bəyanatlarında ittihamın saxta, cinayət təqibinin isə siyasi motivli olduğu bildirilir.

Gənclər saxlandıqları vaxt və saxlandıqdan sonra döyülüblər, hər ikisi qeyri-insani və insan ləyaqətini alçaldan rəftara məruz qalıblar. Mayın 12-də onlar barəsində Xətai Rayon Məhkəməsinin (hakim İbrahim İbrahimli) qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib (B.Məmmədov barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti Xətai Rayon Məhkəməsinin 06 sentyabr 2016-cı il tarixli qərarı ilə daha 2 ay uzadılıb).

Məhkəmə araşdırmasının gedişində hər iki gəncin döyülməsi və zorakılığa məruz qalması açıq şəkildə görünüb. Bundan əlavə, vəkil Elçin Sadıqov mayın 12-də

gənclərin saxlandığı Nərimanov Polis İdarəsinin müvəqqəti saxlanma yerində Q.İbrahimovun polis idarəsinin ərazisini süpürməyə məcbur edildiyinin şahidi olub və bunu sənədləşdirmək üçün polis idarəsinin təhlükəsizlik kameralarından çıxarışların alınması məqsədilə sorğu ilə müraciət edib. Gənclər onlara verilən işgəncə ilə bağlı yerli və beynəlxalq ictimaiyyətə müraciət ediblər[31] [32].

BMT-nin Özbaşına Saxlanma üzrə İşçi Qrupu üzvlərinin həmin tarixlərdə Bakıya səfəri olduğundan Qrupun bəzi ekspertləri hər iki gənclə görüşüb. Səfərin nəticələri ilə bağlı dərc edilən hesabatda Qrup gənclərlə zorakı davranışın nəticəsi ola biləcək xəsarətləri gördüklərini qeyd ediblər[33]

Bundan əlavə, gənclərə yaxınları və istədikləri vəkillə əlaqə saxlamaq imkanı verilməyib, bu da ciddi qanun pozuntusudur. Onların saxlanması da faktiki olaraq 2 sutkaya yaxın gizli saxlanılıb. Mayın 11-də hər iki gəncin evində axtarışa gələn polislər ailə üzvlərinin evə girməsinə imkan verməyiblər, onlar evdə qısa müddət ərzində narkotik maddə aşkarladıqlarını bildirərək oradan gediblər.

Hər iki gənc həbs qətimkan tədbiri seçilərkən iştirak etdikləri proseslərdə bildiriblər ki, postamentin üzərinə yazıları onlar yazıblar. Polislər onlardan dövlət televiziyasının çəkiliş aparması şərti ilə heykəldən üzr istəməyi tələb edib. Bunun əvəzində isə onları azadlığa buraxmağa hazır olduqlarını deyiblər.

NİDA Vətəndaş Hərəkatının üzvü olan hər iki gənc Bakı Slavyan Universitetinin (BSU) sonuncu kurs tələbəsi olub. Həbs edilən zaman ali məktəbi bitirmək üçün son 2 imtahanları qalıbmış, vəkili həm Penitensiar Xidmətə, həm də BSU-ya gənclərin son imtahanlarını verməyə şərait yaradılması ilə bağlı müraciət etsə də, buna imkan yaradılmayıb və faktiki onların universiteti bitirməsinin qarşısı alınıb. Hər iki gənc Azərbaycan telekanallarında yayımlanan intellektual oyunların iştirakçısı və qalibi olub.

Freedom House və Human Rights Watch beynəlxalq hüquq müdafiə təşkilatları gənclər barəsində həbs qərarı verildikdən sonra bəyanatla çıxış edərək ittihamların inandırıcı olmadığını və həbsin ifadə azadlığına zərbə olduğunu bildiriblər[34] [35].

Amnesty International hər iki gənci vicdan məhbusu elan edib.[36] Hər ikisinin qanunsuz həbsi ilə bağlı şikayətləri Avropa Məhkəməsinə göndərilib.

Saxlandıqları zaman işgəncə və insanlığa sığmayan rəftara məruz qalmaları ilə bağlı cinayət işinin açılması üçün gənclərin verdiyi ərizəni Səbail Rayon Məhkəməsi sentyabrın 14-də təmin etməyib.

*Dövlət ittihamçısı Q.İbrahimovun 9 il müddətinə azadlıqdan məhrum edilməsini təklif edib, lakin məhkəmə praktikasında nadir rast gəlinən hadisə baş verib: Ağır Cinayətlər Məhkəməsi (sədrlik edən Ənvər Seyidov) 25 oktyabr 2016-cı il tarixdə Q.İbrahimovu prokurorun təklif etdiyi cəzadan daha ağır cəza - **10 il** müddətinə*

[31] http://bit.ly/1PTM4EM
[32] http://bit.ly/1UJy0ML
[33] http://bit.ly/25RjOtI
[34] http://bit.ly/2afehU8
[35] http://bit.ly/1UZbzFm
[36] http://bit.ly/29MDXKm

*azadlıqdan məhrum etmə cəzasına məhkum edib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Vüqar Məmmədov) 05 iyun 2017-ci il tarixdə, Ali Məhkəmə (sədrlik edən İnqilab Nəsirov) isə 30 noyabr 2017-ci il tarixdə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb.*

Gənc fəalın işinə baxan Bakı Apellyasiya Məhkəməsinin hakimlər heyəti Q.İbrahimov və onun atası Həsən İbrahimov tərəfindən proses zamanı təhqir edildiklərini iddia edərək şikayət etdikləri üçün hər iki şəxsə qarşı cinayət işi açılıb.

*Bu iş üzrə Q. İbrahimov Yasamal Rayon Məhkəməsinin (hakim Hüseyn Səfərov) 18 dekabr 2017-ci il tarixli hökmü ilə **3 ay** müddətinə azadlıqdan məhrum edildiyindən onun cəzası 10 il 3 aya qaldırılıb. Fəalın atası da 6 ay müddətinə ictimai işlər növündə cəza təyin edilərək məhkum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Rizvan Səfərov) 21 fevral 2018-ci il tarixli qərarı ilə həmin hökmü, Ali Məhkəmə (sədrlik edən Əli Seyfəliyev) isə 10 oktyabr 2018-ci il tarixli qərarı ilə apellyasiya məhkəməsinin hökmünü qüvvədə saxlayıb.*

---

**16. Bayram Fərman oğlu MƏMMƏDOV**



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 10 may 2016-cı il

**İttiham:** CM-in 234.4.1 və 234.4.3-cü *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, qabaqcadan əlbir olan bir qrup tərəfindən və külli miqdarda törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 10 il

**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** yuxarıdakı işlə eynidir (əlavə cinayət işi istisna olmaqla).
*əhkəməsinin (sədrlik edən Eynulla Vəliyev) 08 dekabr 2016-cı il tarixli hökmü ilə **10 il** müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Həsən Əhmədov) 10 fevral 2017-ci ildə, Ali Məhkəmə (sədrlik edən Fərhad Kərimov) isə 20 iyun 2017-ci ildə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb.*

---

## 17. Elgiz Camal oğlu QƏHRƏMAN



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 12 avqust 2016-cı il

**İttiham:** CM-in 234.1-ci *(satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama)* maddəsi

**Cəzasının müddəti:** 3 il

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Gənc fəal Türkiyədə təhsil aldığı və geri döndükdən sonra Azərbaycandakı ictimai-siyasi məsələlərə, insan haqlarına, Güney Azərbaycan, Doğu Türküstan türkləri məsələlərinə milli məsələ kimi yanaşıb, mitinq və konfranslarda aktiv şəkildə iştirak edib. O, 2015-ci ildən NİDA Vətəndaş Hərəkatının üzvüdür və ötən ilin noyabrında keçirilən son parlament seçkilərində hərəkatın namizədlərindən biri olub.

Gənc fəal Konstitusiyaya təklif edilən dəyişikliklərdən biri olmuş – Prezident seçilmək üçün yaş həddinin ləğv edilməsi təklifini Facoobok-da sərt şəkildə tənqid edib bundan qısa müddət sonra həbs edilib.

E.Qəhrəman avqustun 12-də saxlanılsa da, yaxınları bu barədə yalnız avqustun 13-ü axşam saatlarında xəbər tutub və yalnız bundan sonra istədikləri vəkili onun yanına göndərmək imkanı əldə ediblər. Lakin vəkil onunla yalnız avqustun 19-dan sonra, gənc fəal artıq Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsindən İstintaq Təcridxanasına köçürüldükdən sonra görüşə bilib. O, bir həftə bu İdarədə saxlanılıb və işgəncələrə məruz qalması barədə ictimaiyyətə məlumat göndərib. Onun hər iki vəkili E.Qəhrəmanın işgəncələrə məruz qaldığını, qarın nahiyəsində qızartıların qaldığını, lakin işgəncə ilə bağlı müraciətlərin araşdırılmadığını bildiriblər.

*E.Qəhrəman Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Azad Məcidov) 16 yanvar 2017-ci il tarixli hökmü ilə* ***5 il 6 ay*** *müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Sahibxan Mirzəyev) 18 may 2017-ci il tarixdə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb. Ali Məhkəmə (sədrlik edən Hafiz Nəsibov) 29 noyabr 2017-ci ildə E.Qəhrəmanın ittihamını daha yüngül maddəyə tövsif edərək cəzasının* ***3 ilə*** *endirilməsi barədə qərar çıxarıb.*

## 18. Fuad Zəfər oğlu ƏHMƏDLİ



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 18 avqust 2016-cı il

**İttiham:** CM-in 302.2 *(əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən belə tədbirlərin keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olan şəxslər tərəfindən həmin tədbirlərin qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan keçirilməsi şəxsin hüquq və qanunla qorunan mənafelərinin əhəmiyyətli pozulmasına səbəb olduqda, gizli qaydada informasiya əldə etmək üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə törədildikdə)* və 308.1-ci *(vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda)* maddələri

**Cəzasının müddəti:** 4 il

**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** AXCP Xətai Rayon Şöbəsi Gənclər Komitəsinin Sədri olan F.Əhmədlini Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) əməkdaşları saxlayıb, onun evində axtarış aparılıb. Axtarış zamanı Fətullah Gülənin çıxışları, "Gülən camaatı" adlandırılan qrupun üzvləri və "Hizmət imam"ları adlandırılan şəxslər və onların qarşılıqlı əlaqələri barədə sənədlər, "fətullahçılığın" təbliğini nəzərdə tutan dini məzmunlu müxtəlif ədəbiyyat, elektron informasiya daşıyıcılarının aşkar edildiyi bildirilsə də, gənc fəalın valideynləri bunu təkzib ediblər.

Gənc fəal həbs edilərkən onun yaxınlarına heç bir məlumat verilməyib, həbsindən 10 gün keçməsinə baxmayaraq, bir dəfə də olsun evlərinə zəng olunmayıb, vəkili isə onunla görüşə biməyib. F.Əhmədlini saxlayan DTX-dan vəkilə bildirilib ki, o buradan aparılıb, çünki işin istintaqını Baş Prokurorluq aparır. Ancaq həbsindən yalnız 10 gün sonra onun elə DTX-nın istintaq təcridxanasında olduğu məlum olub və vəkil onunla görüşə bilib. Sonradan gənc fəal Bakı İstintaq Təcridxanasına köçürülüb.

F.Əhmədli sosial şəbəkələrdə və etiraz aksiyalarında fəal iştirakçılardan olub, 2015-ci il ərzində etiraz aksiyaları ərəfəsində və sonra 2 dəfə inzibati qaydada (uyğun olaraq 25 və 10 gün) həbsə atılıb.

*F.Əhmədli Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Fikrət Qəribov) 16 iyun 2017-ci il tarixli hökmü ilə* ***4 il*** *müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Rizvan Səfərov) 16 avqust 2017-ci*

*il, Ali Məhkəmə (sədrlik edən İmran Hacıqayıbov) 06 mart 2018-ci il tarixlərində bu hökmü dəyişdirmədən qüvvədə saxlayıblar.*

19 iyul 2018-ci ildə Suraxanı Rayon Məhkəməsi (hakim Elçin Ağayev) 16 saylı Cəzaçəkmə Müəssisəsində keçirilən səyyar iclasında F.Əhmədlinin cəzasının 1/3 hissəsindən daha artığını çəkməsi və bu əsasla vaxtından əvvəl azadlığa buraxılması ilə bağlı müraciətinə baxıb. Cəzaçəkmə müəssisəsinin təmsilçisi F.Əhmədlinin müəssisənin ictimai həyatında aktiv iştirak etmədiyini, özünə qapandığını, digərləri ilə az ünsiyyətdə olduğunu, bu səbəbdən şərti azadlığa buraxılmasının məqbul olmadığı barədə qurumun rəyini elan edib. Məhkəmə həmin rəyi əsas tutaraq müraciəti təmin etməyib. 4 oktyabr 2018-ci ildə Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Sahibxan Mirzəyev) siyasi fəalın birinci instansiya məhkəməsinin qərarından verdiyi şikayəti rədd edib.

---

**19. Gözəl Oruc qızı BAYRAMLI**



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi:** 25 may 2017-ci il

**İttiham:** CM-in 206.1-ci *(qaçaqmalçılıq, yəni Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə bu Məcəllənin 206.2-ci maddəsində qeyd edilənlər istisna olmaqla*[37] *malların və digər əşyaların külli miqdarda keçirilməsi)* maddəsi

**Cəzasının müddəti:** 2 il 10 ay

**Saxlandığı yer:** 4 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Müxalifətdə olan Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədr müavini olan G.Bayramlı barədə mayın 4-də hökumətyönümlü media qarayaxma xarakterli məlumatlar yayaraq onu Gürcüstandan qeyri-qanuni yolla pul gətirərək ölkədə iğtişaşlar yaratmaqda ittiham etmişdi (*bax:* jurnalist Əfqan Muxtarlının işi).

Bu məqalədən bir neçə həftə sonra, mayın 25-də Gürcüstandan qayıdan G.Bayramlı sərhəddə saxlanılaraq həbs edilib və ona qarşı ölkəyə bəyan edilmədən 12 min ABŞ dolları keçirməklə qaçaqmalçılıq etməkdə ittiham olunub. Səbail Rayon Məhkəməsi mayın 26-da onun barəsində 3 aylıq həbs qətimkan tədbiri seçib (2017-ci ilin avqustunda bu müddət daha 2 aylıq uzadılıb).

Vəkil G.Bayramlının çantasında tapıldığı iddia edilən pulların və onların qablaşdırıldığı bağlamaların üzərindən əl-barmaq izlərinin götürülməsi, onların kimə

[37] bax 10-cu snoska

məxsus olmasını müəyyənləşdirmək üçün ekspertizanın keçirilməsi, mayın 25-də G.Bayramlının keçdiyi sərhəd-keçid məntəqəsində kamera görüntülərinin alınması barədə vəsatət verib. Lakin həbs qərarı bu vəsatətlər təmin edilmədən və işin obyektiv qiymətləndirilməsi üçün zəruri olan hallar araşdırılmadan verilib. G.Bayramlı istintaq təcridxanasına köçürüldükdən sonra davamlı təzyiqlərə məruz qalıb, səhhətində problemlərin yaranmasına baxmayaraq ona reseptləri və dərmanları verilməyib, yaxınları ilə görüşü və telefon danışıqları məhdudlaşdırılıb.

*23 yanvar 2018-ci ildə Qazax Rayon Məhkəməsi (hakim Ağarza Səmədov) G.Bayramlını **3 il** həbs cəzasına məhkum edib. 20 aprel 2018-ci ildə Gəncə Apellyasiya Məhkəməsi bu hökmü qüvvədə saxlayıb. 14 noyabr 2018-ci ildə Ali Məhkəmə (sədrlik edən Hafiz Nəsibov) siyasi fəalın kassasiya şikayətinə baxıb və onun cəzasının müddətini 2 ay azaldaraq 3 ildən **2 il 10 aya** endirib.*

---

## 20. Əlikram İdris oğlu XURŞİDOV



© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 22 noyabr 2017-ci il

**İttiham:** CM-in 221.3 *(silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunmaqla xuliqanlıq)* və 315.2 *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* və 318.1-ci *(Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və ya dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçmə) maddələri*

**Cəzasının müddəti:** 4 il 6 ay

**Saxlandığı yer:** 5 saylı Cəzaçəkmə Müəssisəsi

**Qısa arayış:** Ə.Xurşidov 2003-cü ildən müxalifətdə olan Müsavat Partiyasının üzvüdür. 2015-ci ildən Partiyanın Şirvan rayon təşkilatının sədri seçilib. O, bu vəzifəyə seçiləndən sonra rayon təşkilatının işi daha da canlanıb, parlament seçkilərində xüsusi fəallığı ilə fərqlənib.

Ə.Xurşidov sosial şəbəkələrdə xüsusi fəallığı ilə seçilib, rayon rəhbərliyi və ölkə prezidenti İ.Əliyev barəsində tənqidi yazılarla çıxış edib.

O, həbs ediləndək usta işləyib, fərdi evlərin təmiri ilə məşğul olub. Həbsindən bir ay əvvəl bir nəfər tanımadığı şəxs dəfələrlə zəng edərək, ona şəxsi evinin təmirini sifariş edib. Bundan sonra Ə.Xurşidov əvvəllər tanımadığı bir qadının evində işləməyə başlayıb. Ə.Xurşidovun dediyinə görə, ona ev sahiblərinin pis reputasiyalı olması və polislə sıx əlaqələri olduğuyla bağlı fikirlər çatdırılsa da, müştəri israr etdiyi üçün o, işdən imtina etməyib.

Noyabrın 22-də Ə.Xurşidov axşam radələrində iş paltarını dəyişib evdən getmək istərkən, evin təmirini sifariş edən şəxs onun qeyri-rəsmi yaşadığı qadına xəyanət etdiyini bildirərək qışqır-bağır salıb, onu zorla həyətə çıxarıb döyməyə başlayıb (xəsarətlər barədə ekspert rəyi var). Bundan sonra səs-küydən qorxan qadın polisə zəng edərək Xurşidovdan şikayət edib. Bu zaman evə gələn polislərə Xurşidovun guya daşla zərbə vuraraq xəsarət yetirdiyi iddia olunur. O, polis bölməsinə gətirilib, barəsində protokol tərtib edilərək, təmir olunan evin sahibi və onun rəfiqəsi olan qadından şikayət ərizəsi alınıb və Ə.Xurşidova qarşı cinayət işi açılıb. 24 noyabr 2017-ci ildə Şirvan Rayon Məhkəməsi onun barəsində 3 aylıq həbs qətimkan tədbiri seçib. Məhkəmənin qərarından verilən apellyasiya şikayətini 1 dekabr 2017-ci ildə Şirvan Apelyasiya Məhkəməsi təmin etməyib.

Öncə Ə.Xurşidova CM-in 221.2.2-ci və 221.3-cü maddələr üzrə ittiham olunmuşdusa, 6 yanvar 2017-ci ildə ittiham sərtləşdirilib: CM-in 221.2.2-ci maddəsi (hakimiyyət nümayəndəsinə müqavimət göstərməklə xuliqanlıq) 315.2 maddəsinə (həyat və ya sağlamlıq üçün təhlükəli olan zorakılıq tətbiq etməklə hakimiyyət nümayəndəsinə müqavimət göstərmək) tövsif edilib.

*4 may 2018-ci ildə Şirvan Şəhər Məhkəməsi (Elçin Qurbanov) Ə.Xurşidovu **5 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edib. 30 avqust 2018-ci ildə Şirvan Apellyasiya Məhkəməsi (Kamran Əkbərov) cəzanı **4 il 6** aya endirib.*

Ə.Xurşidov ittihamları qəbul etmir və ona qarşı qaldırılan cinayət işinin siyasi fəaliyyəti ilə bağlı olduğunu bildirir.

---

### 21. Orxan Rafiq oğlu Baxışlı




© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 07 may 2018-ci il

**İttiham:** CM-in 234.4.3 maddəsi *(qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, saxlama, daşıma, göndərmə və ya satma-külli miqdarda törədildikdə)*

**Cəzasının müddəti:** 6 il

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

**İş üzrə qısa arayış:** Gənc fəal 2011-ci ildən AXCP Gənclər Komitəsinin üzvüdür, partiyanın gənclər komitəsinin fəaliyyətində, tədbirlərin və mitinqlərin təşkilində ən fəal iştirak edən gənclərdən biri olub. Bu səbəblərə görə o, dəfələrlə polisə çağırılıb, xəbərdarlıq edilib, cərimələnib və inzibati həbslə cəzalandırılıb. 12 oktyabr 2013-cü ildə Milli Şuranın seçki kampaniyası çərçivəsində Bakının "Məhsul" stadionunda

keçirilən mitinqdən iki gün sonra O.Baxışlı polis idarəsinə çağırılıb, 50 manat cərimələnib.

Gənc fəal 2016-cı ildən etibarən Milli Şuranın təşkil etdiyi bütün mitinqlərdə polis idarələrinə aparılıb, bəzilərində mitinqə çağırış vərəqəsi payladığı üçün polis tərəfindən xəbərdarlıq edilərək sərbəst buraxılıb. Hətta Milli Şuranın 23 sentyabr 2017-ci il mitinqi öncəsi - 18 sentyabrda gəncin atası Cəlilabad Rayon Polis Şöbəsinə çağırılıb, oğlu ilə bağlı xəbərdarlıq edilib.

O.Baxışlı Milli Şuranın 31 mart keçirdiyi mitinqdən öncə də saxlanılıb. O, 27 mart tarixdə mitinqə çağırış vərəqələrini küçələrə yapışdırmaq üçün saat 16.00 radələrində evdən çıxıb və geri qayıtmayıb, ailəsinin və partiya yoldaşlarının axtarışlarına baxmayaraq 29 mart səhər saatlarına qədər hələ də yeri naməlum olub. DİN-in qaynar xətti 102 və Ombudsman aparatının qaynar xəttinə zənglər olunsa da fayda verməyib, harda olduğunu deyən olmayıb. 29.03 tarixdə səhər yaşadığı ərazidə yerləşən 36-cı Polis Bölməsindən məlumat verilib ki, O.Baxışlıya Xətai Rayon Məhkəməsinin qərarı ilə İXM-in 535.1-ci maddəsi ilə (polisin qanuni tələbinə tabe olmamaq) inzibati qaydada 30 sutka həbs cəzası verilib.

İnzibati həbsdən çıxandan bir neçə gün sonra - mayın 3-də gənc fəal Beynəlxalq Söz Azadlığını Müdafiə günündə qətlə yetirilmiş jurnalist Elmar Hüseynovun məzarı başında aşağıdakı məzmunda çıxış edib: *"...Əliyev (İlham Əlliyevi nəzərdə tutur – red.) bir şeyi unutmasın ki, Elmar Hüseynovu və digər dostlarımızı qətlə yetirib susdurmağı düşünsə də, amma bugün onun yolunu davam etdirən Seymur Həzi var, onun yolunu şərəflə davam etdirən Mehman Hüseynov var. M.Hüseynov keçən il bu vaxtı [Elmar Hüseynovun] məzarı önündəydi, ondan bir neçə gün sonra M.Hüseynov həbs olundu və Elmarın məzarında o, gözəl bir çıxış eləmişdi. Həmin o gözəl çıxışdan sonra Mehman Hüseynovu Əliyev həbs etdirməklə istədi ki, bu yolu gedə bilməyək. Amma fəxr edirəm ki, bu yolu zindanlarda olsa belə şərəflə davam etirən İlkin Rüstəmzadə var, bu gün həmin yolu davam etdirən Mehman Hüseynov var, bu günləri o yolu gedən Seymur Həzi var, Fuad Əhmədli var... Qiyas var, Bayram var. Bununla fəxr etmək lazımdır..."*[38]

Bu çıxışdan 3 gün sonra o, 06 may 2018-ci il axşam radələrində Elmlər Akademiyasının qarşısındakı bağda mülki geyimli şəxslər tərəfindən saxlanılıb, bir gün onun hara aparıldığı və harada saxlandığı barədə məlumat əldə etmək mümkün olmayıb.[39] Daha sonra bəlli olub ki, gənc fəal Yasamal Rayon Polis İdarəsinə aparılıb. Mayın 8-də ona qarşı CM-in 234.4.3-cü maddəsi (satış məqsədilə külli miqdarda narkotik) ilə ittiham irəli sürülüb və Yasamal Rayon Məhkəməsinin qərarı ilə barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Mayın 16-da Bakı Apellyasiya Məhkəməsi O.Baxışlı barəsində seçilmiş 4 aylıq həbs qətimkan tədbirindən verilmiş şikayətə baxıb. Məhkəmədə o, bildirib ki, ümumiyyətlə, siqaret çəkməyib, narkotik maddə görməyib, narkotik maddənin onun cibinə polislərin yerləşdirdiyini ehtimal edib. Bakı Apellyasiya Məhkəməsi şikayəti rədd edib.

---

[38] https://bit.ly/2O1J5uy
[39] https://bit.ly/2O1J5uy

14 Avqust 2018-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsində (sədrlik edən Mahmud Ağalarov) O.Baxışlının məhkəməsi başlayıb. Məhkəmənin qapalı keçirilməsi ilə bağlı qərar qəbul edilməsə də, hazırlıq iclası faktiki olaraq qapalı keçirilib. O.Baxışlının valideynləri də daxil olmaqla, prosesi izləmək üçün gələnlərin heç biri məhkəmə zalına buraxılmayıb. 25 avqust 2018-ci ildə davam edən məhkəmə prosesi isə yarıqapalı keçirilib. O.Baxışlının valideynləri və Qərb ölkələri səfirliklərinin nümayəndələrindən başqa heç kəs məhkəmə zalına buraxılmayıb.

*Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Mahmud Ağayev) 18 sentyabr 2018-ci il tarixli hökmü ilə O.Baxışlı **6 il** müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Həsən Əhmədov)10 dekabr 2018-ci il tarixdə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb.*

---

## 22. Mirfeyzulla Əhməd oğlu Seyidov



© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 09 may 2018-ci il

**İttiham:** CM-in 234.4.3-cü maddəsi *(qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, saxlama, daşıma, göndərmə və ya satma - külli miqdarda törədildikdə)*

**Cəzasının müddəti:** İş istintaq mərhələsindədir**.**

**Saxlandığı yer:** Ev dustaqlığındadır.

**İş üzrə qısa arayış:** Mirfeyzulla Seyidov AXCP üzvüdür, 1980-cı illərin əvvəli və 1990-cı illərin sonlarında xalq hərəkatının fəal iştirakçısı olub. Hökümətin tənqidçilərindən biridir. Xüsusilə, tutulduğu günə qədər Facebook sosial şəbəkəsinin aktiv iştirakçısı olub, paylaşdığı statuslarda hökuməti tənqid edib, onu korrupsiyada günahlandırıb, 11 aprel prezident seçkilərinin nəticələrini seçki saxtakarlığı ilə hakimiyyətin yenidən qəsb edilməsi kimi qiymətləndirib, çıxış yolunun mübarizə olduğunu bildirib. Həbsindən 2 gün əvvəl M.Seyidov yazıb:

> "Dişin siniri çəkiləndə həssaslığını itirdiyindən istini, soyuğu hiss etmir. Bu qədər haqsızlığa xalqın reaksiyasının olmamasına məəətəl qalmışam. Bəlkə bu xalqın qeyrət sinirini çəkiblər?! Belə də dərd olar?!"

Mayın 9-da o, bir il öncə yazdığı statusunu yenidən paylaşıb:

> "Müstəqilliyimiz hər bir azərbaycanlının qürur mənbəyidir. Amma korrupsioner hakimiyyət müstəqilliyimizi xalqımıza zülm mənbəyi kimi göstərməkdədir... Elə bir Azərbaycan vətəndaşı yoxdur ki, bu yarıtmaz korrupsioner rejimin əməllərindən əziyyət çəkməsin. 25 ildir, xalqımız rejimin yaratdığı iqtisadi çətinlikdən, sosial ədalətsizliklərdən cana gəlibdir. Görün, nə qədər insanımız intihar edibdir?! Görün, nə qədər insanımız bu ölkəni tərk etməyə məcbur qalıbdır?!..."

Elə həmin gün - mayın 9-da o, saxlanılaraq Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinə (BMCMİ) aparılıb və barəsində CM-in külli miqdarda qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma (234.4.3) maddəsi ilə cinayət işi açılıb.

Mayın 10-da Nərimanov Rayon Məhkəməsi vəkilinin işitirakı olmadan onun barəsində həbs qətimkan tədbiri seçib və o, Bakı İstintaq Təcridxanasına köçürülüb. Vəkili ilə görüşü mayın 15-nə qədər təmin edilməyib. 15 mayda onunla görüşən vəkili mətbuata açıqlamasında bildirib ki, onun sağlamlıq durumu çox ağırdır, tibbi sənədlərə əsasən o xroniki böyrək xəstəsi - 1-ci qrup əlil olmaqla, həftədə üç dəfə əvəzedici böyrək müaciləsi-hemodializ alır. Bundan başqa, şəkərli diabet, diabetik nefropatiya, hipertoniya, anemiya xəsətiklərindən əziyyət çəkir, bir il öncə də ürək əməliyyatı keçirib və ürəyinə iki ədəd stend qoyulub.Vəkil M.Seyidovun sağlamlıq durumu ilə bağlı baş prokurorluğa müraciət edib, müraciətə onun xəstəliyini göstərən tibbi sənədləri də əlavə edib.

Mayın 21-də Bakı Apellyasiya Məhkəməsi M.Seyidov barəsində seçilmiş həbs qətimkan tədbirindən verilmiş şikayətə baxıb və qərarı dəyişmədən saxlayıb. Mayın 22-də Nərimanov Rayon Məhkəməsi Mirfeyzulla Seyidovun ev dustaqlığına buraxılması barədə vəsatətə baxıb. Məhkəmə vəsatəti təmin edərək onun barəsindəki seçilmiş həbs qətimkan tədbirini ev dustaqlığı ilə dəyişib.[40]

---

## 23. Azad Ayaz oğlu Həsənov



© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 10 oktyabr 2018-ci il

**İttiham:** CM-in 234.4.3-cü *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** İş İş üzrə məhkəmə davam edir.

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

**İş üzrə qısa arayış:** A.Həsənov 2003-cü ildən müxalif Müsavat Partiyasının üzvüdür. O, Partiyanın keçirdiyi tədbirlərin, mitinq və aksiyaların fəal iştirakçısı olub, dəfələrlə həbs edilib. O, 2014-cü ildə ailəsi ilə birlikdə Litvaya mühacirətə gedib. 2016-cı ilin yanvar ayında Litvadan siyasi sığınacaq alıb. O, ailəsi ilə birlikdə Litvanın Vilnüs şəhərində yaşayıb. A.Həsənov Litvada da siyasi fəaliyyətini davam etdirib, Azərbaycanda həbsdə olan siyasi məhbusların azad edilməsi üçün dəfələrlə aksiyalar

[40] https://bit.ly/2IGzxmp

təşkil edib, Müsavat Partiyasının mühacirətdə yaşayan fəallarının təsis etdiyi Müsavat Partiyasının Avropa Koordinasiya Mərkəzinin üzvü olub, tədbirlərində fəal iştirak edib.

A.Həsənovun dediyinə görə, 11 oktyabr 2018-ci ildə o, ölüm ayağında olan ağır şəkər xəstəsi atasını görmək üçün Bakıya gəlib. Aeroportda heç bir problemlə qarşılaşmayıb və oradan birbaşa Hövsana atasının evinə gedib. Həmin gün günorta namazı qılmaq üçün qardaşı ilə birlikdə məscidə gedib, oradan çıxarkən onlara dövlət nömrə nişanının sonu 662 ilə bitən qara "Hundai" markalı avtomobil yaxınlaşıb. Avtomobildən düşən 4-5 nəfər mülki geyimli şəxs A.Həsənovun qollarını burub avtomobilə oturdub naməlum istiqamətə aparıblar.[41] Onun aparıldığı yer haqqında yaxınlarına məlumat verilməyib, qardaşının Daxili İşlər Nazirliyinin 102 Qaynar Xəttindən onun yeri haqqında məlumat almaq cəhdi də uğursuz olub.

12 oktyabr 2018-ci ildə Müsavat Partiyası A.Həsənovun həbsi ilə bağlı bəyanat yayıb, onun harada saxlanması barədə məlumat verilməməsindən narahatlığını bildirib. A.Həsənovun vəkili deyib ki, onun harada saxlanıldığını müəyyən etmək üçün Sabunçu Rayon Polis İdarəsinə gedib, orada belə bir şəxsin İdarədə saxlanılmadığı bildirilib, vəkilə Xəzər Rayon Polis Şöbəsi və Baş Cinayətkarlıqla Mübarizə İdarəsinə müraciət etmək tövsiyə olunub. Həmin qurumlara baş çəkən vəkilə belə bir şəxsin saxlanılmadığı bildirilib. Vəkilin Baş Prokurorluğun və Ombudsman Aparatının qaynar xətlərinə müraciəti də bir nəticə verməyib.

4 gün sonra – oktyabrın 15-də bəlli olub ki, A.Həsənova cinayət işi açılıb. 12 oktyabr 2018-ci ildə Xətai Rayon Məhkəməsinin qərarı ilə onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. A.Həsənov məhkəmədə öz vəkilinin iştirakını tələb etsə də, buna imkan verilməyib, ona dövlət tərəfindən vəkil təyin edilib. Qərarda onun üzərindən 3.5 qram narkotik maddə olan heroin tapıldığı göstərilib.

A.Həsənov həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasıyla bağlı Xətai Rayon Məhkəməsinə vəsatət verib. Məhkəmə 26 dekabr 2018-ci il tarixli qərarı ilə vəsatəti təmin etməyib. A.Həsənov məhkəmənin bu qərarına və yaxın qohumları ilə telefon danışığına icazə verilməməsinə etiraz olaraq, həmçinin aclıq aksiyası keçirən video bloger Mehman Hüseynova[42] dəstək olaraq aclıq aksiyasına başlayıb.[43]

11 fevral 2018-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsində (sədrlik edən İradə Həsənzadə) iş üzrə məhkəmə prosesi başlayıb. Hazırlıq iclasında A.Həsənovun haqqında seçilmiş həbs qətimkan tədirinin ev dustaqlığı ilə əvəz olunması barədə fəalın vəkilinin qaldırdığı vəsatət təmin edilməyib.

A.Həsənov ailəlidir. Bir övladı var.

---

[41] https://bit.ly/2RLRnMi
[42] https://wapo.st/2M46dZl
[43] https://bit.ly/2MaceE9

## 24. Əbülfəz Niyaz oğlu SADIQOV



© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 21 noyabr 2018-ci il

**İttiham:** CM-in 178.2.1 *(dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə),* 178.2.4 *(eyni əməllər xeyli miqdarda ziyan vurmaqla törədildikdə)* və 320.1-ci *(hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama, yaxud ya bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma)* maddələri

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

**İş üzrə qısa arayış:** Əbülfəz Sadıqov Müsavat Gənclər Təşkilatının sədridir. O, 21 iyul 2015-cı ildə Nikoil İnvestisiya və Kommersiya Bankı ilə kredit müqaviləsi bağlayaraq ipoteka ilə NİVA markalı avtomobil alıb. 2017-ci ilin yanvarında həmin avtomobillə yol gedərkən bankın əməkdaşları tərəfindən saxlanılıb. Ona banka 8100 AZN borcu olduğu bildirilib. Ə.Sadıqov Nikoil Bankın Qaradağ filialına gedib. Ə.Sadıqov Filialda onun banka olan faizsiz borcunun 5100 AZN olduğu, bu məbləği ödəyərsə, avtomobili öz adına keçirə biləcəyi bildirilib. Siyasi fəalın bildirdiyinə görə, o, 21 may 2017-ci ildə həmin məbləği qohumlarından alaraq borcu ödəyib, avtomobili öz adına keçirib və bir neçə ay sonra onu satıb.

2 noyabr 2018-ci ildə Nikoil Bank Daxili İşlər Nazirliyinə ərizə ilə müraciət edərək Ə.Sadıqovun ipoteka predmeti olan avtomobili saxta sənədlər əsasında satdığını iddia edib və nazirlikdən müvafiq tədbir görülməsi xahiş edib. Ə.Sadıqov DİN-ə dəvət edilib, orada Nikoil Bankda mənimsəmə faktları ilə araşdırma çərçivəsində sorğu-suala tutulub. 8 noyabr 2018-ci ildə verilən şikayət əsasında Ə.Sadıqova qarşı cinayət işi açılıb. O, Nikoil Banka avtomobil kreditinə görə borclu olduğu 5100 manatı ödəmədiyi halda, ödəniş barədə saxta arayış tərtib edib yol polisinə təqdim etməklə avtomobili özününküləşdirməkdə ittiham edilib. Ə.Sadıqovun vəkili bildirib ki, borcun ödənildiyi ilə bağlı bankdan əldə edilən sənədlər ekspertizaya göndərilib. Ekspertizada sənədlərin Nikoil Bankdan verildiyi təsdiqlənib. Bununla belə, Nikoil Bankdan kimsə məsuliyyətə cəlb edilməyib.

21 noyabr 2018-ci ildə Səbail Rayon Məhkəməsinin (hakim Şahin Abdullayev) qərarı ilə Ə.Sadıqov barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib.

22 noyabr 2018-ci ildə Daxili İşlər Nazirliyi Ə.Sadıqovun həbsi ilə bağlı açıqlama verib; sənəddə bildirilib ki, Nikoil Bank DİN-ə ərizə ilə müraciət edərək, Ə.Sadıqovun ipoteka predmeti olan avtomobili saxta sənədlər əsasında satmaqla banka xeyli miqdarda ziyan vurduğunu göstərib. Bank DİN-dən məsələyə hüquqi

qiymət verilməsini və ziyanın ödənməsini xahiş edib. Bununla bağlı DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinin apardığı araşdırma nəticəsində müəyyən olunub ki, Ə.Sadıqov 21 iyul 2015-ci ildə Nikoil Bank ilə kredit müqaviləsi bağlayan zaman ipoteka ilə yüklü olunan avtomobili 2 il sonra - 21 may 2017-ci ildə girovdan azad edilməsinə dair özü və digər şəxslərlə birlikdə saxta sənəd hazırlayaraq, Baş Dövlət Yol Polisi İdarəsinə təqdim edib. Avtomobil girovdan azad edildikdən sonra satılıb və nəticədə, Ə.Sadıqov banka 22,5 min AZN-dən çox ziyan vurub. Bununla bağlı 2018-ci il noyabrın əvvəlində Baş İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin 178.2.1, 178.2.4 və 320.1-ci maddəsi ilə cinayət işi başlanılıb. Sənəddə borcun ödənildiyini təsdiq edən sənədin Nikoil Bank tərəfindən verildiyi inkar edilmir.

26 noyabr 2018-ci ildə Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Əflatun Qasımov) Ə.Sadıqovun həbs qətimkan tədbirindən verdiyi şikayəti təmin etməyib. Ə.Sadıqovun vəkilinin bildirdiyinə görə, məhkəmə zamanı bəlli olub ki, yalnız Ə.Sadıqovla bağlı deyil, başqaları ilə bağlı da oxşar epizodlar var, amma bank ancaq Ə.Sadıqovdan şikayətçi olduğuna görə onun haqqında cinayət işi başlanıb.

18 yanvar 2019-cu ildə Qaradağ Rayon Məhkəməsində (hakim Fuad Hüseynov) iş üzrə məhkəmə prosesi başlayıb. Proses zamanı bəlli olub ki, iş üzrə Ə.Sadıqovdan başqa daha iki şəxs – Dövlət Yol Polisinin əməkdaşı Asif Sadıqov və Nikoil Bankın hüquqşünası Kamran Abbasov cinayət işinə təqsirləndirilən şəxs qismində cəlb edilsə də, yalnız siyasi fəal haqqında həbs qətimkan tədbiri seçilib.

Məhkəmədə çıxışı zamanı Ə.Sadıqov DİN-də dindirilərkən, söhbətin cəmi 10 dəqiqəsinin bank krediti ilə əlaqədar olduğunu, qalan əksər sualların onun siyasi fəaliyyəti ilə bağlı olduğunu, müstəntiqin əsasən Müsavat Gənclər Təşkilatı, onun üzvlərinin sayı, gördüyü işlərlə bağlı suallar verdiyini, tez-tez Gürcüstana getməyinin səbəbini soruşduğunu bildirib.

Ə.Sadıqov məhkəmə ifadəsində daha sonra bildirib ki, krediti ödəyə bilmədiyi üçün DYP əməkdaşı olan yaxın qohumu A.Sadiqovun məsləhəti ilə Nikoil Bankın Qaradağ filialında çalışan hüquqşünas K.Abbasovla əlaqə saxlayıb. K.Abbasov ona banka olan borcun əsas hissəsinin devalvasiyadan əvvəlki məzənnə ilə ödənilərsə, güzəşt ilə faizlərin bağışlana biləcəyini bildirdikdən sonra Ə.Sadıqov 5100 AZN borcu ödəyərək bu barədə K.Abbasovdan arayış aldığını deyib.

Məhkəmədə ifadəsi zamanı K.Abbasov Ə.Sadıqova rəsmi blankda arayış verdiyini, həmin arayışa bankın orijinal möhürünün vurulduğunu və filial müdirinin imzasının qoyulduğunu bu səbəbdən sənədin saxta olmadığını bildirsə də, Ə.Sadıqovdan 5100 AZN almadığını bildirib. Ancaq DYP əməkdaşı olan qohumu A.Sadıqov həmin pulun hüquqşünasa verildiyini, ancaq cinayət işi açılandan sonra pulu geri qaytardığını bildirib, buna şahidlik edən iki şəxsin adını məhkəməyə təqdim edib. İş üzrə məhkəmə davam edir.

Aşağıdakı əsaslara görə həbsin siyasi motivli olduğu qənaətinə gəlmək olar:

- Nikoil Bankdan kredit götürən başqa şəxslərlə də bağlı oxşar hallar olsa da, yalnız Ə.Sadıqov haqqında cinayət işi açıldığı məhkəmədə məlum olub;
- cinayət işinə təqsirləndirilən şəxs kimi 3 nəfər cəlb edilsə də, yalnız Ə.Sadıqov haqqında həbs qətimkan tədbiri seçilib;

- Ə.Sadıqova verilən arayışda imzası olan filial müdiri isə heç bir məsuliyyətə cəlb edilməyib, cinayət işinə yalnız şahid kimi dəvət edilib və s.

---

***Müxalifətin maliyyələşdirilməsi işi***

8 may 2018-ci ildə 1992-1993-cü illərdə Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı olmuş, 1997-ci ildən Rusiyada kiçik bizneslə məşğul olan və rus vətəndaşlığını qəbul etmiş Saleh Rüstəmov Şəmkir rayonunda həbs edilərək Bakıya gətirilib.[44] Ona CM-in 234.4.3-cü maddəsi ilə (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, saxlama, daşıma, göndərmə və ya satma-külli miqdarda törədildikdə) ittiham elan edilib. Mayın 9-da vəkilin iştirakı olmadan Nərimanov Rayon Məhkəməsinin qərarı ilə onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Mayın 10-da S.Rüstəmovun qardaşı oğlu Vidadi Rüstəmli də Bakının Nərimanov rayonu ərazisində saxlanılıb və vəkilin iştirakı olmadan barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə eyni ittihamla 4 aylıq həbs qətimkan tədbiri seçilib.[45]

Mayın 25-də AXCP-nin rəhbər funksionerlərindən üç nəfər - AXCP Rəyasət Heyətinin üzvü Aqil Məhərrəmov, AXCP Gənclər Komitəsi Məclisinin sədri Ruslan Nəsirov və Nərimanov şöbəsinin sədri Babək Həsənov həbs ediliblər. Mayın 26-da dövlət tərəfindən təyin olunan vəkillərin iştirakı ilə hər biri barəsində 4 ay müdddətinə həbs qətimkan tədbiri seçilib.

26 mayda Baş Prokurorluq və Daxili İşlər Nazirliyi birgə açıqlama yayıb.[46] Açıqlamada bildirilir:

> "Prokurorluq və daxili işlər orqanları tərəfindən ölkənin iqtisadi maraqlarına qarşı yönəlməklə sahibkarlıq fəaliyyətinin qanunla müəyyən edilmiş qaydalarına qəsd edən cinayətlərin aşkarlanaraq qarşısının alınması istiqamətində həyata keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində Ədliyyə Nazirliyində qeydiyyatdan keçməyən Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) adlı qurumun funksionerlərindən Əli Kərimli, Qənimət Zayidov, Saleh Rüstəmov, Vidadi Rüstəmli, Aqil Məhərrəmov, Ruslan Nəsirov, Babək Həsənov və digərlərinin Bakı şəhər sakinləri Ceyhun Hüseynov, Rauf İsgəndərov, Heydər Əhmədov, Tural Mehdixanov və qeyrilərinin üzv olduqları qurumun respublikamızda və xaricdə dövlətimizə, dövlətçiliyimizə və milli maraqlarımıza zidd olaraq keçirilən tədbirlərinin maliyyələşdirilməsi üçün qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş külli miqdarda çirkli pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətmələrinə dair kifayət qədər sübutlar toplanıb.
>
> Rusiya Federasiyasında yaşayan Saleh Rüstəmov çirkli pul vəsaitlərinin əldə edilməsinin mənbəyini gizlətmək məqsədilə Sahibkarlıq fəaliyyəti haqqında Qanunun, Vergi Məcəlləsi və digər normativ-hüquqi aktların tələblərini pozaraq qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan, vergi ödəyicisi kimi uçotda durmadan, həmçinin xüsusi razılıq (lisenziya) olmadan banklar və digər kredit təşkilatlarının müstəsna funksiyalarına aid faktiki bank fəaliyyətini həyata keçirmək məqsədi ilə AXCP-nin fəaliyyətinin maliyyələşdirilməsi üçün Rusiyada təbliğat aparıb. S.Rüstəmov daha sonra biznes strukturlarında çalışan və əvvəllər tanıdığı ayrı-ayrı Azərbaycan vətəndaşlarından

[44] https://bit.ly/2mYHgms
[45] https://bit.ly/2ApF5SE
[46] https://bit.ly/2LNaAdE

hər ay toplayaraq Moskva şəhərində kommersiya bankında açdığı hesabına keçirdiyi 30 min ABŞ dollarını 2016-cı ilin mart ayından etibarən, Bakı şəhərində valyuta əməliyyatlarının qanunsuz köçürülməsi ilə məşğul olan Ceyhun Hüseynov, Rauf İsgəndərov, Heydər Əhmədov və Tural Mehdixanov vasitəsilə V.Rüstəmliyə çatdırılmasını təmin edib. V.Rüstəmlinin həmin vəsaitləri qəbul edib A.Məhərrəmov, R.Nəsirov və B.Həsənova, onların isə AXCP-nin funksionerlərinə vermələri ilə, ümumilikdə 412 min ABŞ dollarını AXCP-nin tədbirlərinin maliyyələşdirilməsinə, dəstə üzvlərinin iqtisadi maraqlarının təmin olunmasına və digər maliyyə əməliyyatlarının həyata keçirilməsinə, beləliklə də cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətmələrinə əsaslı şübhələr müəyyənləşib. İş üzrə dindirilmiş B.Həsənov, R.Nəsirov, A.Məhərrəmov qeyd olunan qanunsuz əməlləri etiraf edərək, təmsil etdikləri qurumun fəaliyyət və tədbirlərinin maliyyələşdirilməsi üçün S.Rüstəmovun Moskva şəhərindən göndərdiyi pul vəsaitlərini V.Rüstəmlidən qəbul edib Ə.Kərimli və digər şəxslərə verdiklərini bildiriblər. Onların yaşadıqları ünvanlarda aparılmış axtarışlar zamanı qanunsuz pul dövriyyəsini, çirkli pulların leqallaşdırılmasını təsdiqləyən bank kartları və başqa sənədlər aşkar edilərək maddi sübut kimi götürülüb..."

Bəyanatda S.Rüstəmov və qardaşı oğlu V.Rüstəmliyə qarşı irəli sürülən və 16-18 gün öncə onların barəsində həbs qətimkan tədbiri seçilməsinə səbəb olan narkotik ittihamı barədə heç nə deyilmir.

Beş nəfərin həbsi ilə nəticələnən cinayət işinin əsasını qanunsuz sahibkarlıq və çirkli pulların yuyulması təşkil edir. Hüquqşünasların fikrincə, bu işdə qanunsuz sahibkarlıq və çirkli pulların yuyulmasının əlamətləri yoxdur; belə ki, S.Rüstəmov Rusiya vətəndaşı olaraq sahibkar kimi qonşu ölkədə fəaliyyət göstərdiyi üçün, ona münasibətdə CM-in 192-ci maddəsinin tərkibi yarana bilməz. Digər tərəfdən, Rusiyada çox sayda azərbaycanlı sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ailələri onların göndərdiyi pullar hesabına dolanır. Eyni məntiqlə həmin şəxslərin hər biri CM-in 193-cü maddəsi ilə çirkli pulları yumaqda ittiham oluna bilər. Başqa bir məqam, AXCP Sədrinin və fəallarının mütəşəkkil dəstə kimi təqdim olunmasıdır. DİN və Baş Prokurorluğun məlumatından belə aydın olur ki, hansısa şəxslər hər hansı partiyaya ianə verirsə, bu, CM-in 193-cü maddəsinin tərkibini yarada bilər.[47]

S.Rüstəmov və V.Rüstəmli həbs edildikləri gündən mayın 25-nə qədər, yəni 15-17 gün onların haqqında heç bir məlumat əldə etmək mümkün olmayıb.[48] Nə qohumları, nə də vəkilləri ilə görüşə icazə verilməməsi onların işgəncəyə məruz qalması barədə şübhələri artırıb. S.Rüstəmov Rusiya vətəndaşı olduğu üçün onun həyat yoldaşı Rusiya Xarici İşlər Nazirliyinə və Rusiyanın Azərbaycandakı səfirliyinə müraciət edib və bildirib ki, S.Rüstəmova işgəncə verilib, bu səbəbdən də üzə çıxarılmır, məhkəməyə gətirilmir. Onunla üç dəfə görüşməyə cəhd ediblər, lakin görüşə bilməyiblər. Nəhayət, 24 mayda S.Rüstəmovun işgəncələrdən öldüyü barədə xəbər yayılıb. Yalnız bu xəbərdən bir gün sonra DİN-in sözcüsü Ehsan Zahidov açıqlama verərək S.Rüstəmovun sağ olduğunu bildirib. Bundan sonra ona yalnız qardaşı ilə görüşə icazə veriblər. Vəkilinin bildirdiyinə görə, görüş üçün o da qardaşı ilə birlikdə getsə də, ona görüş üçün icazə verilməyib.[49]

Cinayət-prosessual qanunvericiliyə görə, məhkəmə qərarına əsasən həbs olunmuş şəxs müvəqqəti saxlanma yerində 24 saatdan artıq saxlanıla bilməz və bu müddət

[47] https://bit.ly/2Oz5vnN
[48] https://bit.ly/2v2de5w
[49] https://bit.ly/2AqQuRU

bitənədək o, istintaq təcridxanasına keçirilməlidir. Lakin S.Rüstəmov barəsində həbs qətimkan tədbiri seçildikdən 19 gün sonra,[50] V.Rüstəmli 26 gün sonra, digərləri isə qətimkan tədbirindən 4 gün sonra - mayın 30-da Bakı İstintaq Təcridxanasına köçürülüblər.

Həbs edilənlərin Bandotdel deyilən qurumda saxlanıldıqları dövrdə işgəncəyə məruz qaldıqları iddia olunur. Lakin bir neçə vəkilin müştərilərinin işgəncəyə məruz qalmaları barədə məlumatları ictimailəşdirməsindən sonra Vəkillər Kollegiyasından çıxarılmasından[51] və Vəkillərin davranış qaydaları haqqında Əsasnaməyə edilən dəyişikliklərdən sonra vəkillər bu barədə iddiaları ictimailəşdirməkdən çəkinirlər.

3 iyun 2018-ci ildə S.Rüstəmovun hələ 15 mayda BMCMİ-də saxlanılarkən Beynəlxalq Qırmızı Xaç Komitəsi nümayəndələri ilə görüşü zamanı onların vasitəsilə ötürdüyü məktub ailəsi tərəfindən yayılıb. Məktubda o, 8 may 2018-ci ildə Gədəbəydən Bakıya gələrkən Şəmkir postunda saxlandığını və Şəmkir Polis İdarəsinə gətirildiyini bildirib. O, qeyd edib ki, onu qardaşı və həyat yoldaşını həbs edəcəkləri ilə hədələyiblər, təhqir ediblər və bir sıra sənədlərə imza atmağa məcbur ediblər, vəkillə təmin etməyiblər, daha sonra "Bandotdel" kimi tanınan DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə gətiriblər. Daha sonra S.Rüstəmov bildirib:

> "Burada hədələrin təsiri altında ifadələr aldılar. Qardaşım oğlu Vidadini həbs edib bura gətirdilər. Ona işgəncə verirdilər, səsini eşidirdim. Ona görə də qorxub nə dedilərsə, onu da etdim. Vəkil tutmağa imkan vermədilər. Bugünədək vəkillə konfidensial ünsiyyət hüququm təmin edilmir. Hələ də BMCMİ-də saxlanılıram. Mənə təzyiq altında işgəncə verilir. Hədələrlə imza etdirdilər. Özümü təqsirli bilməyim barədə ifadələrə imza atdırdılar. Təyinatla verilən vəkil heç mənimlə görüşməyib də. Qardaşım, yəni qohumlarım tərəfindən tutulan vəkillə ünsiyyət hüququm təmin edilməyib. İnsan hüquqlarım pozulur. Kömək edin".[52]

Sonuncu olaraq, V.Rüstəmli barəsində həbs qətimkan tədbiri seçiləndən 26 gün sonra - 07 iyun 2018-ci ildə Bakı İstintaq Təcridxanasına köçürülüb.

Ailə üzvləri və vəkilləri həbs edilənlərlə bir neçə aydır ki, telefonla danışa və görüşə bilmədiklərini, müxtəlif dövlət orqanlarına çoxsaylı şikayət etdiklərini deyirlər. Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən mətbuata bildirilib ki, təcridxana rəhbərliyinin məhdudlaşdırma ilə bağlı hər hansı bir qərarı yoxdur. İstintaq orqanı baş verənlərlə bağlı hər hansı açıqlama verməyib.

B.Həsənov Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsininin qanunsuz hərəkətindən verdiyi şikayətə 16 avqust 2018-ci ildə Nəsimi Rayon Məhkəməsində baxılarkən, həmin qurumun nümayəndəsi S.Rüstəmovun, V.Rüstəmlinin, A.Məhərrəmovun, B.Həsənovun və R.Nəsirovun bəzi hüquqlarının məhdudlaşdırılması ilə bağlı qərarını məhkəməyə təqdim edib. Bəlli olub ki, İstintaq İdarəsinin məhdudlaşdırma qərarı elə məhkəmə günü qəbul edilib. Qərara əsasən, 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan bu şəxslərin ailə üzvləri ilə görüşmək, telefonla danışmaq hüququ məhdudlaşdırılıb. B.Həsənovun vəkili İstintaq İdarəsinin həmin qərarının ləğvi ilə bağlı Nəsimi Rayon Məhkəməsinə müraciət edib.

---

[50] https://bit.ly/2KfzKg2
[51] https://bit.ly/2v5zVGi
[52] https://bit.ly/2AqR3eu

Nəsimi Rayon Məhkəməsi (hakim Babək Pənahov) 31 avqust 2018-ci ildə V.Rüstəmlinin, 3 sentyabr 2018-ci ildə S.Rüstəmovun barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddətinin uzadılması barədə İstintaq İdarəsinin vəsatətinə baxaraq onu təmin edib: V.Rüstəmlinin həbs müddəti 9 dekabr 2018-ci il tarixinə qədər, S. Rüstəmovun həbs müddəti 18 dekabr 2018-ci il tarixinə qədər uzadılıb.

Nəsimi Rayon Məhkəməsi (hakim Elman İsayev) 18 sentyabr 2018-ci ildə A.Məhərrəmov, B.Həsənov və R.Nəsirovun həbs qətimkan tədbirinin 3 ay müddətinə uzadılması barədə İstintaq İdarəsinin təqdimatını təmin edib: partiya funksionerlərinin həbs müddəti 9 dekabr 2018-ci ilə qədər uzadılıb.

25 sentyabr 2018-ci ildə Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Elman İsayev) B.Həsənovun həbs müddətinin artırılması ilə bağlı Nəsimi Rayon Məhkəməsinin qərarından verdiyi şikayəti rədd edib.

Nəsimi Rayon Məhkəməsi (hakim Şəlalə Həsənova) 13 noyabr 2018-ci ildə A.Məhərrəmov, B.Həsənov və R.Nəsirovun həbs qətimkan tədbirinin uzadılması barədə İstintaq İdarəsinin daha bir təqdimatı əsasında siyasilərin həbs müddətini 07 mart 2019-cu ilə qədər uzadıb.

A.Məhərrəmov, B.Həsənov və R.Nəsirov həbs olunduqdan sonra Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində işgəncələrə məruz qaldıqlarını bildirib, bununla əlaqədar prokurorluğa, məhkəməyə şikayətlər göndəriblər. Yerli məhkəmələr şikayətləri təmin etmədiyindən onlar Avropa Məhkəməsinə müraciət ediblər.

7 yanvar 2019-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsində (sədrlik edən Eldar İsmayılov) iş üzrə məhkəmə prosesi başlayıb. Məhkəmənin keçirildiyi binanın qarşısında polislər müxtəlif bəhanələrlə 7-30 yanvar tarixlərində müxtəlif vaxtlarda 30-a yaxın yaxın adamı saxlayıblar; həmin şəxslərdən 7 nəfər məhkəmə qərarları ilə müxtəlif müddətlərə inzibati şəkildə həbs cəzasına məhkum edilib, 5 nəfər cərimələnib, digərləri isə xəbərdarlıq edərək sərbəst buraxılıblar.[53]

***Müxalifətin maliyyələşdirilməsi işi ilə bağlı həbs edilənlər***

## 25. Saleh Məhərrəm oğlu RÜSTƏMOV



© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 08 may 2018-ci il

[53] https://bit.ly/2tlFD5G ,
https://bit.ly/2BptBMX,
https://bit.ly/2TIiV39,
https://bit.ly/2E5Es0m .

**İttiham:** CM-in 192.3.2 *(xüsusilə külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq)*, 193-1.3.1 və 193-1.3.2 *(mütəşəkkil dəstə tərəfindən cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma)* və 234.4.3-cü *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)* maddələri

**Cəzasının müddəti:** İş üzrə məhkəmə davam edir.

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

---

**26. Vidadi Valeh oğlu RÜSTƏMLİ**



© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 10 may 2018-ci il

**İttiham:** CM-in 192.3.2 *(xüsusilə külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq)*, 193-1.3.1 və 193-1.3.2-ci *(mütəşəkkil dəstə tərəfindən cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma və 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama*)

**Cəzasının müddəti:** İş üzrə məhkəmə davam edir

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

---

**27. Aqil Əli oğlu MƏHƏRRƏMOV**



© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 25 may 2018-ci il

**İttiham:** CM-in 192.3.2 *(xüsusilə külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq)*, 193-1.3.1 və 193-1.3.2-ci *(mütəşəkkil dəstə tərəfindən cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma*

**Cəzasının müddəti:** İş üzrə məhkəmə davam edir.

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

---

**28. Babək Qəzənfər oğlu HƏSƏNOV**



© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 25 may 2018-ci il

**İttiham:** CM-in 192.3.2 *(xüsusilə külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq)*, 193-1.3.1 və 193-1.3.2-ci *(mütəşəkkil dəstə tərəfindən cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma*

**Cəzasının müddəti:** İş üzrə məhkəmə davam edir.

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

---

**29. Ruslan Şamil oğlu NƏSİROV**



© şəxsi Facebook profili

**Saxlanma tarixi:** 25 may 2018-ci il

**İttiham:** CM-in 192.3.2 *(xüsusilə külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq)*, 193-1.3.1 və 193-1.3.2-ci *(mütəşəkkil dəstə tərəfindən cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma*

**Cəzasının müddəti:** İş üzrə məhkəmə davam edir.

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

---

## E. İNANCLI FƏALLAR

### *(1) Müsəlman Birliyi Hərəkatının üzvləri və Nardaran qəsəbəsində tutulanlar*

### a. Taleh Bağırzadə və Müsəlman Birliyi Hərəkatı haqqında məlumat

1984-cü ildə doğulan tanınmış ilahiyyatçı Taleh Bağırzadə (Hacı Taleh) Azərbaycan Dövlət İqtisad Universitetini bitirdikdən sonra İranda dini təhsil alıb. Təhsilini başa vurduqdan sonra Azərbaycana qayıdıb. Məktəblərdə hicaba qadağa qoyulması ilə bağlı qərara etiraz olaraq Təhsil Nazirliyinin qarşısında keçirilən 6 may 2011-ci il tarixli etiraz aksiyasında dinc şəkildə fəal iştirak edib. Bu aksiyanın başqa əksər iştirakçıları kimi T.Bağırzadə də həbs edilib və ona qarşı cinayət işi açılıb. O, əsassız

olaraq 1 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib və cəza müddəti tam başa çatdığı üçün 2012-ci ilin noyabrında azadlığa buraxılıb.

Azadlığa çıxdıqdan 4 ay sonra, həm hicab qadağası ilə bağlı tənqidlərini davam etdirib, həm də Bakıda və regionlarda oxuduğu moizələrdə ölkədə aparılan siyasəti və hakimiyyəti tənqid etdiyi üçün fəallara qarşı geniş şəkildə istifadə edilən narkotik maddə saxlama ittihamı ilə 31 mart 2013-cü ildə yenidən həbs olunub. Sabunçu Rayon Məhkəməsinin 1 noyabr 2013-cü il tarixli qərarı ilə T.Bağırzadə 2 il müddətinə azadlıqdan məhrum edilib.[54]

Tənqidlə dolu moizələrindən birini T.Bağırzadə həbsindən bir neçə gün əvvəl, martın 25-də özünün Youtube səhifəsində yerləşdirib.[55] Həmin çıxışında vurğulayır ki, onu həbslə yolundan döndərmək mümkün deyil, Allaha sığınan həqiqi mömin diktatorların zülmündən qorxmamalıdır. T.Bağırzadənin çıxışında hakimiyyəti tənqid edən hissə bu cür olub: *"Görün biz nə haldayıq ki, indiyə qədər danışmamışıq. İndi də bu söhbət olur ki, bu məscidə gəlmə. İndiyədək susmuşuq. Nə qədər Azərbaycanda torpaqlarımızı işğal ediblər. Haram pullarla, xalqın puluyla nə qədər yerlər alıblar. Hələ onların haqq-hesabını biz danışmırıq. Bu qədər xalqın torpağını əlindən almısan, neftini yemisən, malını yemisən, oturursan orada, sənə söz deyən yoxdur, gör nə qədər həddini aşmısan. Gəlib indi məscidin içində hökmranlıq etmək istəyirsən? Bu, həddi aşmaq deyil, nədir? Bu yer Allahın yeridir. Hansı boynuyoğun məmur olsun, kim olursa-olsun, məscidin içinə hökm edə bilməz... Hə, qorxurlar da, o yığdıqları mallar, mülklər əllərindən çıxa bilər".*

T.Bağırzadə həbsdə olarkən 2015-ci il yanvarın 13-də Müsəlman Birliyi Hərəkatının yaradılması ilə bağlı təqdimat mərasimi keçirilib. Azərbaycanın dövlət himni ilə başlayan tədbiri Hərəkatın sədr əvəzi Elçin Qasımov aparıb və təşkilatın sədrinin T.Bağırzadə olduğunu bildirib. Hərəkatı İdarə Heyətinin idarə etdiyi bildirilib və İdarə Heyətinin bir neçə üzvü bu tədbirdə çıxış edib. Yaradılan Hərəkatla bağlı T.Bağırzadənin müraciəti tədbir zamanı oxunub.

Müsəlman Birliyi Hərəkatı dövlət qeydiyyatına alınmaq üçün üç dəfə Ədliyyə Nazirliyinə müraciət edib və hər dəfə müəyyən bəhanələr gətirilərək qeydiyatdan imtina olunub. Birliyin Nizamnaməsinə əsasən onun məqsədi ölkədə suverenliyin, sülhün, tolerantlığın, demokratik idarəetmənin, dini və irqi birliyin inkişafı və qorunması yolunda gənclərin maarifləndirilməsidir. Nizamnamədə həmçinin qeyd edilir ki, Hərəkat fəaliyyətini Azərbaycan qanunlarına uyğun olaraq həyata keçirir.

### b. Müsəlman Birliyi Hərəkatı və onun sədri Taleh Bağırzadənin fəaliyyəti

Hərəkatın sədri Taleh Bağırzadə 31 iyul 2015-ci ildə azadlığa çıxdıqdan sonra təşkilatın fəaliyyətində müəyyən canlanma yaranıb. T.Bağırzadə azadlığa buraxıldığı gün mətbuata açıqlamasında hakimiyyəti və onun apardığı siyasəti kəskin tənqid

---

[54] T.Bağırzadə həbsdə olduğu dövrdə ona qarşı həbsdə qanunsuz əşya (mobil telefon) saxlamaqla bağlı əlavə ittiham irəli sürülüb və onun cəzası 4 ay müddətinə artırılıb, bu səbəbdən də o, martın 31-də deyil, iyulun 31-də azadlığa buraxılıb. Müdafiə tərəfi bildirir ki, cəzaçəkmə şəraitini ağırlaşdırmaq və T.Bağırzadənin həbsdə olduğu zaman etirazlarının qarşısını almaq üçün o, Qobustan Qapalı Həbsxanasına göndərilib və oradan azadlığa buraxılıb.

[55] http://bit.ly/2cE0tGt

edib.[56] O, "kiçik zindan"dan çıxıb "böyük zindan"a girdiyini, ölkədə durumun acınacaqlı olduğunu, siyasi məhbusların azad edilməsi uğrunda zalımların qarşısında mübarizə aparacaqlarını bildirib. Həbsdən çıxdıqdan sonra mətbuata verdiyi diqqət çəkən müsahibələrində T.Bağırzadə bəzi məktəblərdə hicab probleminin hələ də həll olunmadığını deyib. Pasport almaq üçün hicablı xanımların hicabla fotolar təqdim etməsinə iczə verilmədiyini, dindarlara təzyiqlər göstərmək əvəzinə hakimiyyətin bu problemləri həll etməli olduğunu bildirib. İslahatlar həyata keçirmək əvəzinə hüquq və azadlıqları pozduğu üçün hakimiyyəti qeyri-legitim adlandırıb.[57] Başqa bir müsahibəsində Azərbaycanda islam dövlətinin yaranması üçün heç bir zəmin və perspektiv olmadığını deyib.[58]

T.Bağırzadə və Hərəkatın üzvləri bölgələrə səfərlər etməyə, insanlarla görüşlər keçirməyə, ilhaiyyatçı kimi dini söhbətlər, çıxışlar etməyə başlayıb. T.Bağırzadə həbsdə olan Azərbaycan İslam Partiyasının sədri Mövsüm Səmədovun sentyabrın 4-də 50 illik yubileyinə həsr edilmiş tədbirdə çıxış edərək Azərbaycanda azad cəmiyyətin olmadığını, azad söz dediyinə görə çoxsaylı şəxsin həbsdə olduğunu və Ermənistanda azərbaycanlı əsirə göstərilən pis münasibətin həbsxanalarda onlara göstərildiyini vurğulayıb.[59] O bu çıxışında dini vəhdətin əhəmiyyətindən, Azərbaycan xalqının təhlükəsizliyindən, əmin-amanlıqdan və dini zəmində münaqişənin təhlükəli olduğundan söhbət açıb.

Sentyabrın 27-də müxalifət partiyası olaraq hakimiyyətin mövqeyini sərt tənqid edən AXCP-nin qurultayında Hərəkatın sədr müavini Elçin Qasımov çıxış edib.[60] Çıxışında hakimiyyəti dindarları repressiyaya məruz qoymaqda ittiham edib, dindarları müdafiə etdiyi üçün AXCP-yə təşəkkürünü bildirib.

01 noyabr 2015-ci ildə Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə bağlı Müsəlman Birliyi Hərəkatının mövqeyi bir sıra müxalifət partiyalarının mövqeyi ilə üst-üstə düşüb, onlar azad və ədalətli seçkilər üçün mühitin olmaması səbəbilə seçkiləri boykot etmək qərarı veriblər.

T.Bağırzadə Milli Təhlükəsizlik Nazirliyinin ləğvinə və bir sıra yüksək rütbəli zabitlərin həbsinə münasibət bildirib, dövlətə və Vətənə, əslində, bu şəxslərin xəyanət etdiyini vurğulayıb. Eyni zamanda, Nardaran qəsəbəsinə qaz verilmədiyi halda, Gürcüstanda erməni kilsəsinə pulsuz qaz verilməsi ilə bağlı Dövlət Neft Şirkətinin mövqeyini tənqid edib. Azərbaycanda hüquqların pozulması ilə müşayiət olunan vəziyyətə görə hakimiyyəti sərt şəkildə tənqid edib.[61]

### c. Taleh Bağırzadəyə və Müsəlman Birliyi Hərəkatının başqa üzvlərinə qarşı təzyiqlər

Müsəlman Birliyi Hərəkatının qeydiyyata alınmasından imtina edilməsi onların fəaliyyətinə şəraitin yaradılmaması üçün atılan addım olub.

---
[56] http://bit.ly/2cNZSQA
[57] http://bit.ly/2cW80AC
[58] http://bit.ly/2cFTyPb
[59] http://bit.ly/2cr5nFU
[60] http://bit.ly/2cNerWl
[61] http://bit.ly/2dgtlpc

T.Bağırzadə həbsdən azad edildiyi gecə verdiyi müsahibəyə görə iki gün ard-arda Yasamal Rayon Polis İdarəsinə çağırılıb və onunla söhbət aparılıb. Ona bildirilib ki, çıxışlarında "kiçik zindandan çıxıb böyük zindana daxil oldum" kimi ifadələr işlətməməli, Leyla Yunus kimi adamları müdafiə etməməlidir və s. Bu hadisədən az sonra T.Bağırzadə xüsusi vasitə ilə təhdid mesajı aldığını və onun həbsinə hazırlıq görüldüyü barədə məlumat yayıb. O, həmçinin məlumat verib ki, Bakıda bütün məscidlərə xüsusi göstəriş verilib ki, Hacı Talehi xütbə oxumaq üçün məscidlərə buraxmayın. T.Bağırzadə ancaq Bakının Nardaran və Maştağa kəndlərində olan məscidlərdə xütbə oxuduğunu da mətbuata bildirib.[62]

Sentyabrın 22-də T.Bağırzadə keçmiş MTN-ə çağırılaraq onunla növbəti dəfə profilaktik söhbət edilib. Onunla ölkədəki ictimai-siyasi və dini vəziyyət haqda söhbət aparılıb, Nardarandakı məscidlərdəki çıxışları zamanı bəzi fikirlərinin dövlət əleyhinə olduğunu bildiriblər. O, yaranmış gərginliyə görə hakimiyyəti tənqid edib və problemlərin həllinə çağırıb.[63]

Bu hadisədən 3 gün sonra, sentyabrın 25-də qohumlarının xeyir işinə qatılmaq üçün Yevlax rayonuna gedən T.Bağırzadə və bir neçə tərəfdarı saxlanılaraq polis bölməsinə aparılıb. Polisdə ona bildirilib ki, onlara çatan xəbərə görə, Yevlax məscidində dövlət əleyhinə çıxış olacaq və onlar da bu məqsədlə məscidi mühasirəyə alıblar. T.Bağırzadə isə heç bir çıxışının nəzərdə tutulmadığını, cümə namazı qılmaq üçün məscidə gəldiyini bildirdikdən sonra onu və tərəfdarlarını sərbəst buraxıblar. Sərbəst buraxıldıqdan sonra verdiyi müsahibəsində o, növbəti dəfə heç kimdən, məscidi mühasirəyə almış avtomatlı polisləri nəzərdə tutaraq, avtomatlardan qorxmadığını açıqlayıb.[64]

T.Bağırzadə 1 noyabr 2015-ci il parlament seçkilərindən 2 gün sonra, yəni noyabrın 3-də Yasamal Rayon Polis İdarəsinə dəvət edilib. İdarənin rəisi İsfəndiyar Mehbalıyev ilahiyyatçı ilə sərt və kobud şəkildə danışmağa başlayıb, onu Milli Qəhrəman Mübariz İbrahimov üçün anım günü tədbiri təşkil etməkdə, insanları ora çağırmaqda suçlayıb. T.Bağırzadə namazın vaxtı çatdığı üçün ona şəraitin yaradılmasını istəyib, lakin rəis İdarədə namaz qılınmasına etiraz edib. T.Bağırzadə isə buna təkid etdikdə fiziki zorakılığa məruz qalıb, onun çənə nahiyəsinə zərbələr endirilib və namaz qılmasına imkan verilməyib. Rəisin hərəkətlərindən prokurorluğa şikayət etsə də, onun bu şikayəti ciddi şəkildə araşdırılmayıb.

Hərəkatın sədr müavini Elçin Qasımov parlament seçkilərinin şəffaf keçirilməməsi və T.Bağırzadəyə qarşı polis idarəsində edilən zorakılıqlarla bağlı hakimiyyəti həm Facebook sosial şəbəkəsində, həm də bəzi portallarda sərt şəkildə tənqid edib. Bu çıxışlarından 1 gün sonra onu noyabrın 5-də Maştağa kəndində evinə gələrkən polis əməkdaşları saxlayaraq Sabunçu Rayon Polis İdarəsinə aparıblar. Noyabrın 6-da Sabunçu Rayon Məhkəməsinin qərarı ilə o, fəallara qarşı istifadə edilən polisə tabe olmama ittihamı ilə 30 sutka inzibati həbsə atılıb. Bu müddət ərzində Nardaranda Hərəkatın başqa üzvlərinin həbsi ilə yekunlaşan əməliyyat keçirilib. Bundan sonra E.Qasımova da ağır ittihamlar irəlü sürülərək cinayət işi başlanıb və barəsində həbs qətimkan tədbiri seçilib.

---

[62] http://bit.ly/2crsCQj
[63] http://bit.ly/2dgxzNA
[64] http://bit.ly/2crugBx

Onun hansı səbəbdən həbsini öyrənmək, ona dəstək olmaq və sərbəst buraxılmasına çağırış etmək üçün Müsəlman Hərəkatı Birliyinin fəalları noyabrın 5-də polis idarəsinin qarşısına toplaşıblar. Burada polis zor tətbiq edərək fəalları həbs edib, onlar ilkin olaraq inzibati qaydada həbs olunsalar da, sonradan onlara cinayət işi açılıb və azadlıqdan məhrum ediliblər.

Bu hadisədən 3 həftə sonra, noyabrın 26-da T.Bağırzadənin müvəqqəti olaraq məskunlaşdığı Nardaran qəsəbəsində Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidməti birgə əmliyyat keçirib, nəticədə 2 polis də daxil olmaqla 7 nəfər öldürülüb. T.Bağırzadə və daha 16 nəfər bu əməliyyat nəticəsində həbs edilib. Bu hadisədən sonra Müsəlman Hərəkatı Birliyi tərəfdarlarının fəalları həm Bakıda (əsasən Nardaranda), həm də regionlarda həbs olunublar.

Noyabrın 5-də baş vermiş hadisədən sonra Hərəkata, onun sədri T.Bağırzadəyə qarşı mediada ardıcıl və genişmiqyaslı kampaniyaya start verilib. Noyabrın 10-da hakimiyyətə yaxınlığı ilə tanınan politoloq İlqar Altay Baş Prokurora müraciət edərək T.Bağırzadə barədə cinayət işinin açılması və onun fəaliyyətinin araşdırılması ilə bağlı müraciət ünvanlayıb. Müraciətində o, T.Bağırzadənin fəaliyyətini İran-fars rejiminin agenturasının güclənməsi kimi təqdim edib[65]. Bu müraciət də daxil olmaqla, Hərəkatı və onun sədrini qaralayan materialar yayılmağa başlanıb. Bütün ölkə ərazisində yayılan "Xəzər" telekanalında "Din pərdəsi altında təxribat törədənlər" adlı süjet göstərilib və süjetdə Hərəkat üzvlərinin təqsirsizlik prezumpsiyası hüququ pozularaq onlar cinayətkar adlandırılıb[66].

Noyabrın 10-da Hərəkata qarşı başlanılmış bu kampaniya ilə bağlı onun fəalları bəyanatla çıxış edib və onlara qarşı əsassız qarayaxma kampaniyası aparıldığını bildiriblər. Hərəkatın heç bir qanunsuz fəaliyyətlə məşğul olmadığı, Azərbaycan Respublikasının Konstitusiyasından və qanunlarından kənar heç bir tələblərinin olmadığını bildiriblər.[67] T.Bağırzadənin özü onun üçüncü dəfə həbsinə hazırlıq getdiyini və istəilən təxribatla üzləşə biləcəyini mətbuata açıqlayıb. Açıqlamasında vurğulayıb ki, dinc yollarla mübarizə aparırlar və onlara böhtan atanları məhkəməyə verəcəklər.[68] Hərəkata qarşı aparılan kampaniyanın tərkib hissəsindən biri onun dini icma kimi qeydiyyata alınmaması ilə bağlı olub. Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Sədri Mübariz Qurbanlı telekanallara və qəzetlərə müsahibəsində bu qurumun dini icma kimi rəsmi qeydiyyatının olmamasını vurğulayıb və bunun yolverilməz olduğunu deyib. Hərəkatdan bu məsələyə münasibət bildirilib ki, Hərəkat dini icma deyil, qeyri-hökumət təşkilatıdır, onun qeydiyyata alınması üçün Ədliyyə Nazirliyinə müraciət edilib və sənədlər qeydiyyatdan imtina barədə cavabla birlikdə bir neçə dəfə geri qaytarılıb.

Noyabrın 26-da keçirilən əməliyyatdan sonra da Hərəkata və onun üzvləri əleyhinə ictimai kampaniya davam etdirilib. Müxtəlif icmalar və regionlardan Hərəkatın fəaliyyəti tənqid edilib, onun üzvlərinin cinayət məsuliyyətinə cəlb olunmasını, Prezident İlham Əliyevin siyasətinin dəstəklənməsini özündə əks etdirən müraciətlər dövlət agentliklərində və hakimiyyətə yaxın KİV-lərdə yayılmağa başlayıb,[69] [70] [71]

[65] http://bit.ly/2d5HoeT
[66] http://bit.ly/2cIi790
[67] http://bit.ly/2cWUyMv
[68] http://bit.ly/2cz1kay
[69] http://bit.ly/2d6cGQI

Qafqaz Müsəlmanları İdarəsi əməliyyatın keçirildiyi gün gecə saatlarında siyasi məzmunlu xüsusu bəyanatla çıxış edib[72].

Göründüyü kimi, T.Bağırzadə azadlığa çıxdıqdan sonra davamlı olaraq hüquq mühafizə orqanlarına çağırılıb və ona xəbərdarlıqlar edilib. Bununla belə o, çağırıldığı bütün dövlət qurumlarına vaxtında gedib. Sədri olduğu təşkilatsa rəsmi dövlət qeydiyyatına alınmaq üçün Ədliyyə Nazirliyinə müraciət edib, T.Bağırzadə davamlı olaraq mətbuata açıqlama və müsahibələr verib, Konstitusiya və qanunlar əsasında fəaliyyət göstərdiklərini bildirib.

### d. Taleh Bağırzadə və Müsəlman Birliyi Hərəkatının başqa üzvlərinə və tərəfdarlarına qarşı irəli sürülmüş ittihamlar, məhkəmə prosesləri, işgəncə və pis rəftarın digər formaları barədə şikayətlər

Noyabrın 26-da keçirilən əməliyyatdan sonra Daxili İşlər Nazirliyi (DİN) və Baş Prokurorluq əməliyyatla bağlı birgə məlumat yayıb[73]. Yayılmış məlumatda vurğulanır ki, Taleh Bağırzadə, Elman Ağayev, Zülfüqar Mikayılov və Əbülfəz Bünyadov dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi, şəriət qanunları ilə idarə edilən dini dövlət qurulması məqsədilə Müsəlman birliyi adlı hərəkat yaradıblar. Adları çəkilən şəxslər Bakı şəhərindən və respublikanın başqa bölgələrindən özlərinə tərəfdarlar toplayıb, onları müxtəlif növ odlu silah, döyüş sursatı, partlayıcı maddə və qurğularla təchiz edərək cinayətkar dəstə yaradıblar. Həmçinin, paytaxtın Nardaran qəsəbəsində qanunsuz yığıncaqlar keçirərək respublikanın əhalisini hakimiyyətə qarşı qaldırmağın yollarını müzakirə edib, bununla bağlı tərəfdarlarına göstərişlər verib və əhaliyə çağırış vərəqələri paylayıblar. Silahlı cinayətkar dəstənin hər bir üzvünün üzərinə düşən konkret vəzifələr, o sıradan hakimiyyət nümayəndələrinə qarşı terror aktları törədəcək məsul şəxslər müəyyən edilib.

Baş Prokurorluqda cinayət işi başlanılıb, həbs edilmiş şəxslərə qarşı ağır ittihamlar irəli sürülüb. İstintaqı yekunlaşan bir qrup şəxsin (T.Bağırzadə də daxil olmaqla) işi Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. DİN və Baş Prokurorluğun əməliyyat günü yaydığı məlumatda adları çəkilən 4 nəfərdən yalnız T.Bağırzadənin istintaqı yekunlaşdırılaraq məhkəməyə göndərilib; halbuki məlumatdan belə anlaşılır ki, bu 4 şəxs eyni cinayət əməlləri törədiblər və onların işinin istintaqı birgə aparılacaq.

Həbs olunan şəxslər onlara ağır işgəncələr verildiyini, bu işgəncələr altında onların öz əleyhlərinə ifadə verməyə məcbur edildikləri ilə bağlı açıqlamalar veriblər. Xüsusən T.Bağırzadə və onunla birgə həbs olunan şəxslər məhkəmə prosesləri zamanı ağır və dəhşətli işgəncələrə məruz qaldıqlarını, təhqir edildiklərini bildiriblər. Dindarlar öz əleyhlərinə ifadə verməyə məcbur edilmək üçün işgəncəyə məruz qaldıqlarını bəyan ediblər, T.Bağırzadə məhkəmədəki etdiyi çıxışında ondan Milli Şura və burada təmsil olunan şəxslərə qarşı da ifadə verməyə məcbur edilmək üçün işgəncəyə məruz qaldığını vurğulayıb. Onların işgəncələrlə bağlı açıqlamalarını məhkəmə araşdırmayıb, hakimlər bu məsələnin üzərindən sükutla keçiblər.

---

[70] http://bit.ly/2cYYZoh
[71] http://bit.ly/2d6d6ql
[72] http://bit.ly/2d6cVeA
[73] http://bit.ly/2cupLYt

Məhkəmə proseslərinin müşahidəsi göstərir ki, onlara qarşı irəli sürülmüş ittihamları istintaq sübut edə bilmir. İstintaq özü həbs edilən şəxslərin əl izlərinin ekspertizasını aparmayıb, vəkillərin bununla bağlı vəsatəti isə təmin olunmayıb.

İstintaqın zərərçəkmiş kimi tanıdığı polis əməkdaşları məhkəmə zamanı verdiyi ifadələrində, istintaqın iddia etdiyi kimi, polis əməkdaşlarından birinin ölümünə səbəb olan qumbaranı kimin və hansı şəraitdə atdığını izah edə bilməyib. İstintaq əl qumbarasının atılması nəticəsində polis əməkdaşının öldüyünü iddia edib. Ancaq hadisə yerində qumbara atılması nəticəsində açılmalı olan dəliyin olmaması, qumbaradan yalnız bir qəlpənin ayrılaraq polis əməkdaşına dəyməsi və başqa heç bir şəxsin zərər çəkməməsi bu məsələni ciddi şübhə altına almış olur.

Zərərçəkmiş polis əməkdaşları hamısı eyni şəkildə ifadə veriblər ki, onların həbs etdikləri təqsirləndirilən şəxslərin arxa ciblərində qumbara və odlu silahlar olub, əllərində ancaq bıçaqlar olduğundan həmin şəxsləri rahat şəkildə zərərsizləşdirib tuta biliblər. Onlar hansı səbəbdən zərər çəkdiklərini izah edə bilməyiblər, istintaq da onların mənəvi zərər çəkdiyini bildirib. Ölən polislərin ailə üzvləri isə zərərçəkmiş şəxs kimi məhkəmə proseslərinə qatılmayıb.

Proseslər zamanı işgəncəyə məruz qalmış dindarlar onlara işgəncə vermiş polis əməkdaşlarını tanıdıqca həmin əməkdaşların hansı şəkildə işgəncə verməsini detallı şəkildə izah edən ifadələr veriblər.

Məhkəmə prosesləri zamanı istintaqa verdiyi ifadələrdən imtina edərək həbs edilmiş dindar fəalların xeyrinə ifadə verən şahidlər də dəhşətli işgəncələrə məruz qaldıqlarını, bu səbəbdən istintaqın tələb etdiyi ifadə verdiklərini bəyan ediblər. Məhkəmədə bu ifadələri verdikdən sonra həmin şahidlərin heç bir əsas olmadan Nardaranda əməliyyatı həyata keçirmiş Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılaraq təhdidlərə və hədələrə məruz qalmaları barədə məlumatlar yayılıb.

Ümumdünya İnsan Haqları Konvensiyasının 9-cu maddəsi ilə təsbit edilmiş vicdan azadlığının müxtəlif ölkələrdə vəziyyəti ilə bağlı monitorinq aparan və bu vəziyyətlə bağlı materiallar yayan Forum 18 təşkilatı Nardaran hadisəsinə münasibət bildirib. Qurum hadisə zamanı gücü necə və kimin işlətdiyi, əməliyyatdan qabaq Hərəkatın sədrinə və üzvlərinə qarşı kampaniyaların olduğu, Nardaranın faktiki olaraq nəzarətə alındığı və başqa məsələləri əhatə edən məlumatla çıxış edib.[74] ABŞ-ın Beynəlxalq Din Azadlığına dair Komissiyasının Mərkəzi Asiya üzrə aparıcı eksperti Ketrin Kozman mətbuata müsahibəsində Hərəkatın zor yolu ilə hakimiyyəti devirməsi iddialarına inanmadığını və həbs edilən şəxslərə qarşı sürülən ittihamların əsaslılığına ciddi şübhələrin olduğunu bildirib[75].

### *Sabunçu Rayon Polis İdarəsinin qarşısında tutulanlar*

Noyabrın 5-də Hərəkatın sədr müavini Elçin Qasımov həbs edildikdən sonra Sabunçu Rayon Polis İdarəsinin qarşısına onun hansı səbəbdən həbs olunduğunu öyrənmək və azadlığa buraxəlmasına tələb etçək üçün toplaşan bir qrup şəxs saxlanılıb. Bu şəxslər

[74] http://bit.ly/2cKIrPD
[75] http://bit.ly/2d7kbcq

Sabunçu Rayon Məhkəməsinin hökmü ilə ittiham edildikləri maddələr üzrə yuxarı həddə azadlıqdan məhrum ediliblər və bu hökmdən apellyasiya şikayəti veriblər.

Qeyd edilən tarixdə həbs edilən şəxslərə qarşı xuliqanlıq və polisə müqavimət ittihamı irəli sürülüb, lakin sonradan bu ittihamlar ləğv olunub və onlar polisə müqavimət ittihamı ilə inzibati qaydada həbs ediliblər. Noyabrın 20-də və sonrakı tarixlərdə azadlığa buraxılan şəxsləri sonradan yenidən Nardaran hadisələrinə görə saxlayıblar və yenidən sutkalıq həbs veriblər. İnzibati həbsdə olarkən onlara qarşı hökm edildikləri maddələr üzrə ittihamlar irəli sürüblər.

Bu qrupa daxil olan dindarlardan biri, daha əvvəl də hicaba qoyulan qadağaya etiraz olaraq keçirilmiş aksiyada iştiraka görə tutulub azadlıqdan məhrum edilən Sahil Rzayev verdiyi apellyasiya şikayətində həm özünün, həm də dindar dostlarının polis bölməsində ağır işgəncələrə məruz qaldığını, onların heç bir cinayət törətmədiklərini və dinc şəkildə E.Qasımovun həbsinə etiraz etdiklərini vurğulayıb.

Bu şəxslər haqda çıxarılan hökmdən də görünür ki, onlar ancaq polis əməkdaşlarının ifadələri əsasında azadlıqdan məhrum ediliblər. Polis idarəsinin qarşısında olan təhlükəsizlik kameralarının məhkəməyə təqdim olunan görüntülərində də adları çəkilən şəxslərin polisə müqavimət göstərmələri və ya iğtişaşda iştirak etmələri görünmür. Görüntülərdə yalnız bir qrup şəxsin polis idarəsinin qarşısında dayandığı, ərazidə çoxsaylı polis əməkdaşlarının olduğu və dindarlarla bəzi polis zabitləri arasında söhbətin getdiyi, sonradan bu söhbətin polisin zor tətbiq etməsi ilə nəticələnən münaqişəyə çevrildiyi görünür.

*Sabunçu Rayon Məhkəməsinin (hakim Süleyman Ağayev) 03 avqust 2016-cı il tarixli hökmü ilə E.Bünyadov* ***6 il 1 ay 15*** *gün müddətinə, L.Əhmədov* ***5 il 11 ay 20 gün*** *müddətinə, A.Əliyev* ***5 il 11 ay*** *müddətinə, S.Rzayev* ***6 il 5 ay 15 gün*** *müddətinə və N.Vəliyev* ***5 il 11 ay 10 gün*** *müddətinə azadlıqdan məhrum ediliblər. Bakı Apelyasiya Məhkəməsi (sədrlik edən Vüqar Məmmədov) 08 may 2017-ci il, Ali Məhkəmə isə (sədrlik edən Gülzar Rzayeva) 28 noyabr 2017-ci il tarixlərində bu hökmü dəyişdirmədən qüvvədə saxlayıblar.*

### 30. Elxan Hatif oğlu BÜNYADOV




© Ailəsi tərəfindən təqdim edilib

**Saxlanma müddəti:** 05 noyabr 2015-ci il

**İttiham:** CM-in 228.4 *(qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 6 il 1 ay 15 gün

**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi

---

**31. Lətif Süleyman oğlu ƏHMƏDOV**



**Saxlanma müddəti:** 05 noyabr 2015-ci il

**İttiham:** CM-in 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 5 il 11 ay 20 gün

**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi

---

**32. Anar Yusif oğlu ƏLİYEV**

**Saxlanma müddəti:** 05 noyabr 2015-ci il

**İttiham:** CM-in 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 5 il 11 ay

**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi

---

**33. Sahil Xalid oğlu RZAYEV**



© abzas.net

**Saxlanma tarixi:** 05 noyabr 2015-ci il

**İttiham:** CM-in 233-cü *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

**34. Niftəli Əşrəf oğlu VƏLİYEV**

**Saxlanma tarixi:** 05 noyabr 2015-ci il

**İttiham:** CM-in 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 5 il 11 ay 10 gün

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

---

***Taleh Bağırzadə və Nardaran qəsəbəsində keçirilən əməliyyat zamanı onunla birgə tutulanlar***

**35. Taleh Kamil oğlu BAĞIRZADƏ**



**Saxlanma tarixi:** 26 noyabr 2015-ci il

**İttiham:** CM-in 120.2.1 *(qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən), 120.2.3 (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə)*, 120.2.4 *(xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə)*, 120.2.7 *(iki və ya daha çox şəxsi öldürmə)*, 120.2.12 *(milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə)*, 29, 120.2.1 *(cinayət törətməyə cəhd, qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən)*, 29, 120.2.3 *(cinayət törətməyə cəhd, zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə)*, 29, 120.2.4 *(cinayət törətməyə cəhd, xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə)*, 29, 120.2.7 *(cinayət törətməyə cəhd, iki və ya daha çox şəxsi öldürmə)*, 29, 120.2.12 *(cinayət törətməyə cəhd, milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə)*, 28, 214.2.1 *(cinayətə hazırlıq, terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə)* 28, 214.2.3 *(cinayətə hazırlıq, odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə)*, 214-2 (*CM-in 102, 214, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 279 və*

*ya 282-ci maddələrində*[76] *nəzərdə tutulmuş əməllərin törədilməsinə açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materiallar yayma)*, 220.2 *(Hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə)*, 228.3 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə,mütəşəkkil dəstə tərəfindən törədildikdə)*, 228.4 *(qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla)*, 278 *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)*, 279.1 *(Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə)*, 281.2 *(hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma, təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə)*, 283.2.3 *(milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə, mütəşəkkil dəstə tərəfindən)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət*

---

[76] CM-in 102 (beynəlxalq müdafiədən istifadə edən xarici dövlət nümayəndəsinə və ya beynəlxalq təşkilatın əməkdaşına, habelə həmin şəxslərin xidməti və ya yaşayış sahələrinə, yaxud nəqliyyat vasitələrinə hücum etmə. müharibəyə təhrikçilik və ya beynəlxalq münasibətlərin gərginləşməsi məqsədi ilə törədildikdə), 214 (terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə), 214-3 (bu Məcəllənin 102, 214, 215, 219, 219-1, 226, 227, 277 və ya 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi məqsədi ilə həmin əməllərin törədilməsi üsulları, odlu silahdan, partlayıcı maddələrdən və ya qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və ya texniki vasitələrdən istifadə hazırlığı üzrə təlim alma), 215 (girov götürülən şəxsin azad olunması şərti ilə dövləti, təşkilatı və ya vətəndaşı hər hansı hərəkəti etməyə və ya hər hansı hərəkətdən çəkinməyə vadar etmək məqsədilə şəxsi girov götürmə və ya saxlama), 219 (hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırma), 219-1 (dəniz quldurluğu, yəni özgənin əmlakını ələ keçirmək məqsədi ilə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə dəniz və çay gəmisinə edilən basqın), 226 (radioaktiv materiallarla qanunsuz davranma), 227 (radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmə), 277 (dövlət xadiminin və ya ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədi ilə onun həyatına sui-qəsd etmə (terror aktı)), 279 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 282-ci (təxribat, Azərbaycan Respublikasının müdafiə qabiliyyətini və iqtisadi təhlükəsizliyini zəiflətmək məqsədilə müəssisələrin, qurğuların, yolların, əlaqə və rabitə vasitələrinin, əhalinin həyat təminatı obyektlərinin dağıdılmasına, yaxud zədələnməsinə yönəldilən partlayışlar, yanğınlar və sair hərəkətlər törətmə, həmçinin eyni məqsədlə kütləvi surətdə zəhərləmə və ya insanlar və heyvanlar arasında yoluxucu xəstəliklər yayma) maddələri

*nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) maddələri

**Cəzasının müddəti:** 20 il

**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

---

**36. Fərhad Nəsrəddin oğlu BALAYEV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

**37. Cabbar Əmirxan oğlu CABBAROV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 19 il

**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

---

**38. Rasim Mirzəbala oğlu CƏBRAYILOV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 17 il

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

**39. İbrahim Məhəmməd oğlu XUDAVERDİYEV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**40. Aqil Azər oğlu İSMAYILOV**

**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

**41. Etibar Rasim oğlu İSMAYILOV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**42. Abbas Abdülrəhman oğlu QULİYEV**



**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

**43. Əli Həsrət oğlu NURİYEV**



**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 12 saylı Cəzaçəkmə Müəssisəsi

---

**44. Abbas Hafiz oğlu TAĞIZADƏ**

**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**45. Əlibaba Cavad oğlu VƏLİYEV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının mqüddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

**46. Ramin Məhərrəm oğlu YARIYEV**



**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 10 il

**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi

---

**47. Abbas Məmmədbağır oğlu HÜSEYNOV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr və əlavə olaraq CM-in 233-cü *(ictimai qaydanı kobud surətdə pozan və ya hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan, yaxud nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan hərəkətlərin bir qrup şəxs tərəfindən törədilməsini təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* maddəsi

**Cəzasının müddəti:** 20 il

**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

**İş üzrə yeni məlumatlar:** 8 avqust 2018-ci ildə A.Hüseynov Qobustan Qapalı Həbsxanasında vəkili Yalçın İmanovla görüşüb. O, vəkilinə iyulun 22-də Qobustan həbsxanasına köçürüldükdən sonra sistematik işgəncələrə məruz qaldığını bildirib. O, sonuncu dəfə avqustun 5-də dəyənək və yumruq zərbələri ilə döyüldükdən sonra karsa yerləşdirildiyini, orada bir dəmirin üstünə əlləri və ayaqları qandallı şəkildə çarmıxa bağlandığını vəkilinə bildirib. Görüşdən sonra Y.İmanov A.Hüseynovun iddialarını ictimailəşdirib və görüş zamanı A.Hüseynovun bədənində işgəncə əlamətlərini gördüyünü mətbuata bildirib. Vəkil işgəncə iddiaları ilə bağlı Ombudsman aparatını da məlumatlandırıb, eyni zamanda Qaradağ Rayon Məhkəməsinə şikayət verib. Lakin Məhkəmə belə şikayətlərə məhkəmə nəzarəti qaydasında baxılmadığını əsas göstərərək şikayətə baxmaqdan imtina edib. Qərardan verilən apellyasiya şikayəti təmin edilməyib. Vəkil daha sonra işgəncə iddialarının araşdırılması üçün Qaradağ Rayon Prokurorluğuna şikayət verib. Avqustun 10-da Qobustan Qapalı Həbsxanasının rəis müavini Y.İmanovdan Vəkillər Kollegiyasına şikayət verib; şikayəti onunla əsaslandırıb ki, vəkil A.Hüseynovun işgəncəyə məruz qalması barədə açıqlamalarını ictimailəşdirərək cəmiyyətdə çaşqınlıq yaradıb. Noyabrın 20-də Vəkillər Kollegiyası Y.İmanovun qurumdan xaric olunması üçün məhkəməyə müraciət edilməsi, məhkəmə qərar çıxarana qədər Y.İmanovun vəkillik fəaliyyətinin dayandırılması haqqında qərar qəbul edib.

Qaradağ Rayon Prokurorluğuna verilən şikayət prokurorluq tərəfindən effektiv araşdırılmadığı üçün A.Hüseynov Prokurorluqdan Qaradağ Rayon Məhkəməsinə şikayət verib. Məhkəmədə o, nə vaxt, hansı şəkildə, kimlər tərəfindən işgəncəyə məruz qaldığını ayrıntıları ilə danışıb. Bununla belə, Qaradağ Rayon Məhkəməsi (hakim Rufan Mürsəlov) 31 oktyabr 2018-ci il tarixli qərarı ilə şikayəti təmin

etməyib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Kamran Əkbərov) 19 dekabr 2018-ci il tarixli qərarı ilə birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb. Qobustan Qapalı Həbsxanasında cəza çəkən T.Bağırzadə 14 yanvar 2019-cu ildə yaxınları ilə telefonda danışarkən A.Hüseynovun bir gün öncə işgəncələrə məruz qaldığını bildirib. O, yanvarın 13-də A.Hüseynovun amansız döyüldüyünün, daha sonra qanın içində harasa aparıldığının şahidi olduğunu deyib.

T.Bağırzadə özü ilə bağlı onu bildirib ki, həbsxanada başqa bir məhbusu yandırdığına görə əlavə 6 il cəza almış bir məhkumu gətirib onun kamerasına salıblar. O, daha sonra vəkili ilə görüşə aparılıb-gətiriləndə əllərinin kiminsə qanına bulaşmış qandalla bağlanıldığını, qandal möhkəm sıxıldığından əlinin yaralandığını bildirib. Bu durumda onun hansısa infeksiyon xəstəliyə yoluxmaq təhlükəsi yaranıb.

*Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Əlövsət Abbasov) 25 yanvar 2017-ci il tarixli hökmü ilə Taleh Bağırzadə və Abbas Hüseynovun hər biri **20 il**, Cabbar Cabbarov **19 il**, Rasim Cəbrayılov **17 il**, Əlibaba Vəliyev, Abbas Tağızadə, Əli Nuriyev, Zakir Mustafayev, Abbas Quliyev, Etibar İsmayılov, Aqil İsmayılov, İbrahim Xudaverdiyev, Bəhruz Əskərov, Fərhad Balayev və Cahad Babakişizadənin hər biri **14 il 6 ay**, Ramin Yarıyev **10 il** müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Əmir Bayramov) 20 iyul 2017-ci il, Ali Məhkəmə (sədrlik edən Şahin Yusifov) 01 mart 2018-ci il tarixli qərarları ilə bu hökmü qüvvədə saxlayıb.*

---

## 48. Əbülfəz Heybət oğlu BÜNYADOV



**Saxlanma müddəti:** 26 noyabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 22 gün

**Saxlandığı yer:** Penitensiar Xidmətin Müalicə Müəssisəsi

**İş üzrə yeni məlumatlar:** Nardaranda aparılan əməliyyat zamanı həbs edilənlərdən biri Ə.Bünyadov olub. Amma hadisə zamanı güllə yarası alaraq iflic olub, hərəkət qabiliyyətini itirib. Bu səbəbdən onun işi digər təqsirləndirilən şəxslərin işindən ayrılmışdı. Daha sonra Ə.Bünyadovun işi Nardaran hadisələrindən sonra axtarışa verilən, 2017-ci ilin martında həbs edilən Elxan İsgəndərovun[77] işi ilə birləşdirilib.

20 dekabr 2016-cı ildə Ə.Bünyadov barəsində seçilmiş həbs qətimkan tədbiri polis nəzarətinə vermə qətimkan tədbiri ilə əvəzlənib. Nəzarətində olduğu müddətdə o, tənqidi çıxışlarını davam etdirib; ağır yataq xəstəsi olmasına və yardıma ehtiyac olmasına rəğmən ona qulluq etmələri üçün hətta yaxınlarına belə imkan verilməyib.

[77] İstintaq orqanı E.İsgəndərovun gizləndiyini bildirsə də, özünün və vəkillərinin dediyinə görə, o istintaqdan gizlənmyib, evdə olub və həmin müddətdə istintaq qurumları tərəfindən nə yazılı, nə də şifahi çağırış almayıb.

*Bakı Ağır Cinayətlər Məhkəməsinin (hakim Əfqan Hacıyev) 11 iyul 2018-ci il tarixli hökmü ilə Ə.Bünyadova qəti olaraq* ***14 il 22 gün*** *azadlıqdan məhrumetmə cəzası təyin edilib, cəzaçəkmə müddətinin başlanğıcı 11 iyul 2018-ci ildən hesablanıb, cəzasının ilk 3 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməsi qərara alınıb, barəsində seçilmiş polisin nəzarəti altına vermə qətimkan tədbiri ləğv edilib və barəsində həbs qətimkan tədbiri seçilərək məhkəmə iclas zalında həbs edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Əmir Bayramov) 26 sentyabr 2018-ci il tarixli qərarı ilə birinci instansiya məhkəməsinin hökmünü qüvvədə saxlayıb.*

Ə.Bünyadovun sağlamlıq durumu çox ağır olaraq qalır və onun bu durumda həbsdən sağ çıxa biləcəyi ehtimalı çox azdır.

---

### 49. Cahad Bala Hüseyn oğlu BABAKİŞİZADƏ



**Saxlanma müddəti:** 09 dekabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

**İş üzrə yeni məlumatlar:** C.Babakişizadənin saxlandığı 12 Saylı Cəzaçəkmə Müəssisəsinin rəhbərliyi onun həbsxana rejiminə köçürülməsi üçün Qaradağ Rayon Məhkəməsinə müraciət edib. Müraciətdə əsas kimi onun daxili intizam qaydalarını tez-tez pozduğu, bu səbəbdən 9 dəfə töhmət aldığı və karsla cəzalandırıldığı göstərilib. Qaradağ Rayon Məhkəməsi C.Babakişizadənin cəzasının üç ilini həbsxana rejimində çəkməsi barədə qərar qəbul edib. Qərardan apellyasiya şikayəti verilib. C.Babakişizadə vəkili olmadığı üçün apellyasiya şikayətini özü hazırlayıb. Bakı Apellyasiya Məhkəməsində (sədrlik edən hakim Həsən Əhmədov) C.Babakişizadə cəzaçəkmə rejiminin ağırlaşdırılmasının səbəbinin ona məlum olmadığını bildirib. O, 12 saylı Cəzaçəkmə Müəssisəsində də bu şəkildə heç bir əsas olmadan müxtəlif bəhanələrlə tez-tez cəzalandırıldığını bildirib. Bakı Apellyasiya Məhkəməsi 1 oktyabr 2018-ci il tarixdə Qaradağ Rayon Məhkəməsinin qərarını qüvvədə saxlayıb. Qərardan bir bir müddət sonra Qobustan Qapalı Həbsxanasına köçürülüb.

---

### 50. Bəhruz Rahib oğlu ƏSKƏROV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma müddəti:** 09 dekabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**51. Zakir Tapdıq oğlu MUSTAFAYEV**



**Saxlanma müddəti:** 26 dekabr 2015-ci il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

**52. Şamil Adil oğlu ABDULƏLİYEV**



**Saxlanma müddəti:** 08 yanvar 2016-cı il

**İttiham:** Yuxarıdakı işdə göstərilən eyni maddələr

**Cəzasının müddəti:** 14 il 6 ay

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

***Elçin Qasımov və onunla birgə mühakimə edilənlər***

Müsəlman Birliyi Hərəkatının əsas simalarından biri olan E.Qasımov axşam saatlarında məsciddən çıxıb evə gedərkən polis əməkdaşları tərəfindən saxlanılaraq Sabunçu Rayon Polis İdarəsinə aparılıb. Noyabrın 6-da onun barəsində polisə tabe olmama ittihamı ilə Sabunçu Rayon Məhkəməsi tərəfindən 30 sutka inzibati həbs barədə qərar çıxarılıb; bu qərardan verilən şikayəti Bakı Apellyasiya Məhkəməsi təmin etməyib. Noyabrın 26-da Nardaran qəsəbəsindəki əməliyyatdan 1 gün sonra, noyabrın 27-də, inzibati həbsinin 22-ci günündə E.Qasımova qarşı inzibati həbsə səbəb olmuş əməllərə görə cinayət ittihamları irəli sürülüb və o təqsirləndirilən şəxs kimi cinayət məsuliyyətinə cəlb edilirək barəsində həbs qətimkan tədbiri seçilib (faktiki eyni əmələ görə iki dəfə məsuliyyətə cəlb edilib). Az müddət sonra isə ona qarşı Naradaran qəsəbəsində həbs edilmiş şəxslərin bir qisminə qarşı irəli sürülmüş analoji ittihamlar irəli sürülüb: evində axtarış aparılarkən silah tapıldığı iddia olunub.

E.Qasımov barəsində seçilmiş həbs qətimkan tədbirinin qanunsuzluğu ilə bağlı yuxarı instansiyalara şikayət edib, şikayət təmin edilmədiyi üçün Avropa Məhkəməsinə müraciət edib (ərizə N 30813/16).

E.Qasımov və onun yaxınları bu cinayət işinə görə həbs edilmiş digər şəxslər kimi onun da işgəncəyə və qeyri-insani rəftara məruz qaldığını bildirib, Ombudsman Aparatına və digər qurumlara şikayətlər ünvanlayıblar. Lakin bu müraciətlər lazımi şəkildə araşdırılmayıb. E.Qasımov barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti 20 sentyabr 2016-cı ildə Nəsimi Rayon Məhkəməsinin qərarı ilə 26 dekabr 2016-cı ilə qədər uzadılıb.

Nardaran hadisələrinə görə həbs edilən bir sıra şəxslərin işləri E.Qasımovun işi ilə birlikdə Bakı Ağır Cnayətlər Məhkəməsinə göndərilib və bu şəxslərə qarşı analoji maddələr üzrə ittihamlar irəli sürülüb. İş üzrə başlanan cinayət işi aşağıdakı maddələr üzrə aparılıb.

**İttiham:** CM-in 28, 214.2.1 *(cinayətə hazırlıq, terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə)* 28, 214.2.3 *(cinayətə hazırlıq, terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə, odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə)*, 214-2 *(terrorçuluğa açıq çağırışlar)*, 220.2 *(hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə)*, 228.3 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə)*, 228.4 *(qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)*, 278 *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)*, 279.3 *(Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, adamların həlak olmasına və ya digər ağır nəticələrə səbəb olduqda)*, 281.2 *(hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla*

*dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma, təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə)*, 283.2.3-cü *(milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə, mütəşəkkil dəstə tərəfindən törədildikdə)* maddələri, əlavə olaraq CM-in 221.3 (*xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə*) və 315.2-ci (*xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə*) 221.2.2 (*xuliqanlıq, yəni ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, vətəndaşlar üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlər, ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə törədildikdə*), 315.1-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə zor tətbiq etmə, zor tətbiq etməklə müqavimət göstərmə və ya onun yaxın qohumlarına qarşı həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya belə zor tətbiq etmə hədəsi ilə hədələmə)* və 320.2-ci *(saxta olduğunu bilə-bilə hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədlərdən istifadə),* 234.4.3-cü (*satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda* törədildikdə) maddələri

*Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Mayıl Bayramov) 28 dekabr 2017-ci il tarixli hökmü ilə Elçin Qasımov və Ağaəli Yəhyayevin hər biri* ***15 il****, Nahid Qəhrəmanov* ***13 il****, İsa İbrahimov, Fərhad Muradov, Elgün Axundov, Vüsal Alış və Seyfəddin Şirvanovun hər biri* ***12 il 6 ay****, Əlibəy Şahbazov, Seymur Aslanov, Ramil Əliyev və Əmirəli Əliyevin hər biri* ***12 il 3 ay*** *müddətinə azadlıqdan məhrum ediliblər. Həmin hökm Bakı Apellyasiya Məhkəməsinin (sədrlik edən Elşad Şamayev) 04 aprel 2018-ci il tarixli qərarı ilə, Ali Məhkəmənin (sədrlik edən İmran Hacıqayıbov) 08 yanvar 2019-cu il tarixli qərarı ilə dəyişdirilmədən saxlanılıb.*

---

## 53. Ağaəli Eldar oğlu YƏHYAYEV



© Ailəsi tərəfindən təqdim edilib

**Saxlanma tarixi:** 05 noyabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü, 221.3 və 315.2-ci maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 15 il

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 54. Elçin Kamal oğlu QASIMOV



© Ailəsi tərəfindən təqdim edilib

**Saxlanma tarixi:** 05 noyabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 271.3, 281.2, 283.2.3, 320.2, 315.1, 221.2.2, 315.1, 320.2-ci maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 15 il

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 55. Elgün Ənvər oğlu AXUNDOV



**Saxlanma tarixi:** 01 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 6 ay

**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 56. Vüsal Nadir oğlu ALIŞ



© *Aran news*

**Saxlanma tarixi:** 02 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 6 ay

**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

**57. Nahid Nəsib oğlu QƏHRƏMANOV**



**Saxlanma tarixi:** 02 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 13 il

**Saxlandığı yer**: 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

**58. Əlibəy Atabala oğlu ŞAHBAZOV**



**Saxlanma tarixi:** 02 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 3 ay

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

---

**59. Əmirəli İsmayıl oğlu ƏLİYEV**

**Saxlanma tarixi:** 03 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 3 ay

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**60. Fərhad Mirzəhəsən oğlu MURADOV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 07 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 6 ay

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 61. Ramil Zabil oğlu ƏLİYEV

**Saxlanma tarixi:** 08 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

Cəzasının müddəti: 12 il 3 ay

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 62. Seyfəddin Nurulla oğlu ŞİRVANOV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 09 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 6 ay

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 63. İsa Tofiq oğlu İBRAHİMOV



*© maide.az*

**Saxlanma tarixi:** 18 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 6 ay

**Saxlandığı yer:** 12 saylı Cəzaçəkmə Müəssisəsi

---

**64. Seymur Tərlan oğlu ASLANOV**



**Saxlanma tarixi:** 23 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 3 ay

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

**65. Elxan Sayadulla oğlu İSGƏNDƏROV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 15 mart 2017-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 233, 278, 279.3, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 14 il

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

İstintaq orqanının Nardaran işi üzrə axtarışda olduğunu iddia etdiyi MHB-nin üzvü Elxan İsgəndərov 15 mart 2017-ci ildə yaşadığı evdə tutulub, ona qarşı eyni ittihamlar irəli sürülüb və Nəsimi Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

*Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Ə.Hacıyev) 11 iyul 2018-ci il tarixli hökmü ilə E.İsgəndərov **14 il** müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Əmir Bayramov) 26 sentyabr 2018-ci il tarixli qərarı ilə birinci instansiya məhkəməsinin hökmünü qüvvədə saxlayıb.*

---

***Nardaran hadisələrinə görə ağır ittihamlarla tutulanlar***

## 66. Zülfüqar Sədrəddin oğlu MİKAYILOV




*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 26 noyabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 17 il

**Saxlandığı yer:** 8 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 67. Ruzi Xaliq oğlu İSMAYILOV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 26 noyabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3*,* 234.4.3, 315.2-ci maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 15 il

**Saxlandığı yer:** 12 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 68. Cabir Sabir oğlu ƏLİYEV

**Saxlanma tarixi:** 26 noyabr 2016-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3*,* 234.4.3 maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 14 il

**Saxlandığı yer:** 12 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 69. Ramil Suliddin oğlu SEYFULLAYEV



*© Aran news*

**Saxlanma müddəti:** 29 noyabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 13 il

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

**70. Mübariz Eyyub oğlu İBRAHİMOV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 29 noyabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 13 il

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 71. Elman Seydəmir oğlu AĞAYEV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 29 noyabr 2016-cı il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 233, 278, 279.3, 281.2, 283.2.3 maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 13 il

**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 72. Əli Hümət oğlu HÜSEYNOV

**Saxlanma tarixi:** 01 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 3 ay

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 73. Eldar Əliağa oğlu BÜNYATOV

**Saxlanma tarixi:** 01 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 3 ay

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 74. Mehman Əbülfəz oğlu QULİYEV

**Saxlanma tarixi:** 01 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 3 ay

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 75. Mehman Sudef oğlu MƏMMƏDOV

**Saxlanma tarixi:** 03 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 3 ay

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 76. Elxan Heydər oğlu HƏSƏNOV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 11 dekabr 2015-ci il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 12 il 3 ay

**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 77. Faiq Arif oğlu ALLAHVERDİYEV

**Saxlanma tarixi:** 21 yanvar 2016-cı il

**İttiham:** CM-in 28, 214.2.1, 28, 214.2.3, 214-2, 220.2, 228.3, 228.4, 278, 279.1, 281.2, 283.2.3-cü maddələri (bax: bölmə üzrə maddələrin təsnifatı ilə bağlı arayışa)

**Cəzasının müddəti:** 13 il

**Saxlandığı yer:** 12 saylı Cəzaçəkmə Müəssisəsi

*Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Zeynal Ağayev) 6 dekabr 2017-ci il tarixli hökmü ilə Zülfüqar Mikayılov **17 il**, Ruzi İsmayılov **15 il**, Cabir Əliyev **14 il**, Elman Ağayev, Faiq Allahverdiyev, Mübariz İbrahimov və Ramil Seyfullayevin hər biri **13 il**, Əli Hüseynov, Mehman Məmmədov, Eldar Bünyadov və Elxan Həsənovun hər biri **12 il 3 ay** müddətinə azadlıqdan məhrum edilib.*

---

## 78. Məhəmmədəli Ruhulla oğlu AXUNDZADƏ



**Saxlanma tarixi:** 22 dekabr 2015-ci il

**İttiham:** CM-in 234.4.3-cü maddəsi *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)*

**Cəzasının müddəti:** 5 il 6 ay

**Saxlandığı yer:** 6 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** M.Axundzadə İslam Partiyasının Astara rayon təşkilatının həbsdə olan sədri, siyasi məhbus Ruhulla Axundzadənin oğludur. O, 22 dekabr 2015-ci ildə həbsdə olan atası ilə görüşüb Bakıdan Astaraya qayıdarkən ailə üzvlərinin yanında həbs olunub.

M.Axundzadə Məşhəd şəhərində Dini Mədrəsədə təhsil alıb. O, ilahiyyat təhsili almaqla yanaşı bəzi məqalə və tənqidi yazıları, o cümlədən tənqidi sosial şəbəkə statusları ilə diqqəti çəkib.

M.Axundzadə ailə üzvləri ilə Bakıda ola-ola, istintaq orqanı zorla onun boynuna qoymaq istəyib ki, o həmin vaxt Astara şəhərində Nərimanov küçəsində gəzərkən üzərindən narkotik "tapılıb". Onu DİN-in Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinə gətirib Taleh Bağırzadənin olduğu kameraya salıblar. 3 gün orada saxlayıb narkotikanı boynuna götürsün, ya da onu da "Nardaran işi"nə qoşacaqları ilə şantaj ediblər.

M.Axundzadə 2015-ci il noyabrın 26-da Nardaranda baş verən hadisələr zamanı təhsili ilə bağlı ölkədən kənarda olub. Dekabrın ortalarında Azərbaycana gəlib, Nardaran hadisələrinin başvermə səbəblərini öyrənib və "Nardaranda nə baş verir?" adlı video-rolik hazırlayıb youtube.com-da yerləşdirib. [78] Həmin video-rolikdə o, hakimiyyətin Nardaran əməliyyatını kəskin tənqid edib.

M.Axundzadə polisdə psixoloji və fiziki işgəncələrə məruz qaldığını iddia edib. Bu şikayətlər istintaq orqanı və məhkəmələr tərəfindən ciddi araşdırılmayıb.

Cinayət işi ilə bağlı məhkəmə araşdırması zamanı müdafiə tərəfi M.Axundzadənin təqsirsizliyi ilə bağlı ciddi sübutlar ortaya qoyub. Narkotikanın onun cibinə polislər tərəfindən qoyula bilməsi ehtimalı ilə bağlı müdafiə tərəfinin əsaslı şübhələrinin aradan qaldırılması üçün istintaq orqanı kimi məhkəmə də qanunla üzərlərinə qoyulan vəzifəni yerinə yetirməyib.

[78] https://bit.ly/2wms9HM

*Lənkəran Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Oruc Cəlilov) hökmü ilə Məhəmmədəli Axundzadə 20 iyun 2016-cı ildə **5 il 6 ay** müddətinə azadlıqdan məhrum edilib. Həmin hökm Şirvan Apellyasiya Məhkəməsinin (sədrlik edən İsmayıl Əhmədov) 30 avqust 2016-cı il tarixli qərarı ilə dəyişdirilmədən saxlanılıb.*

---

**79. Əhsən Müzəffər oğlu NURUZADƏ**



*© Meydan.tv*

**Saxlanma tarixi:** 6 oktyabr 2017-ci il

**İttiham:** CM-in 234.4.3-cü maddəsi *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)*

**Cəzasının müddəti:** 7 il

**Saxlandığı yer:** 6 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Qeydiyyata alınmamamış Müsəlman Birliyi Hərəkatının üzvü, dini və ictimai fəaldır. Bu hərakatın rəhbəri Taleh Bağırzadə və daha 17 nəfərə qarşı irəli sürülmüş cinayət işi ilə bağlı Bakı Ağır Cinayətlər Məhkəməsində həyata keçirilən məhkəmə dinləmələrinin daima iştirakçısı olub. Facebook fəalı olmaqla T.Bağırzadə və başqalarınmın məhkəmə prosesi zamanı mütəmadi olaraq ittihamların saxtalığı barədə qeydlər paylaşıb, yerli KİV-ə müsahibəsində DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsini (BMCMİ) "bədheybət qurum və işgəncə yuvası" adlandırıb.

*1-ci oğurlanma və həbs*

24 yanvar 2017-ci ildə, Bakı Ağır Cinayətlər Məhkəməsində T.Bağırzadə və daha 17 nəfərə hökm oxunmasından bir gün əvvəl Ə.Nuruzadə yaşadığı mənzildən çıxaraq, metronun "Nərimanov" stansiyasına doğru hərəkət edərkən, məhəllənin yaxınlığında mülki geyimli iki nəfər tərəfindən oğurlanıb, mobil telefonu əlindən alınıb və dərhal da qara rəngli "Mercedes" markalı avtomobilə otuzdurularaq BMCMİ-yə aparılıb. İdarədə o, təxminən 1 saata yaxın saxlandıqdan sonra barəsində guya polisin qanuni tələblərinə qəsdən tabe olmaması haqda saxta protokol tərtib edilərək, təzyiq altında ona həmin protokola qol çəkdirilib. Həmin gün Nərimanov Rayon Məhkəməsinin 24 yanvar 2017-ci il tarixli qərarı ilə 10 gün müddətinə inzibati qaydada həbs edilib (İnzibati Xətalar Məcəlləsinin 535.1-ci maddəsi). Ə.Nuruzadə qərarda göstərilən inzibati həbs olunanların saxlanılma yerinə deyil, BMCMİ-yə qaytarılıb və 30 yanvar 2017-ci il gündüz saat 11:30 radələrinə qədər orada saxlanılıb. Bu müddətdə onun ailə üzvlərinə və vəkilinə Ə.Nuruzadənin harada saxlanılması ilə bağlı hər hansı bir məlumat verilməyib.

Ailə üzvləri və vəkili paytaxtın polis idarələri, Nərimanov Rayon Məhkəməsi, Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Bölməsi, Nərimanov Rayon Polis İdarəsinin Müvəqqəti Saxlanma Yeri, Binəqədi rayonunda yerləşən İnzibati həbs olunanların saxlanılma yeri, Bakı Şəhər Baş Polis İdarəsi, BMCMİ ilə dəfələrlə əlaqə saxlayıb, ancaq adları şəkilən qurumlardan Nuruzadənin orada saxlanmadığı, yaxud da barəsində hər hansı məhkəmə qərarı qəbul edilmədiyi bildirilib, dəfələrlə Daxili İşlər Nazirliyinin 102 saylı "Qaynar Xətti"nə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı Nümayəndəliyinə, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatına müraciətlər edilib, ancaq onu tapmaq mümkün olmayıb. 27 yanvar 2017-ci ildə onun itkin düşən şəxs kimi qeydiyyata alınması ilə bağlı Nəsimi Rayon Polis İdarəsinn 22-ci Polis Bölməsinə rəsmi müraciət olunub. 28 yanvar 2017-ci ildə Ə.Nuruzadənin vəkili media vasitəsilə müdafiə etdiyi şəxsin tapılması xahişi ilə Daxili İşlər Nazirinə müraciət ünvanlayıb. 30 yanvar 2017-ci il tarixdə səhər saat 09:30 radələrində BMCMİ-dən Nuruzadənin vəkilinə zəng edilərək, onun sözügedən idarədə saxlanıldığı və vəkilin onunla görüşə biləcəyi bildirilib, ancaq vəkil İdarəyə getsə də, oradan az əvvəl Ə.Nuruzadənin Binəqədi rayonunda yerləşən İnzibati həbs olunanların müvəqqəti saxlanılma yerinə aparıldığı və inzibati həbs olunduğu bildirilib.

Ə.Nuruzadə BMCMİ-də saxlanıldığı 24-30 yanvar 2017-ci il tarixlərdə hər gün T.Bağırzadə, Milli Şura və Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsəlman Birliyi Hərəkatının qərb təşkilatları və İran İslam Respublikası ilə əlaqələri, hüquq müdafiəçiləri və media ilə münasibətləri, Müsəlman Birliyi Hərəkatının maliyyə mənbələri barədə dindirilib, lakin bu dindirmələr rəsmiləşdirilməyib, dindirmə protokolu tərtib edilməyib. Burada o, mənəvi və psixoloji təzyiqlərə məruz qalıb, bir sıra hallarda onunla qaba və sərt davranılıb, ondan T.Bağırzadəni müdafiə etməmək, Milli Şura ilə əlaqələri kəsmək, hüquq müdafiəçiləri və jurnalistlərlə ünsiyyət yaratmamaq tələb edilib, onların Azərbaycan dövlətçiliyinə xəyanət etdiyi deyilib, eyni zamanda ona qeyri-rəsmi əməkdaşlıq təklif edilib, yenidən bu idarəyə gətiriləcəyi halda onun üçün daha pis olacağı bildirilib, ancaq o, bütün bunların hamısından imtina edib.

*İkinci oğurlanma və həbs*

Ə.Nuruzadə 19 sentyabr 2017-ci ildə saat təxminən 14:00 radələrində yenə mənzilindən idman şalvarı və çəkələkdə çıxıb, yaxınlıqdakı mağazadan siqaret almağa gedərkən məhəllənin yaxınlığında mülki geyimli 2 nəfər tərəfindən oğurlanıb və zorla "JEEP" markalı avtomobilə mindirilərək BMCMİ-yə gətirilib. İdarədə onu iki nəfər sorğu-sual edib. Əsas suallar MBH-nın maliyyə mənbəyi, fəalları, Milli Şura, AXCP ilə əlaqələr, Milli Şuranın sentyabrın 23-də keçirilən mitinqi ilə bağlı olub. Ailə üzvləri, həyat yoldaşının qohumlarının ünvanları, telefonları ondan istənilib, vermədikdə, mülki geyimlilərdən biri (Fərid adlı) onun sinəsindən 2-3 dəfə yumruqla zərbə endirib. Həyat yoldaşının qohumlarını əleyhinə yönəltməklə hədələyiblər. Sentyabrın 22-də isə onu BMCMİ-də saxlandığı zirzəmidən çıxarıb guya İdarənin qarşısından keçərkən mobil telefonla danışarkən həmin İdarənin ünvanına söyüş söydüyü, yaxınlıqda olan polis əməkdaşlarının onu sakitliyə dəvət etdiyi, o isə tabe olmayaraq söyüşləri davam etdirdiyi və qaçmaq istədiyi vaxt, polislər tərəfindən saxlandığı və bu səbəbdən də barəsində inzibati xəta haqqında protokol tərtib edildiyini bildiriblər. O isə bütün bunların yalan olduğunu, heç bir inzibati xətaya yol vermədiyini, sentyabrın 19-da idarənin 2 nəfər mülki geyimli əməkdaşı tərəfindən

oğurlanaraq BMCMİ-yə gətirildiyini bildirib, izahat yazmaqdan və protokola imza atmaqdan imtina edib. Sentyabrın 22-i axşam saat 7-yə işləmiş o, Nərimanov Rayon Məhkəməsinə aparılıb və həmin məhkəmənin 22 sentyabr 2017-ci il tarixli qərarı ilə 10 gün müddətinə inzibati həbslə cəzalandırılıb. Məhkəmənin qərarından sonra onu yenidən BMCMİ-yə qaytarıblar, orada isə onu hədələyiblər ki, əgər tutduğu yoldan çəkilməsə, haqqında cinayət işi başlayıb, uzunmüddətli həbsə göndərəcəklər. Sentyabrın 22-i axşam saat təxminən 9 radələrində onu Binəqədi rayonunda yerləşən İnzibati Həbs Olunanların Saxlanma Məntəqisinə aparıblar.

19-22 sentyabr 2017-ci ildə Ə.Nuruzadənin ailə üzvlərinə və vəkilinə onun harada saxlanılması ilə bağlı hər hansı bir məlumat verilməyib.

Ailə üzvləri və vəkili paytaxtın polis idarələrinə, Nərimanov Rayon Məhkəməsinə, Binəqədi rayonunda yerləşən İnzibati həbs olunanların saxlanılma yerinə, DİN-in 102 saylı "Qaynar Xətti"nə, Qırmızı Xaç Komitəsinin Bakı Nümayəndəliyinə, Ombudsman Aparatının Milli Preventiv Qrupuna onun oğurlanması ilə bağlı məlumat verib, o cümlədən BMCMİ ilə dəfələrlə əlaqə saxlayıb, ancaq adı çəkilən qurumdan Nuruzadənin orada saxlanmadığı, yaxud da barəsində hər hansı qərar qəbul edilmədiyi bildirilib.

Yalnız sentybarın 22-i axşam saatlarında Ə.Nuruzadənin ailəsinə bir nəfər zəng edərək, özünü ona dövlət hesabına təyin edilmiş vəkil kimi təqdim edib. Bildirib ki, sentyabrın 22-də Nərimanov Rayon Məhkəməsində Ə.Nuruzadə haqqında 10 gün müddətinə inzibati həbs qərarı çıxarılıb. Ə.Nuruzadə BMCMİ-də saxlanıldığı 19-22 sentyabr 2017-ci il tarixlərdə yenə T.Bağırzadə, Milli Şura və AXCP, MBH-nin maliyyə mənbələri ilə bağlı dəfələrlə dindirilib, lakin bu dindirmələr rəsmiləşdirilməyib, protokol tərtib edilməyib. Ə.Nuruzadə BMCMİ-də saxlanılarkən mənəvi və psixoloji təzyiqlərə məruz qalıb, bır sıra hallarda onunla qaba və sərt davranılıb, bir dəfə sinəsindən bir neçə dəfə yumruqla vurulub, ondan T.Bağırzadəni müdafiə etməmək, Milli Şura ilə əlaqələri kəsmək tələb edilib, eyni zamanda, ona qeyri-rəsmi əməkdaşlıq təklif edilib, MBH-ni ləğv etmək üçün birgə fəaliyyət tələb edilib.

2 oktyabr 2017-ci ildə inzibati həbsin müddəti başa çatdığından azadlığa buraxılıb. Həm birinci, həm də ikinci inzibati həbsdən verdiyi apellyasiya şikayətləri rədd edilib.

Hər iki inzibati həbsin rəsmi hissəsi eynidir: küçədə gedərkən BMCMİ-nin ünvanına mobil telefonla təhqiramiz fikirlər işlədib, yüksək səslə danışıb, onu intizama dəvət edən polis əməkdaşlarının qanuni tələbinə tabe olmayıb və s.

*Üçüncü oğurlanma və cinayət təqibi qaydasında həbs*

Ə.Nuruzadə 6 oktyabr 2017-ci il günorta saat 1-ə işləmiş yenə yaşadığı mənzildən çıxıb Nardaran hadisələri ilə bağlı həsb edilmiş digər şəxslərin Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən məhkəmə prosesinə gedərkən mülki geyimli şəxslər tərəfindən saxlanılıb. Həmin vaxt da o, evin yaxınlığında gözləyən qara "Jeep" markalı avtomobilə mindirilərək naməlum istiqamətdə aparılıb. Yenə də ailə üzvləri və vəkili Ə.Nuruzadənin harada saxlanılması ilə bağlı hüquq-mühafizə orqanlarına, o cümlədən BMCMİ-nə, DİN-in 102 saylı Qaynar Xəttinə, Ombudsman Aparatına, Qırmızı Xaç Komitəsinin Bakı Nümayəndəliyinə, İnzibati Həbs Olunanların Saxlanılma Məntəqəsinə müraciət etsə də, onu tapa bilməyiblər. Yalnız oktyabrın 10-

u axşam saatlarında Nuruzadənin vəkili Bakı İstintaq Təcridxanası ilə əlaqə saxladıqda, onun 1 gün əvvəl axşam saatlarında təcridxanaya gətirildiyi, barəsində Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə cinayət işi açıldığı, istintaqın BMCMİ tərəfindən aparıldığı bildirilib.

Ə.Nuruzadə haqda istintaq dövründə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Həbsdən verilmiş apellyasiya şikayəti təmin edilməyib.

*18 yanvar 2018-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsində (sədrlik edən Səbuhi Hüseynov) Ə.Nuruzadənin ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi başlayıb, 6 mart 2018-ci il Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə **7 il** azadlıqdan məhrum edilib. 08 avqust 2018-ci il tarixli qərarı ilə Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Mirpaşa Hüseynov) Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünü qüvvədə saxlayıb.Ali Məhkəmənin 30 yanvar 2019-cu il tarixli (sədrlik edən Tahir Kazımov) qərarı ilə kassasiya şikayəti təmin edilməyib, Bakı Apellyasiya Məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılıb.*

---

***Nardaran hadisələrinə görə yüngül ittihamlarla tutulanlar***

**80. Sahib Firudin oğlu HƏBİBOV**



**Saxlanma tarixi:** 05 noyabr 2015-ci il

**İttiham:** CM-in 221.2.2 *(xuliqanlıq, yəni ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, vətəndaşlar üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlər, ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxs müqavimət göstərməklə törədildikdə)* və 315.1-ci *(hakimiyyət nümayəndəsinə xidməti vəzifəsini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə)* maddələri

**Cəzasının müddəti:** 4 il 11 ay 7 gün

**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Həbibov Sabunçu Rayon Məhkəməsinin (hakim Süleyman Ağayev) 22 iyul 2016-cı il tarixli hökmü ilə ***4 il 11 ay 7 gün*** müddətinə azadlqıdan məhrum edilib. *Bakı Apellyasiya Məhkəməsinin (sədrlik edən İlqar Murquzov) 13 aprel 2017-ci il tarixli qərarı ilə hökm dəyişdirilmədən saxlanılıb.*

---

## 81. Əliəsgər Əmirxan oğlu CABBAROV



**Saxlanma tarixi:** 13 aprel 2017-ci il

**İttiham:** CM-in 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş surastı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)* və 228.4-cü *(qanunsuz olaraq qaz silahını, soyuq silah, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə)* maddələri

**Cəzasının müddəti:** 2 il 6 ay

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Əliəsgər Cabbarov Nardaran hadisələri zamanı həbs edilmiş Cabbar Cabbarovun qardaşıdır. O, məhkəmə proseslərinə qatılaraq prosesin fəal iştirakçılarından olub. C.Cabbarovun məhkəmədəki BMCMİ-nin əməkdaşlarının işgəncə hallarına yol verdiklərinə görə söylədiyiklərindən sonra qardaşını fəallara qarşı geniş şəkildə istifadə edilən qanunsuz silah saxlama ittihamı ilə Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları həbs ediblər.

---

### *(2) 2012-ci ildə Masallı rayonunda həbs edilən inanclı fəallar*

Jurnalist Araz Quliyevlə birgə həbs edilən bu şəxslərin hamısı Masallı rayonunun inanclı sakinləridir. Onların bəziləri A.Quliyevin dostları, bir nəfəri - Nicat Əliyev jurnalistin qohumu, qalanları isə tanışlarıdır. Bu şəxslərin bir neçəsi A.Quliyevə onun baş redaktoru olduğu saytda materialların yayılması üçün xəbərlərin toplanmasında kömək ediblər, bir neçəsi isə 2010-cu ilin sonunda məktəblərdə hicaba qadağa qoyulduqdan sonra keçirilmiş dinc aksiyalarda iştirak ediblər. Jurnalistin həbs edildiyi gün bu şəxslərdən yalnız Ziya Tahirov onunla birlikdə olub, qalan şəxslərdən yalnız Rza Ağalı (o da A.Quliyev kimi sentyabrın 6-da saxlanılıb) eyni gündə, digərləri isə sonradan başqa tarixlərdə həbs edilib. Bununla belə onların hamısını Masallı rayonunda folklor festivalı çərçivəsində keçirilən diskoteka zamanı insanlara daş atmaqda və A.Quliyevə qarşı irəli sürülən başqa ittihamlarda təqsirli biliniblər. Bu şəxslərin A.Quliyevə yardımçı olduqları iddiasıyla həbsinin ondan qisas almağa və ittihamı daha da ağırlaşdırmağa (cinayəti mütəşəkkil dəstənin törətdiyini iddia etmək üçün) xidmət etdiyi şübhə doğurmur.

Məhkəmə prosesi zamanı təqsirləndirilən şəxslərin xeyrinə verilmiş ifadələr deyil, şübhəli və suallar doğuran ifadələr daha mötəbər sübut kimi qiymətləndirilib.

### 82. Rza Qorxmaz oğlu AĞALI




**Saxlanma tarixi:** 9 sentyabr 2012-cü il

**İttiham:** CM-in 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)*, 315.2 *(hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə)* və 324-cü *(Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 7 il

**Saxlandığı yer:** Vərəmli məhkumlar üçün 3 saylı Müalicə Müəssisəsi

**İş üzrə qısa arayış:** *05 aprel 2013-cü ildə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə **7 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. 09 yanvar 2014-cü ildə Şirvan Apellyasiya Məhkəməsi bu qərarı dəyişdirmədən qüvvədə saxlayıb.*

---

### 83. Ziya İbrahim oğlu TAHİROV



**Saxlanma tarixi:** 9 sentyabr 2012-ci il

**İttiham:** CM-in 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)*, 315.2 *(hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə)* və 324-cü *(Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 7 il

**Saxlandığı yer:** 5 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** *05 aprel 2013-cü ildə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə **7 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. 09 yanvar 2014-cü ildə Şirvan Apellyasiya Məhkəməsi bu qərarı dəyişdirmədən qüvvədə saxlayıb.*

---

**84. Xalid Nofəl oğlu KAZIMOV**



**Saxlanma tarixi:** 14 sentyabr 2012-ci il

**İttiham:** CM-in 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə), 234.4.3 (satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)*, 315.2 (*hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə*) və 324-cü *(Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 8 il

**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** *05 aprel 2013-cü ildə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə **8 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. 09 yanvar 2014-cü ildə Şirvan Apellyasiya Məhkəməsi bu qərarı dəyişdirmədən qüvvədə saxlayıb.*

---

***(3) 2012-ci ilin mayında həbs edilən inanclı fəallar***

Bu iş üzrə həbs edilən şəxslərin bir neçəsi jurnalist Nicat Əliyevlə birgə "Avroviziya 2012" mahnı müsabiqəsi ərəfəsində gey-parad keçiriləcəyi ehtimalı olduğuna və bunun islam dini üçün qəbuledilməzliyinə inanan dindar gənclərdir. Bu şəxslər 2010-cu ilin sonunda Azərbaycanda orta məktəblərdə hicab qadağan olunduqdan sonra buna qarşı keçirilmiş dinc etiraz aksiyalarında iştirak ediblər. Bəziləri N.Əliyevin baş redaktoru olduğu saytda məqalələrlə çıxış edib, informasiyaların toplanmasında yardımçı olub.

Onlar N.Əliyevlə birgə "Avroviziya" ərəfəsində evlərin məhkəmə qərarı və zəruri kompensasiya olmadan sökülməsinə, inanclı şəxslərin şərlənərək həbs edilməsinə, hicabın qadağan olunmasına və gey-paradın keçirilməsinə etiraz olaraq öz mövqelərini açıq şəkildə yaymaq və təşviq etmək qərarına gəliblər. Onlar ruhanilər Abgül Süleymanov və Taleh Bağırzadənin (hər iki şəxs saxta ittihamlarla həbsdədir) çıxışlarından, Azərbaycan Tibb Universitetinin müəllimi Rəşid Mahmudovun ANS telekanalında LGBT məsələsi ilə bağlı mövqeyindən, o sıradan sosial tələblərlə keçirilən müxtəlif etiraz aksiyalarından, bəzi Azərbaycan filmlərindən görüntülərin yer aldığı disklər hazırlayaraq, məhkəmə qərarında qeyd edildiyi kimi, "aşkar surətdə" Bakı şəhərinin müxtəlif yerlərində yayıblar. Həbs edilən bütün şəxslər istintaqa və məhkəməyə ifadələrində bununla öz fikirlərini başqalarıyla bölüşmək məqsədi daşıdıqlarını bildiriblər.

"Eurovision 1" adı ilə və adsız yayılan disklərdəki kadrların və məlumatların dövlət quruluşuna, hakimiyyət orqanlarına qarşı dözümsüzlük və nifrət aşıladığı, çaxnaşma törətməyə yönəldiyi ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin eksperti 28 iyun 2012-ci ildə rəy verib. Məhkəmə isə müstəqil ekspertizanın keçirilməsi ilə bağlı vəsatəti təmin etməyib. Bundan əlavə, ekspert Nahid Qədir oğlu Məmmədov ekspertiza zamanı hansı metodologiyadan yararlandığını, hansı səbəblərə görə disklərdəki materialların neqativ xarakterli olması nəticəsinə gəldiyini məhkəmə prosesində izah edə bilməyib. Əksər suallara "yadımda deyil", "xatırlamıram" kimi cavablar verib. Ekspertin suallara cavab verməyə hazır olmadığı və hazırlaşması üçün ona əlavə vaxt verilməsiylə bağlı vəkillərin vəsatətini hakim təmin etməyib və ekspertin dindirilməsinin başa çatdığını bildirib.

Həbs edilmiş şəxslərə qarşı irəli sürülmüş başqa ittihamlar üzrə istintaqın təqdim etdiyi sübutlar yalnız polis əməkdaşlarının və hal şahidlərinin ifadələri olub ki, məhkəmə prosesi zamanı sualları cavablandırarkən ziddiyyətli məqamlar ortaya çıxıb. N.Əliyev və Elvin Nəsirov həbs edilərkən şiddətli işgəncələrə məruz qalıblar, nəticədə N.Əliyevin iki dişi sındırılıb və qulaq pərdəsi zədələnib. Hər iki şəxs məhkəmədə bu barədə məlumat versə də, hakim Bakı İstintaq Təcridxanasına məktub yazaraq hər iki şəxsin oraya köçürülməsi zamanı bədənlərində işgəncə əlamətinin olub-olmamasını öyrənməklə kifayətlənib. Təcridxanadan gələn məktubda isə heç bir işgəncə əlamətinin olmadığı bildirilib.

Azadlıqdan məhrum edilən şəxslərdən ikisi – Valeh Abdullayev və Əli Əliyev barəsində ilkin olaraq həbs qətimkan tədbiri deyil, başqa yerə getməmək haqqında iltizam tədbiri seçilsə də, məhkəmə hökmü ilə onlara şərti məhkumetmə tətbiq olunmayıb. Ancaq mövcud hüquq praktikasına görə hər iki şəxs barəsində şərti azadlıqdan məhrumetmə haqqında qərar veriləcəyi ehtimal edilirdi.

## 85. Elvin Nurəddin oğlu NƏSİROV



**Saxlanma tarixi:** 20 may 2012-ci il

**İttiham:** CM-in 167.2.2.1 *(qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma)*, 234.4.1 *(satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə)*, 234.4.3 *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)*,

281.2 *(bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma)* və 283.2.3-cü *(mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 9 il

**Saxlandığı yer:** 6 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** *Bakı Ağır Cinayətlər Məhkəməsinin 09 dekabr 2013-cü il tarixli qərarı ilə **9 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü ildə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb.*

---

**86. Ceyhun Zabil oğlu SƏFƏRLİ**

**Saxlanma tarixi:** 20 may 2012-ci il

**İttiham:** CM-in 167.2.2.1 *(qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəst ə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma)*, 234.4.1 *(satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə)*, 234.4.3 *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)*, 281.2 *(bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma)* və 283.2.3-cü *(mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 9 il

**Saxlandığı yer:** 6 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** *Bakı Ağır Cinayətlər Məhkəməsinin 09 dekabr 2013-cü il tarixli qərarı ilə **9 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü ildə həmin hökmü dəyişdirmədən qüvvədə saxlayıb.*

---

## 87. Elimxan Qurbanxan oğlu HÜSEYNOV



**Saxlanma tarixi:** 22 may 2012-ci il

**İttiham:** CM-in 167.2.2.1 *(qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma)* və 283.2.3-cü *(mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 7 il

**Saxlandığı yer:** 5 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** *Bakı Ağır Cinayətlər Məhkəməsinin 09 dekabr 2013-cü il tarixli qərarı ilə **7 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü ildə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb.*

---

## 88. Qorxmaz Hüseyn oğlu CAMALOV



**Saxlanma tarixi:** 18 yanvar 2013-cü il

**İttiham:** CM-in 167.2.2.1 *(qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma)*, 281.2 *(bir qrup şəxs tərəfindən hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma)* və 283.2.3-cü *(mütəşəkkil dəstə tərəfindən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 7 il

**Saxlandığı yer:** 10 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** *09 dekabr 2013-cü ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə* ***7 il*** *müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Bakı Apellyasiya Məhkəməsi 27 iyun 2014-cü ildə bu hökmü qüvvədə saxlayıb.*

---

### *(4) Azərbaycan İslam Partiyasının Sədri və onunla birlikdə tutulanlar*

1991-ci ildə Bakıda təsis edilən Azərbaycan İslam Partiyası 1992-ci ildə dövlət qeydiyyatına alınıb. 1995-ci ildə Ali Məhkəmə qurumun qeydiyyatını ləğv etsə də, partiya faktiki olaraq bu gün də qeydiyyatsız fəaliyyət göstərir. 2007-ci ildə keçirilən qurultayda Hacı Mövsüm Səmədov partiyanın sədri seçilib və qeydiyyat üçün Ədliyyə Nazirliyinə müraciət edilib, lakin Nazirlik qurumu qeydiyyata almayıb.

Partiya və M.Səmədov Azərbaycanda islam dininin tələblərinə riayət edilməli olduğunu, Azərbaycan hakimiyyətinin islama qarşı yönələn siyasət apardığını, ABŞ və İsraili işğalçı ölkə kimi tanıdığını bildirib. M.Səmədov 2009-cu ilin dekabrında İran radiosuna müsahibəsində Azərbaycanda bir neçə məscidin sökülməsi ilə bağlı qərara etirazını bildirib və dinlə bağlı bəzi qanunlara edilən dəyişiklikləri pisləyib. 2010-cu ilin aprelində M.Səmədov Prezident İlham Əliyevə müraciət göndərib və ona prezident seçildikdən sonra Konstitusiya ilə yanaşı "Qurani-Kərim"ə də and içdiyini, lakin bəzi əməllərinin həm Konstitusiyaya, həm də "Quran"a zidd olduğunu bildirib. M.Səmədov həmin il Beynəlxalq Qüds Günündə İsrail səfirliyinin qarşısında keçirilən dinc aksiyada iştirak edib və saxlanılıb, sonradan sərbəst buraxılıb. "Alma" qəzetində Məhəmməd Peyğəmbərlə bağlı yazılara etiraz olaraq 2010-cu ilin noyabrında partiya Qafqaz Müsəlmanları İdarəsi ilə birgə Mətbuat Şurasına müraciət edib. Daha bir müraciət telekanallardan açıq-saçıq verilişlərin yığışdırılmasının zəruriliyi ilə bağlı Milli Televiziya və Radio Şurasına edilib. Partiya və M.Səmədov 2010-cu ilin noyabrında keçirilmiş parlament seçkilərində iştirak etsə də, mandat qazana bilməyib. 2010-cu ilin dekabrında Təhsil Nazirliyinin məktəblərdə hicab qadağanı ilə bağlı qərarının əleyhinə keçirilən ilk dinc etiraz aksiyasında partiya fəalları iştirak ediblər.

2011-ci il yanvarın 2-də Partiyanın Baş Məclisində M.Səmədov çıxış edərək hicaba qadağa ilə bağlı təhsil naziri Misir Mərdanovu, ölkədəki ictimai və sosial vəziyyətə görə isə prezident İlham Əliyevi sərt tənqid edib.[79] Çıxışı zamanı M.Səmədov Dubayda prezident İlham Əliyevə və oğluna məxsus olan villalar barədə bir müddət əvvəl *"Washington Post"* və *"New York Times"* qəzetlərində dərc edilən məqalələrə istinadla Azərbaycan xalqının və dövlətinin sərvətlərinin oğurlandığını, bu qədər sərvətlərin olmasına baxmayaraq, Azərbaycan gənci üçün iş yerinin olmadığını, ölkədə ədalətsizlik və rüşvətin tüğyan etdiyini, keçmiş Prezident Heydər Əliyevin doğum günü keçirilən Gül Bayramına xərclənən pulların xalqdan oğurlandığını və Heydər Əliyevə sitayiş etməklə ölkədə bütpərəstliyin təbliğ edildiyini deyib. M.Səmədov çıxışında bildirib ki, Azərbaycan xalqı bu məsələdə ayıq olmalı və ayağa qalxmalı, hakimiyyəti dəyişməli və bu zülmün qarşısında durmalıdır. M.Səmədovun bu çıxışı sosial şəbəkələrdə, xüsusən Youtube portalında geniş yayılıb və müzakirələrə səbəb olub.

M.Səmədov bu çıxışından cəmi 5 gün sonra, yanvarın 7-də müavini Vaqif Abdullayev, partiya üzvü Elçin Həsənov və sürücüsü Mirhüseyn Kazımovla birgə həbs edilib. Adları çəkilən şəxslərin olduğu maşını Dövlət Yol Polisi əməkdaşları saxlayıb. Polis sürücüdən sürücülük vəsiqəsini aldıqdan sonra yol polisi avtomobilinin qarşısındakı qara rəngli maşından düşən bir neçə mülki geyimli şəxs M.Səmədovu və onunla birgə olanları polisə müqavimət göstərməkdə ittiham edərək saxlayıb. Nərimanov rayonu 19-cu Polis Bölməsinə gətirilən M.Səmədov və onunla birgə olan

[79] http://bit.ly/1mb5txL

şəxslər orada izahat verdikdən sonra Binəqədi Rayon Məhkəməsinə aparılıblar və məhkəmə polisə müqavimət ittihamı ilə onların barəsində 10-15 gün inzibati həbs qərarı verib (M.Səmədov 14 gün inzibati həbs cəzası alıb). M.Səmədovdan başqa saxlanılanlar Binəqədi Müvəqqəti Saxlama Təcridxanasına aparılıblar. M.Səmədovun harada saxlanması ilə bağlı bir neçə gün ərzində heç bir məlumat verilməyib (sonradan onun Milli Təhlükəsizlik Nazirliyində saxlandığı məlum olub).

M.Səmədov inzibati qaydada həbs edildiyi gün Daxili İşlər Nazirliyi bu quruma daxil olmuş məlumatlar əsasında Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin Qubada əməliyyat-axtarış tədbirləri keçirdiyi ilə bağlı açıqlama yayıb. Açıqlamada bildirilir ki, M.Səmədov Qubada yaşayan əmisi oğlu Dəyanət Səmədova iğtişaşlar törətmək, ictimai təhlükəsizliyi pozmaq, insanları cihada təhrik etmək barədə tapşırıqlar verib. D.Səmədovun işlədiyi elektrik malları dükanından 3 ədəd əl qumbarası və yaşadığı evdən 7 avtomat patronu tapılıb, faktla bağlı cinayət işi açılıb. Partiyanın daha bir fəalı Rufulla Axundzadə, o sıradan D.Səmədov və qaynı Firdovsi Məmmədrzayev, yanvarın 2-də keçirilmiş Baş Məclisdə iştirak etmiş ruhanilər Fəramiz Abbasov və Zülfüqar Mikayılzadə saxlanılıb, onların evindən silah-sursatın tapıldığı bildirilib. M.Səmədova və onunla birgə həbs edilmiş şəxslərə qarşı partiya sədrinin məhz yanvarın 2-də etdiyi çıxışı zamanı hakimiyyətin zorla ələ keçirilməsinə çağırışla bağlı ittiham və başqa ittihamlar irəli sürülüb. İnzibati həbs müddəti bitdikdən sonra M.Səmədovun barəsində, o sıradan həbs olunan başqa şəxslərin barəsində həbs qətimkan tədbiri seçilib.

*Bakı Ağır Cinayətlər Məhkəməsinin 07 oktyabr 2011-ci il tarixli qərarı ilə Mövsüm Səmədov **12 il**, Rufulla Axundzadə **11 il 6 ay**, Vaqif Abdullayev **11 il**, Fəramiz Abbasov **11 il**, Firdovsi Məmmədrzayev **10 il**, Dəyanət Səmədov **10 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Zülfüqar Mikayılzadə isə **5 il sınaq müddəti tətbiq olunmaqla 11 il** şərti azadlıqdan məhrumetmə cəzasına məhkum olunub. Bakı Apellyasiya Məhkəməsi 17 may 2012-ci ildə, Ali Məhkəmə isə 21 fevral 2013-cü ildə bu qərarı olduğu kimi qüvvədə saxlayıb.*

Məhkəmə proseslərinin müşahidəsi və yekun hökmün tədqiqi zamanı məlum olur ki, M.Səmədov onunla birgə həbs edilən şəxslərlə əvvəlcədən heç bir cinayət əlaqəsinə girməyib, yanvarın 2-də etdiyi çıxışı özü hazırlayıb və keçirilən tədbirdə iştirak edən partiyanın sədr müavini Vaqif Abdullayev, partiyanın Astara rayon şöbəsinin sədri Rufulla Axundzadə, tədbirə tanınmış ruhanilər olaraq qonaq kimi dəvət edilmiş Fəramiz Abbasov və Zülfüqar Mikayılzadə bu çıxışı orada eşidiblər. M.Səmədov çıxışı zamanı istintaqın iddia etdiyi kimi “cihad” sözünü, ümumiyyətlə, işlətmədiyini, xalqı, başqa müxalif siyasətçilər kimi, inandığı dəyərlər uğrunda mübarizəyə çağırdığını və hakimiyyəti sərt tənqid etdiyini bildirib.

Məhkəmənin istinad etdiyi bütün sübutlar hüquq mühafizə orqanlarından təqdim edilən sənədlərə və ya ifadələrə əsaslanıb. İstintaq zamanı təqsirləndirilən şəxslərin əleyhinə ifadə vermiş şahidlərin əksəriyyəti məhkəmədə bu ifadələrindən imtina edib, istintaqda basqı altında olduqları üçün bu cür ifadələr verdiklərini bildiriblər. Məhkəmə isə hökm çıxarılarkən bu şəxslərin ifadələrini dəyişməsini şahidlərə kənar şəxslərin təsir göstərmələrinin nəticəsi kimi qiymətləndirib.

Silahların tapıldığı iddia edilən D.Səmədovun çalışdığı mağazada axtarış barədə tərtib edilmiş protokolda hal şahidi kimi Rasim Muxtar oğlu Güloğlanov göstərilsə də, məhkəmədə bu şəxsin adının əslində Taleh Rasim oğlu Piroğlanov olduğu bilinib. Hal

şahidi Həzrət Əliyev isə axtarış protokolunu axtarış aparılan yerdə deyil, polis bölməsində imzaladığını bildirib, polis şöbəsinə, ümumiyyətlə, niyə getdiyini izah edə bilməyib. F.Məmmədrzayevlə D.Səmədovun Qubadakı məsciddə söhbətlərini eşitdiyi iddia edən şahid İlham Şərafəddinov isə məhkəmə zalında F.Məmmədrzayevi tanımayıb, bu söhbətləri eşitdiyini iddia edən başqa bir şahid Natiq Məmmədov istintaqa ifadə verərkən hərbi biletini təqdim edib, şəxsiyyət vəsiqəsinin isə olmadığını bildirib. Bu, şahidin şəxsiyyəti ilə bağlı sual yaratsa da, məhkəmə buna əhəmiyyət verməyib. Özünü dindar kimi qələmə verən və mütəmadi şəkildə Qubada məscidə getdiyini deyən şahid dinlə bağlı adi suallara, məsələn, namazın neçə rükətdən ibarət olduğunu, Ramazan ayının nə olduğunu bilməyib.

M.Səmədovun və həbs edilən başqa şəxslərin Azərbaycan dövləti, milli maraqları, mənafeyi əleyhinə fəaliyyətini göstərən və İran xüsusi xidmət orqanları və ya başqa qurumlarla cinayətkar əlaqədə olmasını təsdiqləyən hər hansı sübut cinayət işinin materiallarında yoxdur.

Həbs edilən zaman səhhətində ciddi problemləri olan V.Abdullayev saxlanma şəraiti daha ağır olan 12 saylı Cəzaçəkmə Müəssisəsinə köçürülüb. Özünün və vəkillərinin onun burada qala bilməməsi və səhhətinin daha da ağırlaşması ilə bağlı dəfələrlə müraciət etməsinə baxmayaraq, V.Abdullayev azadlığa buraxılmayıb. Nəticədə, o, 2012-ci ilin iyulunda Penitensiar Xidmətin Müalicə Müəssisəsində ölüb.

Səhhətində ciddi problemləri olan Rufulla Axundzadə 2013-cü ilin mayında kəskin miokard infarktı keçirib, onun azadlığa buraxılmasının zəruriliyi ilə bağlı dəfələrlə müraciət edilsə də buna əhəmiyyət verilməyib. R.Axundzadə səhhətindəki problemlərə görə dəfələrlə Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülüb.

Avropa İnsan Hüquqları Məhkəməsi bu iş üzrə verilmiş şikayəti icraata götürüb.

2014-cü ilin oktyabrında M.Səmədov saxlandığı 11 saylı CM-dən 12 saylı CM-ə köçürülüb, orada karserə salınıb. Qaradağ Rayon Məhkəməsi M.Səmədovun 2 il müddətinə Qobustan Qapalı Həbsxanasına göndərilərək cəzasını orada çəkməsi barədə 09 oktyabr 2014-cü ildə qərar çıxarıb. O, 28 noyabr 2016-cı ildə yenidən 12 saylı cəzaçəkmə müəssisəsinə qaytarılıb. Amma orada M.Səmədova bir neçə dəfə kars cəzası veriləndən sonra həbsxana rəisi Rauf Məmmədov onun Qobustan Qapalı Həbsxanasına köçürülməsi ilə bağlı Qaradağ Rayon Məhkəməsinə təqdimat yazıb. Qaradağ Rayon Məhkəməsinin 14 iyun 2017-ci il tarixli qərarı ilə M.Səmədov cəzasının 3 ilini çəkmək üçün yenidən Qobustan Qapalı Həbsxanasına göndərilib. Bakı Apellyasiya Məhkəməsi 17 iyul 2017-ci il, Ali Məhkəmə 06 dekabr 2017-ci il tarixlərdə bu qərarı qüvvədə saxlayıb.

---

## 89. Dəyanət Ələsgər oğlu SƏMƏDOV

**Saxlanma tarixi:** 08 yanvar 2011-ci il

**İttiham:** CM-in 28, 214.2.1 *(qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq)*, 28, 214.2.3 *(odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq)* və 228.3-cü *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla),*

*partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)* maddələri

**Cəzasının müddəti:** 10 il

**Saxlandığı yer:** 12 saylı Cəzaçəkmə Müəssisəsi

---

**90. Firdovsi Teymur oğlu MƏMMƏDRZAYEV**



**Saxlanma tarixi:** 12 yanvar 2011-ci il

**İttiham:** CM-in 28, 214.2.1-ci *(qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq)*, 28, 214.2.3-cü *(odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq)* və 228.3-cü *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)* maddələri

**Cəzasının müddəti:** 10 il

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**91. Mövsüm Mərdan oğlu SƏMƏDOV**



**Saxlanma tarixi:** 20 yanvar 2011-ci il

**İttiham:** Cinayət Məcəlləsinin 28, 214.2.1 *(qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq)*, 28, 214.2.3 *(odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq)*, 228.3 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 12 il

**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

---

**92. Ruhulla Höcətullah oğlu AXUNDZADƏ**



**Saxlanma tarixi:** 21 yanvar 2011-ci il

**İttiham:** CM-in 28, 214.2.1 *(qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq)*, 28, 214.2.3 *(odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq)*, 228.3 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)*, 278 *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* və 283.1-ci *(milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 11 il 6 ay

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

**93. Fəramiz Zeynal oğlu ABBASOV**



**Saxlanma tarixi:** 24 yanvar 2011-ci il

**İttiham:** CM-in 28, 214.2.1 *(qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən cinayətə hazırlıq)*, 28, 214.2.3 *(odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə cinayətə hazırlıq)*, 228.3 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə*

*dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 11 il

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

***(5) Digər inanclı fəallar***

**94. Abgül Neymət oğlu SÜLEYMANOV**



**Saxlanma tarixi:** 12 avqust 2011-ci il

**İttiham:** CM-in 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə), 233 (ictimai qaydanı kobud surətdə pozan və ya hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan, yaxud nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan hərəkətlərin bir qrup şəxs tərəfindən törədilməsini təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə), 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 234.4.3 (satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə) və 283.2.1-ci (zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 11 il

**Saxlandığı yer:** 2 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** A.Süleymanov Azərbaycanda inanclı fəal və nüfuzlu ruhani kimi tanınır. 2001-ci ildən səyyar şəkildə "Qurani-kərim" və İslam dini üzrə dərslər deyən ruhani 2005-ci ildə "Milli-mənəvi dəyərlər" İctimai Birliyinin yaranmasında yaxından iştirak edib. Elə həmin il Danimarkada Məhəmməd Peyğəmbərin karikaturasının çəkilməsinə etiraz olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin qarşısında keçirilən aksiyanın fəallarından olub. 2006-2010-cu illər ərzində Beynəlxalq Qüds günü ilə bağlı İsrail Səfirliyi qarşısında keçirilmiş dinc aksiyalarda iştirak edib, 2009-cu ildə Fatimeyi Zəhra məscidinin sökülməsi ilə bağlı İqtisad Məhkəməsinin çıxardığı qərardan sonra Bakı Şəhər İcra Hakimiyyətinin qarşısındakı dinc aksiya

A.Süleymanovun təşəbbüsü ilə keçirilib. 2009-2010-cu illərdə başqa məscidlərin də sökülməsi ilə bağlı sərt tənqidi çıxışlar edib. 2010-cu ilin sonlarında Təhsil Nazirliyinin qərarı ilə orta məktəblərdə hicaba qoyulmuş qadağaya etiraz olaraq keçirilmiş hər iki aksiyada iştirak edib, bu qərarın qanunsuz olması ilə bağlı mətbuata açıqlamalar verib. 2011-ci ilin mayında keçirilmiş "Hicaba azadlıq" aksiyasından sonra təqiblərlə üzləşən A.Süleymanov həmin ilin avqustunda həbs olunub.

Avqustun 12-də Milli Təhlükəsizlik Nazirliyi və Baş Prokurorluq birgə məlumat yayaraq A.Süleymanovun onunla birgə həbs edilən jurnalist Ramin Cahangir oğlu Bayramov və Azərbaycan İslam Partiyasının üzvü Arif Gülsuvar oğlu Qəniyevlə birlikdə Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda, xarici dövlətə və onun nümayəndələrinə kömək etməkdə, eləcə də, ölkədə iğtişaşların törədilməsində, ictimai təhlükəsizliyin pozulmasında, insanların itaətsizliyə təhrik edilməsində şübhəli bilindiklərini bildiriblər. Bu məlumatda eyni zamanda bildirilib ki, A.Süleymanov İran İslam Respublikasının Bakıda fəaliyyət göstərən Mədəniyyət Mərkəzinin maliyyə dəstəyi əsasında rəsmi dövlət qeydiyyatı olmayan "Cəfəri" adlı radikal dini qrup yaradaraq ona rəhbərlik edib. Qrupun üzvləri dini radikallığı təşviq edən təbliğatlar aparıb, həmçinin belə ifrat çağırışları, eləcə də dini təfriqəni, məzhəb ayrı-seçkiliyini aşılayan vərəqələrin hazırlanmasını və dindarlar arasında paylanmasını təşkil ediblər. "Cəfəri" adlı radikal dini qrupun apardığı təbliğat işinin genişləndirilməsi məqsədilə www.İslam-Azeri.az internet saytı yaradılıb və ona rəhbərlik Ramin Bayramova tapşırılıb.

Hər üç şəxs barəsində həbs qətimkan tədbiri seçilib və hər üç şəxslə bağlı birgə istintaq aparılsa da, onların məhkəmələri avqustun 12-də yayılmış məlumata əksi olaraq ayrı-ayrılıqda keçirilib, rayon məhkəmələrinin qərarları ilə Ramin Bayramov və Arif Qəniyev 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilib (Amnesty International Təşkilatı Ramin Bayramovu vicdan məhbusu kimi tanıyıb; o və Arif Qəniyev indi azadlıqdadırlar), A.Süleymanovun işinə isə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılıb. Məhkəmə prosesi 2012-ci ilin avqustunda başlayıb, A.Süleymanovun barəsində həbs qətimkan tədbiri ilə bağlı sonuncu qərarı Səbail Rayon Məhkəməsi 06 aprel 2012-ci ildə çıxarıb və bu qərarla A.Süleymanovun həbs müddəti 11 may 2012-ci ilə qədər artırılıb. Bu faktdan aşkar şəkildə görünür ki, A.Süleymanov 3 ay müddətində (2012-ci ilin mayından məhkəmənin başladığı 2012-ci ilin avqust ayına qədər) qanunsuz şəkildə, yəni məhkəmə qərarı olmadan həbsdə saxlanılıb.

*A.Süleymanov Bakı Ağır Cinayətlər Məhkəməsinin 10 avqust 2012-ci il tarixli hökmü ilə **11 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən hakim Mirpaşa Hüseynov) 23 yanvar 2013-cü il qərarı ilə, Ali Məhkəmə isə 20 noyabr 2014-cü il tarixli qərarı ilə bu hökmü qüvvədə saxlayıb.*

Məhkəmə istintaqı zamanı A.Süleymanovun üzərindən və evindən tapıldığı iddia edilən narkotik maddənin ona məxsusluğu, üzərindən tapılan narkotik maddənin satış məqsədi olmadan, lakin evindən tapılan narkotik maddənin satış məqsədilə saxlanması ilə bağlı gəlinən nəticənin səbəbləri aşkar olunmayıb. Bundan əlavə, ekspert rəsmi şəkildə A.Süleymanovun narkotik maddə istifadəçisi olmadığı və bundan əziyyət çəkmədiyi ilə bağlı rəy verib. Məhkəmə yalnız Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarına, həmçinin ziddiyyətli ifadələr verən və məsələnin

mahiyyətindən xəbərsiz olan hal şahidlərinə inanıb, əlavə araşdırmalarda maraqlı olmayıb. A.Süleymanova qarşı irəli sürülmüş ittihamlardan biri həbsindən 8 ay əvvəl, yəni 10 dekabr 2010-cu ildə Təhsil Nazirliyinin qarşısında dinc şəkildə keçirilmiş orta məktəblərdə hicab qadağasına qarşı aksiya ilə bağlıdır. Həmin aksiya nəticəsində polis onlarla inanclı şəxsi həbs etsə də, onların çoxu sonradan sərbəst buraxılıb, bir neçə nəfər isə inzibati qaydada həbs edilib, heç kim cinayət məsuliyyətinə cəlb edilməyib. Bu aksiyaya görə A.Süleymanovun ittiham edilməsi onun həm məhz fəallığına görə təqib olunduğunu, həm də ona qarşı ittihamın saxtalığını sübut edir. A.Süleymanova qarşı irəli sürülmüş zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə milli, sosial, dini nifrət və düşmənçilik salma ittihamı onun həbsindən 9 ay qabaq, yəni 2010-cu ilin noyabrında keçirilmiş dini məclisdəki çıxışı ilə bağlıdır. A.Süleymanov həmin çıxışında məscidlərin sökülməsini və orta məktəblərdə hicab qadağasını sərt tənqid edib, buna qarşı etiraz aksiyalarının keçirilməsinin zəruriliyini vurğulayıb. Bu çıxışı məclisdə iştirak edən şəxslər videoya çəkib və sonradan sosial şəbəkələrdə yayılıb. İstintaq aksiya etməyə çağırışı zor tətbiqinə çağırış kimi qiymətləndirib, dövlət qurumundan verilən ekspert rəyini mötəbər sübut kimi qəbul edib.

MTN və Baş Prokurorluğun 12 avqust 2011-ci il tarixli birgə məlumatında qeyd edilən məsələlər, xüsusən cinayətkar qrupun yaradılması, bu qrupun İrandan təlimatlar alması, R.Bayramovun baş redaktoru olduğu saytın fəaliyyəti və s. kimi məsələlərə nə istintaq zamanı, nə də məhkəmədə toxunulub. Bu fakt da A.Süleymanovun siyasi sifarişlə həbs edildiyini göstərir (bu məlumat hazırda da MTN-nin rəsmi veb-səhifəsində qalıb[80]).

A.Süleymanov ilkin olaraq, 13 saylı Cəzaçəkmə Müəssisəsinə köçürülsə də, o, dərhal karserə salınıb və Cəzaçəkmə Müəssisəsinin rəhbərliyi A.Süleymanovun burada daxili nizam-intizam qaydalarını pozması ilə bağlı təqdimatlar hazırlayıb. Məhz bu təqdimatlar əsasında Qaradağ Rayon Məhkəməsinin hakimi Fuad Həsənov 24 aprel 2013-cü ildə (A.Süleymanov cəzaçəkmə müəssisəsinə köçürüləndən 1 ay sonra) ruhaninin 6 ay müddətinə ağır saxlanma şəraiti olan Qobustan Qapalı Həbsxanasına köçürülməsi barədə qərar qəbul edib. Bakı Apellyasiya Məhkəməsi qərarı qüvvədə saxlasa da, Ali Məhkəmə Apellyasiya Məhkəməsinin qərarını ləğv edib və şikayətə yenidən baxılması üçün Apellyasiya Məhkəməsinə göndərib. Bakı Apellyasiya Məhkəməsi 10 yanvar 2014-cü il tarixli qərarı ilə şikayəti yenidən təmin etməyib. Amma Qaradağ Rayon Məhkəməsinin A.Süleymanovun Qobustan Qapalı Həbsxanasında çəza çəkmək üçün göstərdiyi müddət bitdiyindən o, Qobustan Qapalı Həbsxanasına deyil, yenidən 13 saylı Cəzaçəkmə Müəssisəsinə göndərilib. 13 saylı Cəzaçəkmə Müəssisəsinin rəhbərliyi onun qapalı rejimli cəzaçəkmə müəssisəsinə köçürülməsi üçün yenidən Qaradağ Rayon Məhkəməsinə təqdimat yazıb. Qaradağ Rayon Məhkəməsinin 5 dekabr 2014-cü il tarixli qərarı ilə A. Süleymanov ciddi rejimli 8 saylı Cəzaçəkmə Müəssisəsinə köçürülüb. 2018-ci ilin iyulunda o, barəsində seçilmiş ciddi rejimli cəzanın vaxtı bitdiyindən gücləndirilmiş ümumi rejimli 2 saylı Cəza Çəkmə Müəssisəsinə köçürülüb.

---

[80] http://bit.ly/1hiq3vA

## 95. Elnur Şakir oğlu CAVADOV



**Saxlanma tarixi:** 18 mart 2016-cı il

**İttiham:**

***Birinci cinayət işi üzrə:*** CM-in 228.1-ci *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)* maddəsi

***İkinci cinayət işi üzrə:*** CM-in 317-2.1-ci *(cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi)*

**Cəzasının müddəti:**

***Birinci cinayət işi üzrə:*** *2 il 6 ay*

***İkinci cinayət işi üzrə:*** *5 ay 25 gün*

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** E.Cavadov inanclı şəxsdir, 10 iyun 2015-ci ildə ailəsi ilə birgə Azərbaycanı tərk edərək bir müddət İstanbul şəhərində yaşadıqdan sonra 2016-cı ilin mart ayında isə yaşadığı Gəncə şəhərinə geri dönüb. Gəncəyə qayıtdıqdan 4 gün sonra – 14 mart 2016-cı il tarixində E.Cavadov polisə müqavimət ittihamı ilə 30 sutka inzibati həbs cəzası alıb. Bu müddətin bitməsinə 3 gün qalmış Gəncə Nizami Rayon Məhkəməsinin qərarına əsasən yerli polis əməkdaşlarının və Dini Məsələlər üzrə Dövlət Komitəsinin regional nümayəndəsinin iştirakı ilə onun evində axtarış aparılıb və evdən bir ədəd avtomat silah tapıldığı üçün faktiki olaraq 1 aya yaxın evdə olmayan şəxs barəsində cinayət işi açılıb və onun barəsində həbs qətimkan tədbiri seçilib.

*E.Cavadov Gəncə Nizami Rayon Məhkəməsinin (hakim Əli Tağıyev) 29 iyul 2016-cı il tarixli hökmü ilə* ***2 il 6 ay*** *müddətinə azadlıqdan məhrum edilib.*

E.Cavadovun təqsiri məhkəmə prosesləri zamanı sübuta yetirilməyib. Belə ki, axtarış zamanı hansı səbəbdən Dini Məsələlər üzrə Dövlət Komitəsinin nümayəndəsinin hansı səbəbdən və hansı prosessual statusla axtarışda iştirak etməsi ilə bağlı sual açıq qalıb və araşdırılmayıb. Bu iş üçün mühüm əhəmiyyəti olan prosessual hərəkət – silahın üzərində E.Cavadovun əl izlərinin olub-olmamasını müəyyənləşdirə biləcək ekspertiza keçirilməyib. Axtarış zamanı evdə olmuş E.Cavadovun həyat yoldaşı və atasının silahın qara geyimli şəxs tərəfindən evə qoyulması ilə bağlı ifadələri, ümumiyyətlə, məhkəmə hökmündə qeyd edilməyib və nəticədə, bu ifadələrə qiymət verilməyib.

E.Cavadov və ailə üzvləri onun həbsinin əsl səbəbinin Facebook sosial şəbəkəsində dindarlara qarşı təzyiqlərə erirazları, hakimiyyət nümayəndələrini tənqid edən karikatura yayması olduğunu bildiriblər.

**İkinci cinayət işi:** 2018-ci ilin oktyabrın əvvəllərində cəzasının müddətinin bitməsinə bir neçə gün qalmış E.Cavadova qarşı yeni cinayət işi açılıb. Cəzaçəkmə müəssisəsi rəhbərliyi onun yatağının altından biz tapıldığını iddia edib. E.Cavadovun cəzasının müddəti 27 oktyabr 2018-ci ildə bitəcəkdi.

E.Cavadovla təxminən eyni vaxtda siyasi məhbus Məmməd İbrahimin həbs müddətinin bitməsinə 2 gün, Telman Şirəliyevin həbs müddətinin bitməsinə bir həftə qalmış onlara qarşı cinayət işi açılıb. M.İbrahimin yatağının altından bıçaq, T.Şirəliyevin yatağının altından isə biz tapıldığı iddia edilib.

*Suraxanı Rayon Məhkəməsinin 20 dekabr 2018-ci il tarixli qərarı ilə E.Cavadov **5 ay 25 gün** müddətinə azadlıqdan məhrum edilib. Məhkəmədə onun hüquqlarını dövlət tərəfindən təyin edilən vəkil müdafiə edib.*

---

### 96. Sərdar Akif oğlu BABAYEV



**Saxlanma tarixi:** 22 fevral 2017-cı il

**İttiham:** CM-in 168-1.3.1-ci *(islam dininə aid ayin və mərasimlərin xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşı tərəfindən aparılması, təkrar törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 3 il

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** S.Babayev (Hacı Sərdar) Azərbaycanın və qonşu ölkələrin dini cameəsində tanınmış və hörmət edilən dindarlardan biridir. Masallı rayonunda yaşayan S.Babayev 2010-cu ildən məktəblərdə hicaba qoyulan qadağaya etiraz edən şəxslərdən biri olub, o cümlədən bu qadağaya etirazlarda iştirak edib, hakimiyyəti sərt tənqid edən dindarların həbsi zamanı bu addımlarına görə hakimiyyəti tənqid edib.

Bununla belə əsas işi ruhani olaraq yaşadığı regionda dini ayinləri aparmaqdan ibarət olub. Onun həbsi üçün də məhz bu amildən istifadə edilib. Belə ki, S.Babayevin təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə Masallı rayon Polis Şöbəsinin müstəniqi Sahil Alıyevin 22 fevral 2012-ci il tarixli qərarında da bu fakt qeyd edilir: 04.11.2016-cı ildə Masallı şəhər Cümə məscidinin həyətində heç bir rəsmi razılıq olmadan xütbə oxumuş və cümə namazına rəhbərlik edib. Qərarda Babayevin İranda 1991-ci ildə dini təhsil alması da qeyd edilib.

Lakin müstəntiq Babayevin Azərbaycanda da dini təhsil aldığını, ona qarşı irəli sürülmüş maddənin cinayət qanunvericiliyinə 2016-cı ilin mayında əlavə edildiyini və

buna görə bu maddənin 2016-cı ilin mayından əvvəl xaricdə dini təhsil almış şəxslərə şamil edilib-edilməməsini araşdırmayıb. S.Babayevin ittiham edildiyi maddə az ağır cinayətlər kateqoriyasına aid edilsə də, onun dərhal həbs edilməsi üçün məhkəməyə təqdimat verilib və Masallı Rayon Məhkəməsi həmin gün araşdırma aparmadan Babayevi həbs edib. Şirvan Apellyasiya Məhkəməsi də sonradan bu qərarı qüvvədə saxlayıb.

*S.Babayev Masallı Rayon Məhkəməsinin (hakim Anar Alməmmədov) 03 iyul 2017-ci il tarixli hökmü ilə **3 il** müddətinə azadlıqdan məhrum edilib. Şirvan Apellyasiya Məhkəməsi (sədrlik edən Rafiq Cəfərov) 25 sentyabr 2017-ci ildə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb.*

---

## F. ÖMÜRLÜKLƏR

***Keçmiş Xüsusi Təyinatlı Polis Dəstəsinin (XTPD) üzvləri***

Xüsusi Təyinatlı Polis Dəstəsi (XTPD) 1988-ci ildən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində başlanan separatçı hadisələr və nəticədə 90-cı illərin əvvəllərində Sovet İttifaqının dağılması nəticəsində müstəqillik qazanmış Azərbaycan və Ermənistan arasında başlayan müharibəyə görə bu dəstənin komandiri Rövşən Cavadovun rəhbərliyi altında hərbi əməliyyatlarda iştirak edib. Münaqişə zamanı ilkin döyüşlərdən sonra R.Cavadova polkovnik rütbəsi verilib və onun rəhbərlik etdiyi hərbi birləşmə XTPD adını alıb. 1991-ci ildə müharibədə göstərdikləri qəhrəmanlığa görə bir sıra XTPD-çiyə Milli Qəhrəman adı verilib. 1993-cü ildə hakimiyyətə gəlməsində misilsiz rol oynadığına görə keçmiş prezident Heydər Əliyev (hazırkı Prezident İlham Əliyevin atası) R.Cavadovu daxili işlər nazirinin müavini təyin edib, XTPD isə nazirliyin tərkibində saxlanılıb. Siyahıda adı olan E.Əmiraslanov XTPD-nin Qazax bölməsinin komandiri təyin olunub. Bununla belə, bir müddətdən sonra Rövşən Cavadovla Heydər Əliyev arasında ciddi fikir ayrılığı yaranıb və getdikcə dərinləşməyə başlayıb. 1995-ci ilin yanvarında E.Əmiraslanov və Qazax XTPD-çiləri rayonun Şıxlı kəndindən Ermənistan ərazisinə neft keçirilməsinin qarşısını alıb, 22 neft çənini Qazax rayon Polis Şöbəsinə təhvil verib və bununla bağlı E.Əmiraslanov dövlət televiziyasında çıxış edərək neft keçirmək istəyən şəxslərin tutulmamasına görə tənqidi fikirlər səsləndirib. Məhz bundan sonra XTPD-çilərlə Heydər Əliyev arasında ziddiyyətlər açıq mübarizə müstəvisinə keçib. 1995-ci il martın 13-də XTPD-nin Qazax bölməsinə hücum olub və qanlı döyüş baş verib. Martın 14-də daxili işlər naziri Ramil Usubov (hazırda da bu vəzifəni daşıyır) XTPD-nin buraxılması və 3 gün ərzində silahların təhvil verilməsi barədə əmr imzalayıb. Bununla belə martın 16-dan 17-ə keçən gecə XTPD-nin Bakıdakı qərargahı ətrafında XTPD-çilərlə daxili qoşunlar arasında silahlı toqquşma baş verib, nəticədə XTPD-nin rəisi Rövşən Cavadov aldığı güllə yaraları nəticəsində Daxili İşlər Nazirliyinin hospitalında ölüb.

Bundan sonra ölkə boyu XTPD üzvlərinin həbsi başlayıb. Həbs edilən və sonradan azadlıqdan məhrum edilən çoxsaylı XTPD-çilərə qarşı qiyam ittihamı ilə yanaşı müxtəlif illərdə törədilmiş səs-küylü qətllərin törədilməsi ittihamları da irəli sürülüb. Azadlıqdan məhrum edilən XTPD-çilər ya həbsxanalarda ölüb, ya da sonrakı illərdə siyasi və ya ehtimal edilən siyasi məhbuslar qismində bir qayda olaraq əfv vasitəsilə

azadlığa buraxılıb. Sonuncu dəfə əfv fərmanı ilə XTPD üzvü olmuş Şəmsi Abdullayev 2012-ci ilin dekabrında azadlığa buraxılıb. Bununla belə, bir neçə XTPD-çi hələ də həbsdə saxlanılır.

Məhbusların üzərinə qoyulmuş ittihama əsasən, E.Əmiraslanovun tapşırığı ilə Səfa Poladov və Arif Kazımov Qazax rayonunda yerləşən "Akasiya" restoranında Qazax rayon Polis Şöbəsinin rəisini və Qazax-Ağstafa rayonları üzrə MTN idarəsinin rəisini öldürüblər. Hər 3 məhbus vətənə xəyanət maddəsi ilə təqsirli bilinərək ölüm cəzasına məhkum edilsələr də, bu ittihamın mahiyyətini nə istintaq, nə də məhkəmə sübut edib. Daha sonra E.Əmiraslanov Xüsusi İdarənin rəisi Şəmsi Rəhimovun və Milli Məclisin sədr müavini Afiyəddin Cəlilovun qətlində iştirakçılıqda da ittiham edilib.

Məhkəmə iclaslarında Qazax rayonunda baş vermiş hadisə ilə bağlı ittiham sübuta yetirilməyib, ölən şəxslərin yaxınları həbs edilənlərə qarşı heç bir şikayət və tələblərinin olmadığını, bu adamların onların yaxın qohumlarını öldürmədiklərini, onların Ermənistana neft keçirilməsi ilə bağlı istintaqla əlaqədar öldürüldüyünü bildiriblər.

Bununla belə, E.Əmiraslanov, A.Kazımov və S.Poladov Azərbaycan Respublikası Ali Məhkəməsinin 28 noyabr 1997-ci il tarixli qərarı ilə Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsinə əsasən ***ölüm cəzasına*** məhkum ediliblər. Ərizəçilər məhkum edilən vaxt onların hökmündən apellyasiya şikayətinin verilməsi qanunla nəzərdə tutulmurdu. Bundan əlavə, E.Əmiraslanov Ali Məhkəmənin 22 sentyabr 2000-ci il tarixli qərarı ilə ***15 il*** müddətinə azadlıqdan məhrum edilib və həmin qərara əsasən, onun əvvəlki ömürlük azadlıqdan məhrumetmə cəzası (ölüm cəzası bu cəza ilə əvəz edilmişdi) saxlanılıb.

Fransada yaşayan və siyasi sığınacaq alan MTN-nin keçmiş əməkdaşı Ramin Nağıyev 2010-2011-ci illərdə mətbuata verdiyi açıqlamalarında və yazılarında, XTPD-çilərin ittiham edildiyi qətlləri onların deyil, 2005-ci ildə həbs edilmiş DİN-nin Baş Cinayət Axtarış İdarəsinin sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədov və onun dəstəsinin törətdiyini bildirib. R.Nağıyev Şəmsi Rəhimov və Afiyəddin Cəlilovun qətli ilə bağlı istintaq qrupunun üzvlərindən biri olub və 1995-ci ildə heç bir səbəb göstərilmədən istintaqdan kənarlaşdırılıb[81]. R.Nağıyevin bəyanatları rəsmi şəkildə təkzib edilməyib.

***Ömürlük azadlıqdan məhrumetmə cəzasının tətbiqi mübahisəlidir***

10 fevral 1998-ci ildə Azərbaycanda ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında Milli Məclis Qanun qəbul edib. Qanunun 4-cü bəndində göstərilir ki, bu Qanun qüvvəyə mindiyi günədək ölüm cəzasına məhkum olunmuş şəxslərin cəzası ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilsin. Faktiki olaraq ölüm cəzası həmin dövr üçün heç bir qanunvericilik aktında mövcud olmayan cəza növü ilə əvəz edilib.

1995-ci ilin noyabr ayının 12-də qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsinə əsasən Konstitusiyasının ölkə ərazisində ən yüksək hüquqi qüvvəsi var. Konstitusiya birbaşa hüquqi qüvvəyə malikdir və

[81] http://bit.ly/1f0C3kt

Azərbaycanın qanunvericilik sisteminin əsasıdır. Konstitusiyanın 149-cu maddəsinin 7-ci hissəsinə əsasən fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir. XTPD-çilərin məhkum olunduqları Cinayət Məcəlləsinin 23-cü maddəsinə əsasən ölüm cəzası bağışlama qaydasında azadlıqdan məhrumetmə ilə əvəz edildikdə, azadlıqdan məhrumetmə 15 ildən çox müddətə, lakin 20 ildən çox olmayaraq təyin edilə bilərdi.

Göründüyü kimi, ölüm cəzasının ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənməsi XTPD-çilərin məhkum olunduğu Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiqlənmiş Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş alternativ cəzalara nisbətdə onların hüquqi vəziyyətlərini ağırlaşdırır. Belə ki, Azərbaycan SSR-in 08 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsində ölüm cəzası hər hansı bir formada ləğv edildikdə (bağışlandıqda, əfv edildikdə) həmin cəza 15 ildən çox, lakin 20 ildən çox olmayan azadlıqdan məhrumetmə cəzası ilə əvəz oluna bilərdi. Deməli, Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsində ölüm cəzasının alternativi cəza 15 ildən çox, lakin 20 ildən çox olmayan azadlıqdan məhrumetmə cəzası olub. Yəni 1998-ci ildə ölüm cəzası maksimum 20 il müddətinə azadlıqdan məhrumetmə cəzası ilə dəyişdirilməli idi.

Konstitusiyanın 149-cu maddəsinin 7-ci hissəsinə əsasən, Milli Məclis 10 fevral 1998-ci il tarixli qanunla ölüm cəzasına məhkum olunan şəxslərin cəzasını ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edə bilməzdi. Çünki 10 fevral 1998-ci il tarixli qanun XTPD-çilərin məhkum olunduqları Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli Qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsində nəzərdə tutulanlara əsasən məhbusların hüquqi vəziyyətlərini ağırlaşdırıb.

Bundan başqa, XTPD-çilərin ölüm cəzasını ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edən 10 fevral 1998-ci il tarixli qanun yeni Cinayət Məcəlləsinin qüvvəyə minməsi ilə 01 sentyabr 2000-ci ildən qüvvədən düşüb. Hazırda XTPD-çilərin ölüm cəzasının ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz olunması barədə qanun qüvvədən düşdüyündən onların ömürlük azadlıqdan məhrumetmə cəzası çəkməyə məcbur edilməsi qanunsuzdur. Çünki 10 fevral 1998-ci il tarixli Qanunun özü artıq qüvvədən düşüb.

### *Avropa Şurası da ömürlüklərdən 3-nü siyasi məhbus sayır*

Azərbaycan və Ermənistan 2001-ci il yanvarın 25-də Avropa Şurasının (AŞ) üzvü olduqdan bir neçə gün sonra - yanvarın 31-də AŞ Nazirlər Komitəsinin Baş Katibi Valter Şvimmerin Azərbaycanda siyasi məhbus olduğu ehtimal edilən 716 nəfərlik siyahının araşdırılması üçün 3 müstəqil ekspert təyin etməsi ilə bağlı təşəbbüsünü təsdiqləyib. 2001-ci ilin fevralında Baş Katib bu ekspertləri təyin edib. Ekspertlər 2001-ci ilin iyulunda Azərbaycan və Ermənistanda ehtimal edilən siyasi məhbuslarla bağlı araşdırmalarının nəticələrini əks etdirən hesabat hazırlayaraq yayıblar. Bu hesabatın 19-cu bəndində ekspertlər qrupunun siyasi məhbus hesab etdiyi və etmədiyi 23 şəxsin siyahısı (vaxt məhdudiyyəti və zəruri informasiyalar olmadığından yalnız bu qədər iş araşdırılıb) verilib ki, E.Əmiraslanov və A.Kazımov burada yer alıb və

onlar siyasi məhbus sayılıb[82]. Avropa Şurasının Parlament Assambleyası 2002-ci il yanvarın 24-də "Azərbaycanda siyasi məhbuslar" adlanan 1272 saylı Qətnamə qəbul edib və həmin Qətnamənin 10-cu bəndində AŞ PA Azərbaycan hakimiyyətini digər siyasi məhbuslar kimi E.Əmiraslanov və A.Kazımovu azad etməyə çağırıb[83].

Yeni mandatı üzrə fəaliyyətini davam etdirən müstəqil ekspertlər 12 may 2003-cü ildə hazırladıqları rəydə Ş.Poladovun da siyasi məhbus olduğu qənaətinə gəliblər[84]. AŞ PA 27 yanvar 2004-cü ildə "Azərbaycanda siyasi məhbuslar" adlanan 1359 saylı Qətnamə qəbul edib və bu sənəddə müstəqil ekspertlərin siyasi məhbus kimi tanınan şəxslərin azadlığa buraxılmasına çağırışı yer alıb[85]. AŞ PA 31 may 2005-ci ildə 1359 saylı Qətnamənin davamı olaraq hesabat qəbul edib və bu sənədin 26-cı bəndində müstəqil ekspertlərin müəyyən etdiyi 3 siyasi məhbus – E.Əmiraslanov, A.Kazımov və Ş.Poladovun hələ də həbsdə qaldığı vurğulanıb və bundan narahatlıq bildirilib[86]. AŞ PA-nın sonrakı sənədlərində də hər 3 şəxsin siyasi məhbus olduğu vurğulanıb.

Müstəqil ekspertlər qrupunun siyasi məhbus hesab etmədiyi şəxslərin böyük hissəsi müxtəlif illərdə azadlığa buraxılıb. Ömürlük azadlıqdan məhrum edilmiş başqa XTPD-çilər Dəyanət Kərimovun və keçmiş Baş Nazir Surət Hüseynovun dayısı oğlu Kəramət Kərimovun cəzaları əfv fərmanı ilə 25 il müddətinə azadlıqdan məhrum edilmə ilə əvəzlənsə də, bu münasibət E.Əmiraslanova, A.Kazımova və Ş.Poladova göstərilməyib.

Hər üç məhbus Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət ediblər, səhhətlərində ciddi problemləri var, E.Əmiraslanov epilepsiya xəstəliyindən əziyyət çəkir, bir dəfə əməliyyat olunub. A.Kazımov başından, Ş.Poladov isə belindən əməliyyat olunub.

### 97. Elçin Səməd oğlu ƏMİRASLANOV



**Saxlanma tarixi:** 10 dekabr 1996-cı il

**İttiham:** 1960-cı il CM-in 57 *(vətənə xəyanət); 57-1-ci maddənin 2-ci hissəsi (Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və ya konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə, ağır nəticələrə səbəb olduqda); 15 (cinayətə hazırlıq və cinayətə sui-qəsd), 59-cu maddəsinin 1-ci hissəsi (dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə); 17 (iştirakçılıq), 59-cu maddəsinin 1-ci hissəsi (dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə); 15 (cinayətə hazırlıq və cinayətə sui-qəsd), 17 (iştirakçılıq), 59 (dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə); 70*

---

[82] http://bit.ly/1hEhLL3
[83] http://bit.ly/1h3hjoL
[84] http://bit.ly/P93b7e
[85] http://bit.ly/1dUqbwR
[86] http://bit.ly/1gJUxIg

*(dövlət müəssisələrinə, idarələrinə, təşkilatlarına və ya ictimai müəssisələrə, idarələrə, təşkilatlara, yaxud ayrı-ayrı şəxslərə basqın etmə məqsədilə silahlı bandalar təşkil etmə, habelə belə bandalarda və onların etdikləri basqınlarda iştirak etmə); 70-2-ci maddənin 1-ci hissəsi (qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə); 70-2-ci maddənin 3-cü hissəsi (adamların həlak olmasına və ya başqa ağır nəticələrə səbəb olan qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qrupların tərkibində dövlət və ya ictimai müəssisələrə, idarələrə, təşkilatlara, yaxud ayrı-ayrı şəxslərə basqın etmə); 71 (qaçaqmalçılıq, yəni malların və ya sair qiymətli şeylərin xüsusi saxlanc yerlərində gizlədilməsilə, yaxud gömrükxana sənədlərindən və başqa sənədlərdən aldatma yolu ilə istifadə etməklə, ya külli miqdarda, ya da kontrabanda ilə məşğul olmaq üçün təşkil olunmuş bir dəstə şəxs tərəfindən, ya qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən qanunsuz olaraq Azərbaycan Respublikası dövlət sərhədindən keçirilməsi, habelə partlayıcı, bihuşedici, güclü təsir edən və zəhərləyici maddələrin, silah və döyüş sursatı, hərbi ləvazimatın qaçaqmalçılığı); 15 (cinayətə hazırlıq və cinayətə sui-qəsd), 17 (iştirakçılıq), 94-cü maddənin 3-cü bəndi (zərər çəkmiş şəxsi öz qulluq və ya ictimai vəzifəsini yerinə yetirməsilə əlaqədar öldürmə);* 95 *(CM-in 94-cü maddəsində göstərilən ağırlaşdırıcı əlamətlər (tamah, xuliqanlıq, zərər çəkmiş şəxsi öz qulluq və ya ictimai vəzifəsini yerinə yetirməsilə əlaqədar öldürmə, iki və ya bir neçə şəxsi öldürmə, müqəssir üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürmə, xüsusi amansızlıqla və ya bir çox şəxsin həyatı üçün təhlükəli olan üsulla adamöldürmə, başqa cinayəti gizlətmə və ya onun edilməsini yüngülləşdirmə məqsədilə, habelə zorlamaqla əlaqədar adamöldürmə, xüsusi təhlükəli residivist tərəfindən, yaxud əvvəllər qəsdən adam öldürmüş olan şəxs tərəfindən adamöldürmə) olmadan qəsdən adamöldürmə);* 120-ci maddənin 2-ci hissəsi *(zərər çəkən şəxsin həyatı və ya səhhəti üçün təhlükəli üsulla və ya ona fiziki iztirab verməklə azadlıqdan məhrumetmə);* 145-ci maddənin 2-ci hissəsinin 1, 2, 5 və 6-cı bəndləri *(qabaqcadan əlbir olan bir dəstə şəxs tərəfindən, silah və ya silah kimi istifadə olunan digər predmetlər işlətməklə, dövlət əmlakına və ya ictimai əmlaka və ya vətəndaşların şəxsi əmlakına sahib olmaq məqsədilə əvvəllər quldurluq etmiş, yaxud banditizm etmiş şəxs tərəfindən edilən, zərər çəkənə külli miqdarda zərər vuran quldurluq, yəni vətəndaşların şəxsi əmlakına sahib olma məqsədilə hücuma məruz qalmış şəxsin həyatı və ya səhhəti üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın);* 146 *(hədə-qorxu ilə tələb etmə, yəni zərər çəkən şəxsin və ya onun yaxın adamlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumat yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə vətəndaşların şəxsi əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan hər hansı hərəkətlər etməsini tələb etmə);* 194-cü maddənin 1-ci hissəsi *(hüquq verən və ya vəzifələrdən azad edən rəsmi sənədləri hazırlama, saxtalaşdırma, satma və ya saxtalaşdırılmış sənədlərdən bilə-bilə istifadə etmə, habelə saxta sənədlər tərtib etmə məqsədilə dövlət müəssisələrinin, idarələrinin, təşkilatlarının və ya ictimai müəssisələrin, idarələrin, təşkilatların saxta ştamplarını, möhürlərini və ya blanklarını hazırlama, satma və ya əldə etmə), 207-ci maddənin 2-ci hissəsi (qərəzli xuliqanlıq, yəni öz məzmununa görə müstəsna dərəcədə həyasızlıq və ya xüsusi azğınlıqla fərqlənən, yaxud hakimiyyət nümayəndəsinə və ya ictimai qaydanı qorumaq vəzifəsini yerinə yetirən ictimaiyyət nümayəndəsinə, yaxud da xuliqanlıq hərəkətlərini dəf edən başqa vətəndaşlara müqavimət göstərməklə əlaqədar olan, habelə əvvəllər*

*xuliqanlıq üstündə məhkum olunmuş şəxs tərəfindən edilən hərəkətlər);* 207-ci maddənin 3-cü hissəsi *(odlu silah, yaxud bıçaq, beşbarmaq və ya digər soyuq silah, habelə bədənə xəsarət yetirmək üçün xüsusi düzəldilmiş başqa şeylər işlətmə və ya işlətməyə cəhd göstərmə ilə törədilən xuliqanlıq);* 220-ci maddəsinin 1-ci hissəsi *(müvafiq icazə olmadan odlu silah (yivsiz lüləli ov tüfəngindən başqa), döyüş sursatı və ya partlayıcı maddələr gəzdirmə, saxlama, əldə etmə, hazırlama və ya satma);* 220-ci maddəsinin 2-ci hissəsi *(milli geyim ləvazimatı hesab olunan hallar istisna edilməklə xəncər, fin bıçağı və sair soyuq silahı müvafiq icazə olmadan gəzdirmə, hazırlama və ya satma);* 220-1-ci maddəsinin 3-cü hissəsi *(odlu silahın (yivsiz lüləli ov silahından başqa), döyüş sursatının və ya partlayıcı maddələrin quldurcasına basqın yolu ilə, yaxud xüsusi təhlükəli residivist tərəfindən oğurlanması)*

**Cəzasının müddəti:** Ömürlük azadlıqdan məhrumetmə

**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

---

## 98. Arif Nazir oğlu KAZIMOV



**Saxlanma tarixi:** 10 dekabr 1996-cı il

**İttiham:** 1960-cı il tarixli CM-in 57 *(vətənə xəyanət);* 59-cu maddəsinin 1-ci hissəsi *(dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə);* 15 *(cinayətə hazırlıq və cinayətə sui-qəsd),* 59-cu maddəsinin 1-ci hissəsi *(dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə);* 70 *(dövlət müəssisələrinə, idarələrinə, təşkilatlarına və ya ictimai müəssisələrə, idarələrə, təşkilatlara, yaxud ayrı-ayrı şəxslərə basqın etmə məqsədilə silahlı bandalar təşkil etmə, habelə belə bandalarda və onların etdikləri basqınlarda iştirak etmə);* 70-2-ci maddənin 1-ci hissəsi *(qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə);* 70-2-ci maddənin 3-cü hissəsi *(adamların həlak olmasına və ya başqa ağır nəticələrə səbəb olan qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qrupların tərkibində dövlət və ya ictimai müəssisələrə, idarələrə, təşkilatlara, yaxud ayrı-ayrı şəxslərə basqın etmə);* 71 *(qaçaqmalçılıq, yəni malların və ya sair qiymətli şeylərin xüsusi saxlanc yerlərində gizlədilməsilə, yaxud gömrükxana sənədlərindən və başqa sənədlərdən aldatma yolu ilə istifadə etməklə, ya külli miqdarda, ya da kontrabanda ilə məşğul olmaq üçün təşkil olunmuş bir dəstə şəxs tərəfindən, ya qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən qanunsuz olaraq Azərbaycan Respublikası dövlət sərhədindən keçirilməsi, habelə partlayıcı, bihuşedici, güclü təsir edən və zəhərləyici maddələrin, silah və döyüş sursatı, hərbi ləvazimatın qaçaqmalçılığı);* 145-ci maddənin 2-ci hissəsinin 1,2,5 və 6-cı bəndləri *(qabaqcadan əlbir olan bir dəstə şəxs tərəfindən, silah və ya silah kimi istifadə olunan digər predmetlər işlətməklə, dövlət əmlakına və ya ictimai əmlaka və ya vətəndaşların şəxsi*

*əmlakına sahib olmaq məqsədilə əvvəllər quldurluq etmiş, yaxud banditizm etmiş şəxs tərəfindən edilən, zərər çəkənə külli miqdarda zərər vuran quldurluq, yəni vətəndaşların şəxsi əmlakına sahib olma məqsədilə hücuma məruz qalmış şəxsin həyatı və ya səhhəti üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın);* 146 *(hədə-qorxu ilə tələb etmə, yəni zərər çəkən şəxsin və ya onun yaxın adamlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumat yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə vətəndaşların şəxsi əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan hər hansı hərəkətlər etməsini tələb etmə);* 207-ci maddənin 2-ci hissəsi *(qərəzli xuliqanlıq, yəni öz məzmununa görə müstəsna dərəcədə həyasızlıq və ya xüsusi azğınlıqla fərqlənən, yaxud hakimiyyət nümayəndəsinə və ya ictimai qaydanı qorumaq vəzifəsini yerinə yetirən ictimaiyyət nümayəndəsinə, yaxud da xuliqanlıq hərəkətlərini dəf edən başqa vətəndaşlara müqavimət göstərməklə əlaqədar olan, habelə əvvəllər xuliqanlıq üstündə məhkum olunmuş şəxs tərəfindən edilən hərəkətlər);* 220-ci maddəsinin 1-ci hissəsi *(müvafiq icazə olmadan odlu silah (yivsiz lüləli ov tüfəngindən başqa), döyüş sursatı və ya partlayıcı maddələr gəzdirmə, saxlama, əldə etmə, hazırlama və ya satma);* 220-ci maddəsinin 2-ci hissəsi *(milli geyim ləvazimatı hesab olunan hallar istisna edilməklə xəncər, fin bıçağı və sair soyuq silahı müvafiq icazə olmadan gəzdirmə, hazırlama və ya satma);* 220-1-ci maddəsinin 3-cü hissəsi *(odlu silahın (yivsiz lüləli ov silahından başqa), döyüş sursatının və ya partlayıcı maddələrin quldurcasına basqın yolu ilə, yaxud xüsusi təhlükəli residivist tərəfindən oğurlanması)*

**Cəzasının müddəti:** Ömürlük azadlıqdan məhrumetmə

**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

---

**99. Səfa Alim oğlu POLADOV**

**Saxlanma tarixi:** 10 dekabr 1996-cı il



**İttiham:** 1960-cı il CM-in 59-cu maddəsinin 1-ci hissəsi *(dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə);* 15 *(cinayətə hazırlıq və cinayətə sui-qəsd),* 59-cu maddəsinin 1-ci hissəsi *(dövlət xadimini və ya ictimai xadimini yaxud hakimiyyət nümayəndəsini siyasi niyyətlərlə öldürmə);* 70-2-ci maddənin 1-ci hissəsi *(qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə);* 71 *(qaçaqmalçılıq, yəni malların və ya sair qiymətli şeylərin xüsusi saxlanc yerlərində gizlədilməsilə, yaxud gömrükxana sənədlərindən və başqa sənədlərdən aldatma yolu ilə istifadə etməklə, ya külli miqdarda, ya da kontrabanda ilə məşğul olmaq üçün təşkil olunmuş bir dəstə şəxs tərəfindən, ya qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən qanunsuz*

*olaraq Azərbaycan Respublikası dövlət sərhədindən keçirilməsi, habelə partlayıcı, bihuşedici, güclü təsir edən və zəhərləyici maddələrin, silah və döyüş sursatı, hərbi ləvazimatın qaçaqmalçılığı);* 220-ci maddəsinin 1-ci hissəsi *(müvafiq icazə olmadan odlu silah (yivsiz lüləli ov tüfəngindən başqa), döyüş sursatı və ya partlayıcı maddələr gəzdirmə, saxlama, əldə etmə, hazırlama və ya satma);* 120-ci maddənin 2-ci hissəsi *(zərər çəkən şəxsin həyatı və ya səhhəti üçün təhlükəli üsulla və ya ona fiziki iztirab verməklə azadlıqdan məhrumetmə)*

**Cəzasının müddəti:** Ömürlük azadlıqdan məhrumetmə

**Saxlandığı yer:** Qobustan Qapalı Həbsxanası

---

## G. SOSİAL ETİRAZLARLA BAĞLI TUTULANLAR

### *(1) 2013-cü il İsmayıllı etirazlarına görə tutulanlar*

2013-cü il yanvarın 23-ü axşam saatlarında İsmayıllıda yerləşən "Çıraq" hotelinin (hotelin Əmək və Əhalinin Müdafiəsi naziri (keçmiş) Füzuli Ələkbərovun oğlu Vüqar Ələkbərova məxsusluğunu həmin hadisələrə görə həbs edilən İlqar Məmmədov rəsmi sənədlər yayaraq sübut etmişdi) inzibatçısı Emil Şəmdinov və onun tanışı Elməddin Məmmədov içkili vəziyyətdə yerli taksi sürücüsünün maşınını vurduqdan sonra taksi sürücüsünün özünə də zərbələr endiriblər. Hər iki şəxs hadisə yerinə yığılan çoxsaylı İsmayıllı sakinlərini təhqir ediblər. Bu, hadisə yerində olan və sonradan gələn İsmayıllı sakinlərinin etirazına səbəb olub, qəzəblənmiş kütlə "Çıraq" hotelinə daş atmağa başlayıb və hotel yandırılıb. Etiraz edənlər nazir Füzuli Ələkbərovun qardaşı, rayon icra hakimiyyətinin başçısı Nizami Ələkbərovun da istefasını tələb edib və onun evinə sarı gedərək etirazlarını burada davam etdirib, evi və həyətdə olan avtomobilləri yandırıblar. Etirazlara görə Bakıdan və qonşu rayonlardan çoxsaylı polis qüvvələri və Daxili Qoşun əsgərləri İsmayıllı rayonuna yeridilib və həbslər aparılıb. Hadisələrə görə cinayət işi açılıb, yanvarın 23-də E.Şəmdinov və E.Məmmədovdan başqa 8 İsmayıllı sakini barədə həbs qətimkan tədbiri seçilib, 23 nəfər inzibati qaydada müxtəlif müddətlərə həbs edilib. Yanvarın 24-də həbs edilənlərin azadlığa buraxılması və icra başçısının istefaya göndərilməsi çağırışları ilə aksiyalar davam etdirilib, etirazları yatırmaq üçün polis gözyaşardıcı qazdan və rezin güllələrdən istifadə edib.

Cinayət işi çərçivəsində hadisələrə görə ümumilikdə 18 nəfər həbs olunub ki, onların 16-sı İsmayıllı sakini, 2 nəfər isə hadisələri yerində öyrənmək üçün İsmayıllıya səfər etmiş ReAL Hərəkatının Sədri İlqar Məmmədov və Müsavat Partiyası Başqanının müşaviri, Yeni Müsavat qəzetinin əməkdaşı Tofiq Yaqublu olub. T.Yaqublu 2016-cı ilin martında əfv sərəncamı ilə azadlığa buraxılıb. İ.Məmmədov isə Şəki Apellyasiya Məhkəməsinin 13 avqust 2018-ci il tarixli hökmü ilə 2 il sınaq müddəti olmaqla şərti azadlığa buraxılıb. Sınaq müddətində onun ölkədən çıxışına qadağa qoyulub.[87]

Barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərə ilkin olaraq polisə müqavimət və ictimai qaydanı kobud surətdə pozmaq ittihamları irəli sürülsə də, sonradan ictimai

[87] Bu cür qadağa keçmiş siyasi məhbuslardan Xədicə İsmayıl və İntiqam Əliyevin, o cümlədən, hüquq müdafiəçiləri Ənnağı Hacıbəyli, Əsabəli Mustafayev, jurnalistlər Şahvələd Çobanoğlu, Meydan TV, Azadlıq Radiosu, Azadlıq qəzeti ilə əməkdaşlıq etmiş çox sayda digər jurnalistlərin də üzərində var.

qaydanı pozma daha ağır ittihamla - kütləvi iğtişaşlar törətmə və ya bu iğtişaşlarda iştirak etmə ilə əvəzlənib.

Şəki Ağır Cinayətlər Məhkəməsinin (hakim Rəşid Hüseynov) 17 mart 2014-cü il tarixli qərarı ilə həbs edilmiş şəxslərdən 10 nəfər 4 ildən 8 ilə qədər müddətə azadlıqdan məhrumetmə cəzalarına məhkum olunub, 8 nəfərə şərti cəza kəsilərək onlar məhkəmə zalından azadlığa buraxılıb.

Təqsirləndirilən şəxslərin bir neçəsi özlərini qismən təqsirli bilsələr də, onların arasında saxta və sifarişli ittihamlarla həbs edilən şəxslər də var. Başqa sözlə, İ.Məmmədov və T.Yaqublu ilə yanaşı, İsmayıllı sakinlərindən də açıq siyasi motivlərlə həbs edilənlər olub. Bu şəxslərin cinayət əməllərində iştirakı məhkəmədə sübuta yetirilməyib, hətta şahid kimi ifadə verən çoxsaylı polislər yanğın törədən və daş atan şəxslərin üzünü görmədiklərini, çoxsaylı ümumi etirazların getdiyini vurğulayıblar. Hotelin sahibləri və hoteldə qalanlar zərərçəkmiş kimi tanınsalar da, onlar təqsirləndirilənlərə qarşı heç bir iddialarının olmadığını məhkəmə proseslərində qeyd ediblər.

### 100. Vasif Ədalət oğlu İBRAHİMOV

**Saxlanma tarixi:** 25 fevral 2013-cü il

**İttiham:** CM-in 220.1 *(zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi, odlu silahın, partlayıcı maddələrin və ya qurğuların tətbiq edilməsi, yaxud hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə zor tətbiq etmə, zor tətbiq etməklə müqavimət göstərmə və ya onun yaxın qohumlarına qarşı həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya belə zor tətbiq etmə hədəsi ilə hədələmə)* maddələri

**Cəzasının müddəti:** 8 il

**Saxlandığı yer:** Şəki Penitensiar Müəssisəsi

**İş üzrə qısa arayış:** V.İbrahimov İsmayıllı rayonunda baş verən haqsızlıqlara qarşı cıxış edən və bu haqsızlıqlara görə tənqidlər səsləndirən sakinlərdən olub. Hər hansı müxalifət partiyasının üzvü olmasa da, ölkədə, xüsusən yaşadığı İsmayıllı rayonunda yerli icra strukturlarına müxalif olub. V.İbrahimov sahibkarlara qarşı təzyiqlər, onların günlərlə işıqsız qalması, sahibkarlara məxsus mağazaların qapadılması, o sıradan müxtəlif sosial problemləri ANS telekanalı və çap mətbuatı vasitəsilə ictimailəşdirib, İsmayıllıda yaşayan jurnalist Elçin İsmayıllıya[88] rayonun müxtəlif yerlərində olan qanunsuzluqlar və sosial problemlər barədə məlumatlar ötürüb, buna görə V.İbrahimov yerli icra strukturlarının hədəfinə çevrilib.

V.İbrahimov İsmayıllı etirazlarının başlandığı gün, yəni yanvarın 23-də əraziyə gələn jurnalistlərə müsahibə verib və müsahibəsində "Çıraq" hotelinin tikintisini qanunsuz adlandırıb, hotelin olduğu tikilidə 35 aztəminatlı ailənin məskunlaşmasına baxmayaraq, onların oradan məcburi çıxarıldığını, bu işdə yerli strukturların iştirak

[88] Elçin İsmayıllı özü də 17 fevral 2017-ci ildə həbs edilib; bu Siyahıda 6-cı sıradadır.

etdiyini bildirərək onları tənqid edib[89]. Müsahibəsinin efirə verilməyən hissəsində o, icra başçısı və keçmiş Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin oğlunun bu hadisələrdə günahkar olduğunu bildirib.

V.İbrahimov etirazlar və qarşıdurmalarda birbaşa iştirak etməyib və o, ilk günlər deyil, hadisədən 1 ay sonra yerli icra strukturlarının təkidi ilə həbs edilib, ona qarşı ittihamlar irəli sürülüb.

*V.İbrahimov Şəki Ağır Cinayətlər Məhkəməsinin 17 mart 2014-cü il tarixli qərarı ilə **8 il** müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. 24 sentyabr 2014-cü il tarixdə Şəki Apellyasiya Məhkəməsi, 12 oktyabr 2016-cı il tarixdə isə Ali Məhkəmə V.İbrahimov barəsində çıxarılmış hökmü qüvvədə saxlayıb.*

---

***(2) 2015-ci il Mingəçevir etirazlarına görə tutulanlar***

2015-ci il avqustun 20-də Mingəçevir şəhər sakini Bəhruz Hacıyev narkotik maddə saxlama ittihamı üzrə şübhəli bilinərək saxlanılıb və Mingəçevir Şəhər Polis Bölməsinə aparılıb. Polisə aparıldıqdan qısa müddət sonra Bəhruz Hacıyev dünyasını dəyişib, polis onun özünü polis binasının 3-cü mərtəbəsindən atdığını iddia edib.

Bu iddia ilə razılaşmayan B.Hacıyevin qohumları və yaşadığı ərazinin sakinləri avqustun 22-də onun dəfnindən sonra öz etirazlarını bildirmək və təqsirkar şəxslərin cəzalandırılmasını tələb etmək üçün polis şöbəsinin qarşısında dinc aksiya keçiriblər. Təxminən 500 nəfər şəxsin iştirak etdiyi aksiya ilkin olaraq dinc xarakterli olub və sonradan polisin müdaxiləsi nəticəsində qarşıdurma yaranıb. Bununla da aksiya iştirakçılarının dağıdılmasına və həbslərin aparılmasına başlanılıb. Bu zaman 20-dən artıq aksiya iştirakçısı saxlanılıb, onların əksəriyyəti inzibati qaydada həbs edilsə də, bəzilərinə qarşı cinayət işi açılıb və barələrində həbs qətimkan tədbiri seçilib.

Aksiyadan sonra B.Hacıyevi dindirən polis baş leytenantı Şahlar Şahlarzadə də həbs edilib, ona qarşı iş zamanı vəzifəsindən su-istifadə və ölüm həddinə çatdırma maddələri ilə cinayət işi açılıb. Azadlıqdan məhrum edilən Ş.Şahlarzadə 2017-ci il martın 17-də imzalanmış prezidentin əfv sərənacamı ilə azadlığa buraxılıb.

Hadisəni əks etdirən videogörüntülərdən də görünür ki, insanlar dinc şəkildə heç kimə zorakılıq göstərmədən polis şöbəsinin qarşısına gediblər və burada öz tələblərini səsləndirməyə başlayıblar. Əraziyə cəlb edilmiş çoxsaylı polis əməkdaşları aksiyanı dağıtmağa başladıqdan sonra qarşıdurma yaranıb və bu qarşıdurma polis nəfərlərinin aksiya iştirakçılarını həbs etməsi, bəzən kobud rəftarı ilə sona çatıb.

Bu praktika Azərbaycanın müxtəlif regionlarında əvvəllər keçirilmiş aksiyalar zamanı da baş verib. İnsanlar haqlı etirazlarını səsləndirmək üçün rayon icra hakimiyyəti və ya polis şöbəsinin qarşısına toplanırlar, dinc şəkildə şüar və çağırışlar edirlər, polisin müdaxiləsindən sonra iğtişaş yaranır və həbs edilən şəxslərə qarşı iğtişaşların təşkili və ya iğtişaşlarda iştirak etmə ittihamı və əlavə olaraq ancaq polislərin ifadələrinə əsaslanan polisə müqavimət ittihamı irəli sürülür.

[89] http://bit.ly/1mb5UIx

Məhkəmə prosesləri zamanı təqsirləndirilən şəxslərin iğtişaş törətmək niyyətinin olması sübuta yetirilməyib, hətta məhkəmə qərarlarının bəzilərində bu şəxslərin öz etirazlarını dinc şəkildə bildirməsi üçün polis şöbəsinin qarşısına gəldiyi vurğulanıb. Təqsirləndirilən şəxslərə qarşı polisə tabe olmayaraq müqavimət göstərmə ittihamı yalnız zərərçəkmiş şəxslər kimi tanınan polislərin özlərinin ifadələri ilə irəli sürülüb, məhkəmə digər sübutların araşdırılmasını həyata keçirməyib. Ərazidə olan təhlükəsizlik kameralarından əldə edilmiş görüntülərdə də polisə müqavimət anını gösətərən heç bir məqam yoxdur, təqsirləndirilən şəxslərin heç birinin konkret hansısa cinayət törətməsi kameradan götörülmüş görüntülərdə yoxdur.

Hadisədən az müddət sonra Mingəçevirdən reportajlar hazırlayan və oradan alternativ məlumatlar çatdıran Meydan TV internet televiziyası ilə əməkdaşlıq edən bir sıra müstəqil jurnalistlər Baş Prokurorluğa çağırılaraq dindiriliblər. Sonradan məlum olub ki, bu telekanala qarşı cinayət işi açılıb və bunun nəticəsində kanalla əməkdaşlıq edən bir sıra jurnalistlərin ölkədən çıxışına qadağa qoyulub.

---

## 101. İlqar Əliniyaz oğlu XƏLİLOV

**Saxlanma tarixi:** 22 avqust 2015-ci il

**İttiham:** CM-in 228.4 *(qanunsuz olaraq qaz silahını, soyuq silah, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə)***,** 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və *315.2-ci (xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 5 il 6 ay

**Saxlandığı yer:** Vərəmli məhkumlar üçün 3 saylı Müalicə Müəssisəsi

**İş üzrə qısa arayış:** *İ.Xəlilov Mingəçevir Şəhər Məhkəməsinin (hakim Rasim Kazımov) 20 iyun 2016-cı il tarixli hökmü ilə* ***5 il 6 ay*** *müddətinə azadlıqdan məhrum edilmiş, Şəki Apellyasiya Məhkəməsi (sədrlik edən hakim Elçin Hüseynov) bu hökmü 16 dekabr 2016-cı il tarixdə dəyişdirmədən qüvvədə saxlamışdır.*

İ.Xəlilovun səhhətində ciddi problemlər var, ayağına mil qoyulub, vərəm xəstəsi olduğundan vərəmli məhkumlar üçün nəzərdə tutulmuş müəssisədə saxlanılır.

---

## 102. Dilqəm Dilqami oğlu MAHMUDZADƏ

**Saxlanma tarixi:** 22 avqust 2015-ci il

**İttiham:** CM-in *233 (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-*ci (xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 4 il

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Mahmudzadə Şəki Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən hakim Rəşid Hüseynov) 17 avqust 2016-cı il tarixli hökmü ilə ***4 il*** müddətinə

azadlıqdan məhrum edilib, Şəki Apellyasiya Məhkəməsi (sədrlik edən hakim Mirbahəddin Hüseynov) bu hökmü 30 noyabr 2016-cı il tarixdə dəyişdirmədən qüvvədə saxlayıb.

---

**103. İlkin Oruc oğlu ABDULLAYEV**

**Saxlanma tarixi:** 24 avqust 2015-ci il

**İttiham:** CM-in 288.4-cü *(işin və ya müvafiq materialların məhkəmədə baxılması ilə əlaqədar hakimi, habelə onun yaxın qohumlarını öldürməklə, onların sağlamlıqlarına zərər vurmaqla, əmlakını məhv etməklə və ya əmlakını zədələməklə hədələmə, həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 6 il

**Saxlandığı yer:** Şəki Penitensiar Müəssisəsi

**İş üzrə qısa arayış:** *Abdullayev Şəki Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən hakim Rəşid Hüseynov) 17 avqust 2016-cı il tarixli hökmü ilə **6 il** müddətinə azadlıqdan məhrum edilib.*

Abdullayev ailəlidir, 3 azyaşlı övladı var.

---

***(3) 2016-cı il Siyəzən etirazlarına görə tutulanlar***

2016-cı ilin yanvarında Azərbaycanın bəzi regionlarında manatın ikinci dəfə devalvasiyası nəticəsində bir sıra ərzaq məhsullarının, xüsusən də unun qiymətinin artmasına etiraz olaraq aksiyalar keçirilib. Belə aksiyalardan biri və kütləvisi yanvarın 12-i və 13-də Bakıdan təxminən 100 km məsafədə yerləşən Siyəzən rayonunda baş tutub. Rayon sakinləri yerli icra hakimiyyəti binasının qarşısına toplaşaraq qiymət artımına qarşı və sosial problemlərlə bağlı etiraz aksiyası keçiriblər.

Hadisə ilə bağlı yayılmış rəsmi məlumat Azərbaycan regionlarında daha əvvəlki illərdə baş vermiş etiraz aksiyaları zamanı yayılan məlumatlardan fərqlənməyib. Aksiya iştirakçılarının zorakılıq etdiyi, polisə müqavimət göstərdiyi və onların həyat və sağlamlığı üçün təhlükə yaratdığı bəyan edilib. Halbuki, etirazların başlanmasından qısa müddət sonra xüsusi polis dəstələri və daxili qoşun qüvvələri rayona cəlb edilib və polisin sayı iştirakçılardan çox olub. Hadisə yerindən yayılan videolarda sakinlərin zorakılıq etdiyini nümayiş etdirən hər hansı kadr mövcud deyil. Məhkəmə hökmündə də təhlükəsizlik kameralarından hansısa bir görüntünün olub-olmaması ilə bağlı məsələyə toxunulmayıb. Hadisələr əsasən, polisin aksiya iştirakçılarını həbs etməsi və aksiyanı dağıtması ilə müşayiət olunub.

Həbs edilən şəxslərin bəzilərinə qarşı Azərbaycanda siyasi motivli işlərdə geniş istifadə edilən narkotik maddə saxlama və qanunsuz olaraq silah saxlama ittihamları irəli sürülüb.

*Quba Rayon Məhkəməsinin (hakim Elman Əhmədov) 28 mart 2017-ci il tarixli hökmü ilə Müslüm Əzimov **6 il**, Zaur Şəkərov **6 il**, Elçin Əliyev **5 il**, Talıb Ağamalıyev **5 il**, Kamran Abdullayev **5 il**, Nizami Qəniyev **5 il**, Çoşqun Bağişov **4 il**, Fariz Kərimov **4 il**, Namiq Məstanov **4 il**, Abasət Süleymanov **4 il** və Aydın Səfərli **2 il** müddətinə*

*azadlıqdan məhrum etmə cəzasına məhkum ediliblər. Sumqayıt Apellyasiya Məhkəməsi (sədrlik edən Nazim Mövsümov) 28 dekabr 2017-ci il tairxli qərarı ilə Zaur Şəkərovun cəzasını **2 il**, Müslüm Əzimov, Elçin Əliyev, Kamran Abdullayev və Nizami Qəniyevin cəzasını **1 il**, Fariz Kərimov, Namiq Məstanov, Abasət Süleymanov və Çoşqun Bağişovun cəzasını isə 6 ay müddətinə azaldıb, digər şəxslər barəsində birinci instansiya məhkəməsinin hökmü qüvvədə saxlanılıb. Həmin qərardan verilən kassasiya şikayətini 17 iyul 2018-ci ildə Ali Məhkəmə (sədrlik edən Gülzar Rzayeva) rədd edib.*

19 sentyabr 2018-ci ildə Salyan Rayon Məhkəməsi (hakim Muradağa Qasımov) Z.Şəkərov və Ç.Bəğişovun həbs müddətlərinin yarısından çoxunu çəkdikləri üçün cəzanın çəkilməmiş hissəsindən vaxtından əvvəl azad edilmələri ilə bağlı müraciətinə baxıb və məhkəmə müraciəti təmin etməyib.

---

### 104. Talıb Telman oğlu AĞAMALIYEV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 13 yanvar 2016-ci il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda)*, 221.1 *(xuliqanlıq, yəni ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, vətəndaşlar üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlər)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)*, 234.1 *(satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 5 il

**Saxlandığı yer:** 14 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 105. Kamran Səftər oğlu ABDULLAYEV



© *Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 14 yanvar 2016-ci il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda)*, 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə),* 234.1 *(satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 4 il

**Saxlandığı yer: 17** saylı Cəzaçəkmə Müəssisəsi

---

## 106. Nizami Məhərrəm oğlu QƏNİYEV



© *Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 14 yanvar 2016-ci il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda),* 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 4 il

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

---

**107. Zaur İlham oğlu ŞƏKƏROV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 14 yanvar 2016-cı il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda)*, 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə),* 234.1 *( satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 4 il

**Saxlandığı yer:** 5 saylı Cəzaçəkmə Müəssisəsi

---

**108. Abasət Oktay oğlu SÜLEYMANOV**

**Saxlanma tarixi:** 15 yanvar 2016-cı il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 3 il 6 ay

**Saxlandığı yer:** 17 Cəzaçəkmə Müəssisəsi

---

## 109. Müslüm Ağamalı oğlu ƏZİMOV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 16 yanvar 2016-ci il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda),* 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 5 il

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 110. Coşqun Müslüm oğlu BƏĞİŞOV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 16 yanvar 2016-ci il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 3 il 6 ay

**Saxlandığı yer:** 5 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 111. Fariz Kərəm oğlu KƏRİMOV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 19 yanvar 2016-ci il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 3 il 6 ay

**Saxlandığı yer:** 14 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 112. Namiq Əzizoğlan oğlu MƏSTANOV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 19 yanvar 2016-ci il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 3 il 6 ay

**Saxlandığı yer:** 16 saylı Cəzaçəkmə Müəssisəsi

---

### 113. Elçin Sadıq oğlu ƏLİYEV




*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 10 mart 2016-ci il

**İttiham:** CM-in 186.2.2 *(özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda)*, 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)*, 233 *(ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə)*, 234.1 *(satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama)* və 315.2-ci *(xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* maddələri

**Cəzasının müddəti:** 4 il

**Saxlandığı yer:** 17 saylı Cəzaçəkmə Müəssisəsi

---

## H. KEÇMİŞ DÖVLƏT MƏMURLARI

### 114. Əli Binnət oğlu İNSANOV



**Saxlanma tarixi:** 20 oktyabr 2005

**İttiham:**

***Birinci cinayət işi üzrə:*** CM-in 179.3.2 *(mənimsəmə və israf etmə külli miqdarda törədildikdə)*, 306.2 *(məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə vəzifəli şəxs tərəfindən təkrar törədildikdə)*, 308.1 *(vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni*

*mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda)*, 311.3.1 *(rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə)*, 311.3.2 *(rüşvət alma təkrar törədildikdə)*, *311.3.3 (rüşvət alma külli miqdarda törədildikdə)* və 313-cü *(vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs tərəfindən rəsmi sənədlərə və ya informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, bu əməllər tamah və ya sair şəxsi niyyətlərlə törədildikdə)* maddələri

***İkinci cinayət işi üzrə:*** CM-in 234.1 *(satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama)*, 315.2 *(hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə)* və 317-2.1 *(cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi)* maddələri[90]

**Cəzasının müddəti:**

***Birinci cinayət işi üzrə:*** 11 il

***İkinci cinayət işi üzrə:*** 7 il 5 gün

**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Əli İnsanov hakim Yeni Azərbaycan Partiyasının (YAP) qurucularından biri sayılır, o, 1993-cü ildən həbs edildiyi günə qədər Azərbaycan Respublikasının Səhiyyə Naziri vəzifəsində çalışıb.

2005-ci ilin noyabrında keçirilmiş parlament seçkilərindən əvvəl və seçkilər ərəfəsində Əli İnsanov YAP-ın İdarə Heyətinin iclaslarında kəskin tənqidi çıxışlar edib, hakimiyyətdə cinayətkarların təmsil olunduğunu, aparılan siyasətin yanlışlığını və dəyişdirilməli olduğunu, əks halda, xalqı aldatmış olacaqlarını bildirib. YAP-ın qurultayından əvvəl keçirilən İdarə Heyətinin iclasında tənqidi fikirlərini davam etdirərək, partiyaya çağırdığı və ona görə partiyaya qoşulan şəxslərdən buraxılan səhvlərə və yanlış siyasətə görə üzr istəmək dərəcəsinə çatdırıldığını vurğulayıb. Ə.İnsanov həbsindən 7 ay əvvəl - 2005-ci ilin mart ayında həm YAP-dan, həm də səhiyyə naziri vəzifəsindən istefa vermək üçün ərizə ilə Prezident İlham Əliyevə müraciət etsə də, onun istefası qəbul olunmayıb. Həbsindən iki ay əvvəl Ə.İnsanov izləndiyini, hətta Bakıdan çıxdıqdan sonra da bu izləmənin davam etdiyini və bununla bağlı ölkə prezidentinə müraciət yolladığını bildirib. Müraciətdə elə hakimiyyətdə təmsil olunan qrupların onu izlədiyini vurğulayıb.

Parlament seçkilərinə 16 gün qalmış Ə.İnsanov Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları tərəfindən saxlanılıb və barəsində dərhal həbs qətimkan tədbiri seçilib. Ona qarşı ilkin olaraq dövlət çevrilişinə hazırlıq ittihamı irəli sürülsə də (dövlət mediası da bu barədə məlumatlar yayırdı), sonradan bu ittiham sırf iqtisadi cinayətlər üzrə ittihamlara çevrilib. O, həbs edilərkən işgəncəyə məruz qaldığını, işgəncələrin Bayıl Həbsxanasında, 5 saylı İstintaq Təcridxanasında, 13 saylı Cəzaçəkmə Müəssisəsində davam etdiyini bildirib.

---

[90] Bu maddələr üzrə ittihamlar sabiq nazirə həbsdə olduğu dövrdə irəli sürülüb.

Cinayət işinin materiallarında mənimsənildiyi iddia edilən məbləğlə Ə.İnsanovun həbsi zamanı Baş Prokurorluğun məlumatlarında açıqlanan məbləğlər arasında ciddi fərqlər olub. Ə.İnsanov bütün vergiləri ödədiyini və təkcə 2005-ci ildə 85000 manat vergi ödədiyini sübut edən qəbzləri məhkəməyə təqdim edib. Qanunsuz özəlləşdirmədə ittiham edilən Ə.İnsanov bu prosesi Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin Sədri Kərəm Həsənov və keçmiş İqtisadi İnkişaf Naziri Fərhad Əliyevin apardığını bildirib. Keçmiş nazir onların şahid kimi məhkəməyə gətirilməsi ilə bağlı vəsatət versə də, bu təmin edilməyib. Ə.İnsanovun həbs edildiyi gün verdiyi ifadənin böyük bir hissəsi itirilib və cinayət işinin materiallarına əlavə edilməyib.

*2007-ci ildə Ə.İnsanovun cinayət işi üzrə istintaq yekunlaşıb, ancaq onun vəkillərinə işin materialları ilə tanış olmaq və onların surətlərini götürməyə imkan verilməyib. O, 20 aprel 2007-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə* ***11 il*** *müddətinə azadlıqdan məhrum edilib. 2007-ci il sentyabrın 21-də Bakı Apellyasiya Məhkəməsi, 16 yanvar 2008-ci ildə isə Ali Məhkəmə bu qərardan verilən şikayətləri rədd ediblər.*

Keçmiş nazirin İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 3-cü (işgəncəyə məruz qalmamaq) və 6-cı (ədalətli məhkəmə hüququ) maddəsində nəzərdə tutulmuş hüquqlarının pozulması ilə bağlı Avropa Məhkəməsinə şikayət verilib. 2013-cü ilin martın 14-də Avropa Məhkəməsi keçmiş nazirin hər iki hüququnun pozulduğunu tanıyıb[91]. Məhkəmə keçmiş nazirin müdafiə hüququ və digər prosessual hüquqlarının pozulduğunu qeyd etməklə, bu iş üzrə əlavə araşdırma aparılmasına ehtiyac olduğunu qət edib. 2013-cü il noyabrın 15-də Ali Məhkəmə Avropa İnsan Hüquqları Məhkəməsinin qərarına əsasən işi yenidən baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə göndərib. Apellyasiya Məhkəməsində işə baxılarkən Ə.İnsanov hakimiyyət, konkret Prezident İlham Əliyev barədə kəskin tənqidi fikirlər səsləndirib. Növbəti məhkəmə zamanı Ə.İnsanov şüşə qəfəsə salınıb və hakim onun danışmasına icazə verməyib (keçmiş nazir tənqidi fikirlər səsləndirərkən hakim səsinin eşidilməsini təmin edən mikrofonu söndürüb). 25 fevral 2014-cü ildə Apellyasiya Məhkəməsi Ə.İnsanov barəsində çıxarılan 11 illik azadlıqdan məhrumetmə barədə hökmü qüvvədə saxlayıb.

AŞPA-nın 2007-ci ildə qəbul etdiyi 1545 saylı qətnamədə Ə.İnsanov barəsində ədalətli məhkəmə keçirilməsi tövsiyə olunub.[92] AŞPA-nın Azərbaycan üzrə keçmiş həmməruzəçiləri Cənab Andres Herkel və Xanım Evgenuia Jivkovanın apardıqları monitorinqin nəticələrinə dair 2008-ci il mart ayında yayılmış hesabatda və AŞPA-nın 2008-ci il 24 iyul tarixli qətnaməsində də Ə.İnsanovla bağlı narahatlıq əks olunub.

***İkinci cinayət işi.*** Ə.İnsanovun cəza müddətinin bitməsinə 57 gün qalmış, 23 avqust 2016-cı ildə ona qarşı 3 maddə əsasında ittiham irəli sürülüb. Ona qarşı ittihamların azadlığa çıxmasına az müddət qalmış irəli sürülməsi, müstəntiqlərdən fərqli olaraq, vəkillərinin yanına buraxılmaması və bu tip ittihamların siyasi motivli işlərdə mütəmadi istifadə edilməsi göstərir ki, hakimiyyət Ə.İnsanovun azadlığa buraxılmasında maraqlı deyil. Belə ki, yuxarıda da qeyd edildiyi kimi, o, həbs edildikdən sonra hakimiyyəti tənqid etməyə başlayıb və azadlığa çıxdıqdan sonra mübarizəsini davam etdirəcəyini açıq şəkildə bildirib.

[91] http://bit.ly/1myxEK1
[92] http://bit.ly/P93hLW

*Ə.İnsanov ona qarşı açılmış yeni cinayət işi üzrə Qaradağ Rayon Məhkəməsinin (hakim Rəşad Mustafayev) 26 aprel 2017-ci il tarixli hökmü ilə **7 il 5 gün** müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi (sədrlik edən Əflatun Qasımov) 22 iyun 2017-ci ildə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb. 16 yanvar 2018-ci ildə Ali Məhkəmə (sədrlik edən Fərhad Kərimov) qərarı qüvvədə saxlayıb.*

---

**115. Rüfət Eldar oğlu SƏFƏROV**



© şəxsi Facebook səhifəsi

**Saxlanma tarixi**: 08 sentyabr 2016-cı il

**İttiham:** CM-in 311.3.2-ci *(rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi, təkrar törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 9 il

**Saxlandığı yer:** 9 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** Hakim Yeni Azərbaycan Partiyasının yaradıcılarından biri, keçmiş deputat və Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri olmuş Eldar Sabiroğlunun oğlu olan R.Səfərov Zərdab Rayon Prokurorluğunun müstəntiqi vəzifəsində çalışıb. 2015-ci ilin dekabrında kütləvi ədalətsizliyə, qanunsuzluqlara, insan hüquqlarının pozulmasına görə vəzifəsindən istefa verib və bu barədə Baş Prokurora məktub göndərib. O, məktubu həm də mətbuat vasitəsilə ictimailəşdirib. R.Səfərov müxalifətə keçdiyini və bundan sonra haqsızlığa qarşı mübarizə aparacağını sosial şəbəkələrdə bildirib. O, atasına qarşı olan haqsız hücumların da onun istefasına gətirib çıxaran səbəblərdən biri olduğunu vurğulayıb. Belə ki, R.Səfərovun atası Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin ünvanına sərt çıxışlar edib və bundan sonra ona qarşı təzyiqlər başlayıb.

R.Səfərovun bu addımından qısa müddət sonra - 2016-cı il yanvarın 15-də ona qarşı ittiham irəli sürülüb və barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Həbsindən sonra onun iş otağında, kirayədə qaldığı mənzildə axtarış aparılıb, kompüter və telefonu götürülüb. Yanvarın 22-də isə Binəqədi Rayon Məhkəməsi həbs qətimkan tədbirini ev dustaqlığı qətimkan tədbiri ilə əvəzlənməsi barədə qərar qəbul edib.

R.Səfərov siyasi bəyanat verərək bildirib ki, tutduğu vəzidən uzaqlaşdıqdan dərhal sonra onun barəsində cinayət işinin açılması cinayət təqibinin siyasi motivli olduğunu göstərir. Bundan başqa, ittihama görə, R.Səfərovun rüşvət aldığı iddia edilən bütün şəxslər Zərdab rayonunda fəaliyyət göstərən vəzifəli şəxslərdir (Əlibəyli kənd

bələdiyyəsinin sədri Elçin Xəlilov, Zərdab rayon Elektrik Şəbəkəsinin məsul işçisi Ələmdar Abbasov, Zərdab rayon Baytarlıq İdarəsinin əməkdaşı Mansur Pənahov, Zərdab rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Eldəniz Abdullayev), onlar 2014-cü ildə rüşvət verdikləri ilə bağlı şikayətləri məhz R.Səfərov vəzifəsindən istefa verdikdən sonra təqdim ediblər. İlkin məhkəmə prosesində R.Səfərovun vəkili rüşvət verən vəzifəli şəxslərin barəsində xüsusi qərar çıxarılaraq onların məsuliyyətə cəlb olunması üçün tədbir görülməsi barədə vəsatət versə də, bu vəsatət təmin edilməyib. Bu faktın özü göstərir ki, ittiham saxtalaşdırılıb, əks halda rüşvət verən şəxslər də cinayət məsuliyyətinə cəlb edilməli idi. Belə ki, qanunvericiliyə görə, rüşvət vermə də cinayət sayılır.

Məhkəmə prosesləri zamanı şahidlər kəskin ziddiyyətli ifadələr verib. Vəkil şahidlərin güya R.Səfərovun rüşvət istədiyini görmələri barədə ifadələrindən sonra onların da cinayəti bilib gizlətmə cinayətinə yol verdiklərinə görə məsuliyyətə cəlb edilmələri üçün araşdırmanın aparılmasından ötrü xüsusi qərarın çıxarılması barədə vəsatət verib. Lakin bu vəsatət də təmin edilməyib.

İş üzrə adı keçən şahidlərdən biri Babək Hacıyev istintaqa verdiyi ifadəni məhkəmədə təsdiqləməyib və bildirib ki, prokurorluqda ona hazır mətn veriblər və o da oxumadan onu imzalayıb, məhkəmə zamanı məlum olub ki, bu ifadə R.Səfərovun əleyhinədir. Güya o, Baytarlıq İdarəsinin əməkdaşından rüşvət aldığını Babək Hacıyevə özü deyib. Digər şahid, Zərdab rayon Baytarlıq İdarəsinin əməkdaşı Şaiq Əliyev R.Səfərovun rüşvət aldığını görmədiyini, bu barədə yalnız eşitdiyini bildirib.

*Rüfət Səfərov Lənkəran Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən hakim Asim Hacıyev) 08 sentyabr 2016-cı il tarixli hökmü ilə **9 il** müddətinə azadlıqdan məhrum edilərək (dövlət ittihamçısı onun 10 il müddətinə azadlıqdan məhrum edilməsini tələb edib) məhkəmə zalında həbs olunub. R.Səfərov və vəkili son söz üçün vaxt istəsələr də, onların bu xahişi rədd edilib. Şirvan Apellyasiya Məhkəməsi (sədrlik edən Ələsgər Novruzov) bu hökmü 22 dekabr 2016-cı il, Ali Məhkəmə isə (sədrlik edən Gülzar Rzayeva) 11 iyul 2017-ci il tarixdə dəyişdirmədən qüvvədə saxlayıb.*

R.Səfərov 9 saylı Cəzaçəkmə Müəssisəsinə köçürüldükdən sonra bir neçə dəfə karsa salınıb. Vəkilləri bu cəzaların qanunsuz olduğunu və siyasi məhbusu sındırmaq məqsədi güddüyünü iddia edirlər.

---

## I. SİYASİ GİROVLAR

### 116. Elnur Rafiq oğlu SEYİDOV



**Saxlanma tarixi:** 27 mart 2012-ci il

**İttiham:** CM-in 178.3.1 *(dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə mütəşəkkil*

*dəstə tərəfindən törədildikdə)* 178.3.2 *(dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə)*, 179.3.1 *(mənimsəmə və ya israf etmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama mütəşəkkil dəstə tərəfindən törədildikdə)*, 179.3.2 *(mənimsəmə və israf etmə külli miqdarda törədildikə)*, 308.2-ci *(vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə)* maddələri

**Cəzasının müddəti:** 7 il 3 ay

**Saxlandığı yer:** 13 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** E.Seyidov müxalif və Azərbaycan hakimiyyətinin sərt tənqidçilərindən olan AXCP-nin sədri Əli Kərimlinin qaynıdır. Həbsinə qədər "Texnikabank"ın Yasamal filialının müdir müavini vəzifəsində çalışıb. E.Seyidovu Milli Təhlükəsizlik Nazirliyi əməkdaşları həbs edib, ona əvvəl dələduzluq ittihamı irəli sürülüb, sonra ittiham ağırlaşdırılıb. E.Seyidov tutulduqdan sonra 9 ay ərzində onun işi üzrə hər hansı istintaq hərəkəti aparılmayıb, həbs müddəti isə əsassız olaraq uzadılıb, halbuki bu cinayətlərə görə uzadılma müstəsna hallarda baş verə bilər.

CPM-in tələblərinə görə, dələduzluq ittiham üzrə istintaq hərəkətləri aparmaq DİN-in səlahiyyətindədir, ancaq E.Seyidova münasibətdə qanunun bu tələbi kobud şəkildə pozulub: onu MTN həbs edib, MTN-nin təcridxanasında saxlanılıb və istintaqı da MTN aparıb.

E.Seyidov "Texnikabank"ın İdarə Heyətinin sədri Etibar Əliyev və başqalarının cinayət işi üzrə onlardan 20 gün sonra həbs edilib. Rəsmi ittihama görə, E.Seyidov bank rəhbərliyinin göstərişi ilə və onların mənafeyi üçün qanunları pozmaqda günahlandırılıb. E.Əliyev, eləcə də bankın bu iş üzrə həbs edilmiş başqa əməkdaşları azadlığa çıxsa da, E.Seyidov hələ də həbsdə saxlanılır.

E.Seyidov dağınıq skleroz xəstəliyindən əziyyət çəkir, bu barədə müstəqil və özəl tibb müəssisələrinin rəyi var. Dağınıq skleroz xəstələrinin təcridxana kimi qapalı mühitdə saxlanması yolverilməzdir və bu xəstəlikdən əziyyət çəkənlərə dövlət qayğısı haqqında 7 mart 2012-ci il tarixli Qanun da var[93]. Qanunda belə xəstələrə qayğı və onların müdafiəsi üzrə bir sıra tədbirlər, o sıradan azadlıqdan məhrum edilmiş belə xəstələrin azadlığa buraxılması nəzərdə tutulur.[94] Lakin bu xəstəlikdən əziyyət çəkən E.Seyidov həbsdə saxlanılır. E.Seyidov həbsdə olduğu dövrdə xəstəliyinə görə ikinci qrup əlil olub.

*E.Seyidov Bakı Ağır Cinayətlər Məhkəməsinin 29 oktyabr 2013-cü il tarixli qərarı ilə **7 il 6 ay** müddətinə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi 03 aprel 2014-cü ildə bu hökmü dəyişdirmədən qüvvədə saxlayıb. Ali Məhkəmə 19 yanvar 2015-ci ildə irəli sürülmüş iki ittihama xitam verərək cəzanın **7 il 3 aya** endirilməsi barədə qərar çıxarıb.*

[93] Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında Azərbaycan Respublikasının Qanunu, https://bit.ly/2wz4Z19

[94] Ibid, maddə 9.5

Məhkəmə zamanı şahidlərin verdiyi ifadələr ziddiyyətli olub, bəzi şahidlər isə E.Seyidovun təqsiri olmadığını bildiriblər. Ancaq məhkəmə bunları nəzərə almayıb.

E.Seyidovun ilkin həbsi və ağır xəstəlikdən əziyyət çəkməsi ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət göndərilib. E.Seyidovun işi ABŞ Dövlət Departamentinin Azərbaycanda 2013-cü ildə insan haqları üzrə hesabatında müxalif qüvvələrin ailə üzlərinə edilən təzyiq nümunəsi kimi göstərilib[95].

02 avqust 2016-cı ildə Qaradağ Rayon Məhkəməsi E.Seyidovun xəstəliyinə görə vaxtından əvvəl azadlığa çıxması ilə bağlı ərizəsini təmin etməyərək, onu həbsdə saxlayıb. Bakı Apellyasiya Məhkəməsi 09 sentyabr 2016-cı ildə bu qərardan verilmiş şikayəti təmin etməyib.

---

**117. Mübariz Əslan oğlu ABDULLAYEV**



*© şəxsi Facebook profili*

**Saxlanma tarixi**: 21 avqust 2013-cü il

**İttiham:** CM-in 182.2.4-ci *(hədə-qorxu ilə tələb etmə, xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 8 il

**Saxlandığı yer:** Şəki Penitensiar Müəssisəsi

**İş üzrə qısa arayış:** M.Abdullayev ləğv edilmiş Azərbaycan Beynəlxalq Universitetinin keçmiş rektoru Elşad Abdullayevin qardaşı oğludur. 2010-cu ildə rektoru olduğu Universitetinin lisenziyası ləğv edildikdən sonra hakimiyyətlə münasibətləri kəskinləşən və bu səbəbdən də ölkədən qaçaraq hazırda Fransada siyasi mühacirət həyatı yaşayan E.Abdullayev 2012-ci ilin sentyabrında qalmaqallı videonun yayılması ilə gündəmə gəlib. Videoda Elşad Abdullayevlə həmin dövrdə hakim partiyadan millət vəkili olmuş Gülər Əhmədova, o sıradan görüşdə vasitəçi kimi təqdim edilən millət vəkilinin rəfiqəsi Sevinc Babayeva arasında danışıqlar əks olunub, G.Əhmədova E.Abdullayevin millət vəkili seçilməsi üçün ondan 1 milyon manat pul istəyib və bu vəsaitin Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevə veriləcəyini bildirib. Bu video yayıldıqdan sonra S.Babayeva naməlum şəraitdə Türkiyədə ölüb, G.Əhmədova isə 2013-cü ilin fevralında həbs olunub (bir müddətdən sonra o, Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə azadlığa çıxıb). E.Abdullayev bu videodan sonra daha bir neçə qalmaqallı video yayıb və bu videoların yayılmasına görə onunla hakimiyyət arasında münasibət daha da kəskinləşib.

[95] http://1.usa.gov/18BOn4u

E.Abdullayevin keçmiş Milli Təhlükəsizlik Nazirliyində işləyən qardaşı Mahir Abdullayev 2003-cü ildə itkin düşüb. E.Abdullayev bu hadisəyə görə də Azərbaycan hakimiyyətini, xüsusən hüquq mühafizə orqanlarını ictimai şəkildə tənqid edib.

M.Abdullayevə verilən ittiham da əmisi Mahir Abdullayevin itkin düşməsi ilə bağlıdır. İttihama əsasən, M.Abdullayev əmisi Mahir Abdullayev itkin düşdükdən bir müddət sonra digər əmisi E.Abdullayevə zəng edib başqa şəxs adından danışaraq qardaşının onda olduğunu və əvəzində 50 000 manat istədiyini bildirib və bu pulun Zaqatala rayonuna gətirilməsini istəyib.

Lakin E.Abdullayev Zaqatalaya getməyib və heç kimə heç bir vəsait verməyib. İş materiallarında bunun qarşısının Kürdəmir Rayon Polis Şöbəsinin əməkdaşlarının aldığı vurğulansa da, bunun hansı şəkildə baş verdiyi izah edilmir.

M.Abdullayevi 2003-cü ildə Kürdəmir Rayon Polis Şöbəsinin əməkdaşları həbs edərək 3 gün saxlayıb və ona qarşı cinayət işi açılıb, lakin 3 gündən sonra o, sərbəst buraxılıb və yalnız 10 ildən sonra, məhz E.Abdullayevlə hakimiyyətin münasibətləri pisləşdikdən sonra istintaqa çağırılıb. Bu 10 il ərzində M.Abdullayev bir dəfə də olsun dindirilməyib, hər hansı istintaq hərəkəti aparılmayıb. 2013-cü ildə sahə müvəkkili M.Abdullayevə onun Baş Prokurorluğa getməli olduğunu bildirib. Baş Prokurorluqda Elmar Camalovla görüşən M.Abdullayevə bildirilib ki, onun barəsində cinayət işinə baxılması üçün sənədlər məhkəməyə göndəriləcək və onun yenidən ifadəsinə ehtiyac var, lakin ondan ifadə almadan boş kağıza imza atdırıblar və onu sərbəst buraxıblar. M.Abdullayev ona hökm çıxarıldığı gün məhkəmə zalında həbs edilib.

*M.Abdullayev Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 21 avqust 2013-cü il tarixli hökmü ilə **10 il** müddətinə azadlıqdan məhrum edilib. Şirvan Apellyasiya Məhkəməsi (hakim Saleh Süleymanov) 03 iyun 2014-cü ildə bu hökmü qüvvədə saxlayıb. Ali Məhkəmə də 05 mart 2015-ci ildə M.Abdullayevin şikayətini təmin etməyib. Şəki Apellyasiya Məhkəməsi 11 iyul 2018-ci ildə Cinayət Məcəlləsinə edilən son dəyişiklər əsasında M. Abdullayevin işinə yenidən baxaraq cəzasını 10 ildən **8 ilə** endirib.*

M.Abdullayevin 10 il əvvəl açılmış cinayət işi əsasında həbs edilməsi, ondan ifadə almaq əvəzinə boş kağıza imza atdırılması, məhkəmə prosesləri zamanı yalnız Kürdəmir Rayon Polis Şöbəsinin keçmiş əməkdaşlarının şahid qismində verdikləri ifadələrin əsas götürülməsi, başqa sübutların araşdırılmaması göstərir ki, onu əmisi Elşad Abdullayevin tənqidi mövqeyinə və hakimiyyətlə münasibətlərinin kəskinləşməsinə görə həbs ediblər.

---

## 118. Murad Güləhməd oğlu ƏDİLOV



**Saxlanma tarixi:** 11 avqust 2014-cü il

**İttiham:** CM-in 234.4.3-cü *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə,*

*daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 6 il

**Saxlandığı yer**: 10 saylı Cəzaçəkmə Müəssisəsi

**İş üzrə qısa arayış:** AXCP mətbuat katibi və "Azərbaycan Saatı" proqramının aparıcılarından biri, siyasi təqiblərə görə hazırda Fransada yaşayan Natiq Ədilovun qardaşı M.Ədilov bu proqrama qarşı aparılan kampaniya çərçivəsində həbs edilən şəxslərdən biridir.

Bu proqramın rəhbəri Qənimət Zahidin (Zayıdov) də yaxın qohumları həbs edilib və M.Ədilovun işində olduğu kimi eyni ittihamlarla ağır cəzaya məhkum ediliblər (iki ilə yaxın həbsdə saxlanıldıqdan sonra azadlığa buraxılıblar). Bu proqram kimi xaricdən yayımlanan Meydan TV əməkdaşlarının da yaxın qohumları analoji ittihamlarla həbs ediliblər (bir müddət həbsdə saxlandıqdan sonra onlar da azadlığa buraxılıb).

M.Ədilov Sabirabad rayonunda həbs edilərkən həm rayon polis şöbəsində, həm də sonradan Bakıda saxlandığı polis idarəsində işgəncələrə və qeyri-insani rəftara məruz qaldığı barədə məlumat versə və rəsmi müraciətlər etsə də, bunlar lazımi şəkildə araşdırılmayıb. O, Bakı İstintaq Təcridxanasına aparılan zaman bədənində qançırların olması sənədlərdə əks olunsa da, bu fakt da araşdırılmayıb. Həbsdən az müddət əvvəl hakimiyyətə xüsusi yaxınlığı ilə fərqlənən və müxalif mövqedə olan şəxslər barəsində qarayaxma süjetlər və proqramlar təqdim edən Lider telekanalında jurnalist Natiq Ədilova və onun ailəsinə qarşı qarayaxma xarakterli məlumatlar yayılıb.

M.Ədilovun məhkəmə prosesləri də sübut edib ki, istintaq qərəzli aparılıb, sübutlar qismində ancaq polislərin və hal şahidlərinin ifadələri istifadə edilib. M.Ədilovun ailəsinə məxsus geniş evdə ancaq bir otaqda axtarış aparılıb və həmin otaqdan da narkotik maddənin tapıldığı iddia edilib, halbuki əməliyyat narkotik maddənin həqiqətən də tapılması üçün keçirilsəydi, bütün mənzildə axtarış aparılmalıydı.

*M.Ədilov Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 14 may 2015-ci il tarixli hökmü ilə **6 il** müddətinə azadlıqdan məhrum edilib. Şirvan Apellyasiya Məhkəməsi 27 oktyabr 2015-ci ildə, Ali Məhkəmə isə 22 aprel 2016-cı ildə hökmü qüvvədə saxlayıb.*

5 sentyabr 2018-ci ildə 10 saylı Cəzaçəkmə Müəssisəsində keçirilən Nərimanov Rayon Məhkəməsinin səyyar iclasında (hakim Vüsal Qurbanov) M.Adilovun cəzasının 2/3 hissəsini çəkməsi ilə əlaqədar vaxtından əvvəl şərti azadlığa buraxılması haqqında müraciətinə baxılıb. 10 saylı Cəzaçəkmə Müəssisəsinin rəhbərliyinin M.Adilov barədə verdiyi mənfi rəy əsas götürülərək müraciət təmin edilməyib. Müəssisə rəhbərliyinin rəyində M.Adilovun nəzərdə tutulmuş yerdən kənarda siqaret çəkdiyi üçün ona töhmət verildiyi göstərilir.

7 sentyabr 2018-ci ildə M.Adilov cəza çəkdiyi 10 saylı Cəzaçəkmə Müəssisəsində aclıq aksiyasına başlayıb. Telefonla ailəsinə verdiyi məlumata görə, aclıq aksiyasını keçirməkdə əsas məqsədi onun haqqında çıxarılmış saxta hökm və qərarlara etiraz etmək, ölkə ictimaiyyətinin və beynəlxalq təşkilatların diqqətini siyasi məhbusların dözülməz vəziyyətinə çəkməkdir. Aclıq aksiyasına başladıqdan sonra karsa salınan M.Adilov 11 sentyabr 2018-ci ildə aksiyanı dayandırdığını bildirib.

M.Ədilov ailəlidir, 3 azyaşlı övladı var.

Amnesty International təşkilatı M.Ədilovu vicdan məhbusu kimi tanıyıb .

---

**119. Emin Şahlar oğlu SAQİYEV**



*© Meydan TV*

**Saxlanma tarixi: 17** noyabr 2017-ci il

**İttiham:** CM-in 234.4.3-cü *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, külli miqdarda törədildikdə)* maddəsi

**Cəzasının müddəti:** 7 il

**Saxlandığı yer:** Bakı İstintaq Təcridxanası

**İş üzrə qısa arayış:** Emin Saqiyev mühacirətdə yaşayan, ölkə xaricindən yayımlanan Turan TV-nin əməkdaşı Türkel Əlisoyun (Azərtürk) bacanağıdır.

***Turan TV-nin əməkdaşlarına qarşı təzyiqlər haqqında qısa məlumat***: Turan TV Azadlıq qəzetinin baş redaktoru Fransada mühacir həyatı yaşayan Qənimət Zayidov tərəfindən yaradılıb. Turan TV öncə Azərbaycan Saatı adlı proqram şəklində fəaliyyət göstərib. Bu proqram Bakı və İstanbuldan idarə olunub. Proqram hökuməti sərt tənqidi ilə seçilib və bu səbəbdən tezliklə hökumətin repressiyası ilə üz-üzə gəlib. Müxalif fəalların və müstəqil media nümayəndələrinin qohumları vasitəsilə susdurulma və cəzalandırılmasını praktikaya çevirən hakimiyyət qurumları həmin proqramın aparıcısı jurnalist Natiq Ədilova təzyiq etmək məqsədilə onun qardaşı Murad Ədilov 11 avqust 2014-ci ildə narkotik ittihamı ilə 6 il müddətinə azadlıqdan məhrum edilib. 31 avqust 2014-cü ildə proqramın digər aparıcısı, jurnalist Seymur Həzi xuliqanlıq ittihamı ilə 5 il müddətinə azadlıqdan məhrum edilib (hər ikisi Amnesty International tərəfindən vicdan məhbusu kimi tanınıb). Ölkə daxilindəki təzyiqlər üzündən proqram ölkə xaricindən idarə olunmağa başlanıb. 20 iyul 2015-ci ildə proqramın rəhbəri Q.Zayidovun əmisi oğlu və qardaşı oğlu narkotik ittihamı ilə 6 il müddətinə azadlıqdan məhrum ediliblər (1 il 8 ay sonra hər ikisi prezidentin əfv sərəncamı ilə azadlığa buraxılıb). 8 aprel 2016-cı ildən Niderlandda mühacir həyatı yaşayan gənc fəal Türkel Əlisoy “Azərbaycan Saatı” ilə əməkdaşlığa başlayıb. 2016-cı ilin avqustunda “Azərbaycan Saatı” Turan TV adı altında yayılmağa başladığı vaxtdan T.Əlisoy həmin kanalda “Xəbər var” adlı proqramda aparıcılıq edir. T.Əlisoyun Azərbaycanda yaşayan qohumlarına təzyiqlərin onun bu fəaliyyəti ilə

bağlı olduğu güman edilir. Polisin tez-tez onun Cəlilabadda yaşayan qohumlarının evinə getməsi və ya onları polis idarəsinə dəvət edərək T.Əlisoy və onun valideynləri haqqında sorğu-sual etmələri də bu iddiaları gücləndirir.

***E.Saqiyevin həbsi:*** 17 noyabr 2017-ci ildə E.Saqiyev Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (Bandotdel) əməkdaşları tərəfindən yaşadığı evdən aparılıb. E.Saqiyev barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib. 15 mart 2018-ci ildə Nərimanov Rayon Məhkəməsinin qərarı ilə E.Saqiyevin həbs müddəti 2 ay uzadılıb. Bakı Ağır Cinayətlər Məhkəməsində gedən prosesdə dövlət ittihamçısı E.Saqiyevin 8 il azadlıqdan məhrum edilməsini istəyib. E.Saqiyev bundan sonra öz vəkilləri vasitəsilə hökümətə müraciət ünvanlayıb. O, müraciətində heç vaxt T.Əlisoyla eyni mövqeyi bölüşmədiyini, onun hökümət əleyhinə fəaliyyətində iştirak etmədiyini bildirib. O, daha sonra müraciətdə bildirir: "Əgər məni təkcə onun bacanağı olduğum üçün bu qədər ağır şəkildə cəzalandırırlarsa, onda gərək mən onunla ümumiyyətlə uzaq da olsa qohumluq əlaqələrimin olmaması üçün bu gün həyat yoldaşımdan da ayrılım. Əgər hər şey sizin üçün rəsmiyyətdirsə, onda mən bu rəsmiyyətə günü bu gündən son verirəm. Amma mənim iki azyaşlı uşağım var, onlardan heç bir halda imtina edə bilmərəm… Günahsız insanların, onların ailələrinin 3-cü dərəcəli qohumlara görə həyatının məhv edilməsi ədalət sayıla bilərmi?".

*Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Eldar Mikayılov) 03 oktyabr 2018-ci il tarixli hökmü ilə E.Saqiyev 7 **il** müddətinə azadlıqdan məhrum edilib.Bakı Apellyasiya Məhkəməsinin (sədrlik edən Namiq Məmmədov) 10 dekabr 2018-ci il tarixli qərarı ilə hökm dəyişdirilmədən saxlanılıb.*

---

## J. SƏİD DADAŞBƏYLİ VƏ ONUNLA BİRGƏ TUTULANLAR

Səid Dadaşbəyli Azərbaycan Dövlət İqtisad Universitetində "İqtisadiyyat və istehsalın idarə olunması" ixtisası üzrə təhsil alıb. 1992-1998-ci illərdə Azərbaycan Dövlət Neft Şirkətində çalışıb. 1998-ci ildən "Azəri EM-AY Drillinq Flyuids" Azərbaycan-ABŞ birgə müəssisəsində material-texniki təchizat üzrə koordinator vəzifəsində çalışıb. Kanada hökuməti mütəxəssis fəaliyyəti ilə əlaqədar olaraq ona daimi yaşayış haqqında pasport verib. Evlidir, 2 azyaşlı uşağı var.

13-18 yanvar 2007-ci ildə "Səid Dadaşbəyli işi" üzrə təxminən 30 nəfər həbs edilib və tutulanlar "NİMA" (Mehdi Seyid əz-Zamanın Şimal Ordusu) adlı radikal dini qruplaşma yaradaraq İranın xüsusi xidmət orqanlarına casusluq etməklə dövlət əleyhinə cinayətlərin törədilməsində ittiham olunublar.

Bir müddət sonra həbs edilənlərin bəziləri Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında saxlanılan 11 nəfərin əleyhinə izahat vermək şərti ilə azadlığa buraxılıblar. Həbslərin ilkin mərhələsindən başlayaraq ciddi qanun pozuntusuna yol verilib. İttiham olunanların mənzillərində axtarış aparılması barədə məhkəmə qərarları olmadan Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları güc tətbiq edərək evlərə giriblər. Həbs edilənlərin valideynləri və qohumlarının etirazlarına baxmayaraq, MTN

əməkdaşları nümayişkaranə şəkildə həbsi əsaslandırmaq üçün silah və lazım olan başqa "maddi sübut"ları mənzillərə qoyublar. Bu hərəkətlər cinayət-prosessual qanunvericiliyinin kobud şəkildə pozuntusudur. Bununla yanaşı, həbsin ilk günlərində saxlanılanlara vəkilləri ilə əlaqə yaratmaq imkanı verilməyib.

Həbs edilənlər istintaq zamanı məhkəməyə qədər - 13 yanvar 2007-ci ildən 11 dekabr 2007-ci ilədək MTN-nin təcridxanasında təkadamlıq kameralarda saxlanılıblar. Onlar davamlı olaraq döyülüb, yatmaqdan, yeməkdən və sudan məhrum ediliblər. Eyni zamanda həbs edilənlərə psixotrop maddələr verilib. Onları istintaqa gərək olan etiraf izahatları verməyəcəkləri təqdirdə azadlıqda olan qohumlarına işgəncə veriləcəyi ilə hədələyiblər.

Vəhşicəsinə edilən işgəncə zamanı Emin Məmmədov adlı məhbus 2007-ci ilin mart ayında ölüb. E.Məmmədovun ölümünün səbəbləri barədə tibbi arayış var. E.Məmmədovun ölümü bir neçə ay valideynlərindən və ictimaiyyətdən gizlədilib. Onun ailəsi E.Məmmədovun ölümü ilə bağlı hüquq müdafiəçilərinə müraciət edəcəkləri, ictimaiyyət qarşısında öldürülmüş şəxsin taleyi ilə bağlı məsələ qaldıracaqları halda yeni repressiyalarla üzləşəcəkləri ilə hədələnib. Vəkilin məhbus E.Məmmədovun saxlandığı yer barədə sorğusuna cavab verən MTN bildirib ki, bu adam haqqında heç bir məlumatları yoxdur və E.Məmmədov MTN-də heç bir zaman olmayıb. MTN təcridxanasında işgəncələrə məruz qalaraq həyatını itirən E.Məmmədov məhkəmə prosesləri zamanı da xatırlanmayıb. E.Məmmədov məhkəmə və ictimaiyyət üçün izsiz yoxa çıxıb.

Məhkəmə prosesləri qapalı keçirilib və həbs edilənlərin ailə üzvləri proseslərə buraxılmayıb. CPM-in 200-cü maddəsinə əsasən dövlət sirlərinin yayılmasının qarşısını almaq məqsədilə məhkəmə prosesləri qapalı keçirilə bilər. Lakin cinayət işində dövlət sirri barədə hər hansı qeyd yoxdur və CPM-in 200-cü maddəsinə istinad edilərək məhkəmə proseslərinin qapalı keçirilməsi əsaslandırılmayıb. Bu cinayət işi üzrə məhkəmə proseslərinin qapalı keçirilməsi qanuna zidd idi. Məhkəmə prosesi zamanı ittiham edilənlər onlara qarşı irəli sürülən ittihamları qəbul etməyib. Eyni zamanda, həbs müddətində işgəncələrə və başqa qanunazidd hərəkətlərə məruz qaldıqlarını bildiriblər. Məhkəmə prosesi zamanı məlum olub ki, terror təşkilatı yaratmaqda günahlandırılanların əksəriyyəti həbsə qədər bir-birlərini tanımayıblar. Həmçinin, irəli sürülən ittihamların heç biri məhkəmə araşdırması zamanı sübuta yetirilməyib və proses ittiham tərəfinin istəyinə uyğun şəkildə yekunlaşıb.

*Bakı Ağır Cinayətlər Məhkəməsinin (sədrlik edən Ənvər Seyidov) 10 dekabr 2007-ci il tarixli hökmü ilə Səid Dadaşbəyli **14 il**, Rəşad Əliyev **14 il**, Ceyhun Əliyev **14 il**, Fərid Ağayev **13 il**, Cahangir Kərimov **14 il,** Samir Qocayev **13 il**, Bəybala Quliyev **13 il**, , Rasim Kərimov **13 il**, Emil Möhbalıyev **12 il**, Mikayıl İdrisov **12 il** müddətinə azadlıqdan məhrum ediliblər. Bakı Apellyasiya Məhkəməsi 25 fevral 2008-ci ildə, Ali Məhkəmə isə 16 sentyabr 2008-ci il tarixli qərarla hökmü qüvvədə saxlayıb.*

CM-ə dəyişikliklər edilməsi haqqında 06 may 2016-cı il tarixli Azərbaycan Respublikası Qanunundan sonra Bakı şəhər Nizami Rayon Məhkəməsi 18 sentyabr 2016-cı il tarixli qərarı ilə S.Dadaşbəylinin ittiham olunduğu CM-nin 204.3.1 və 204.3.2-ci maddələri yalnız 204.3.1-ci maddəyə tövsif edib. *Bununla S.Dadaşbəylinin cəzası 14 ildən **13 il 6 ya** endirilib.*

## 120. Rəşad İsmayıl oğlu ƏLİYEV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 13 yanvar 2007-ci il

**İttiham:** CM-in 28.2 *(yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq)*, 180.3.1 *(soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə)*, 204.3.1 *(satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma, mütəşəkkil dəstə tərəfindən törədildikdə)*, 204.3.2 *(satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma, külli miqdarda törədildikdə)*, 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 13 il 6 ay

**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 121. Fərid Nadir oğlu AĞAYEV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il

**İttiham:** CM-in 28.2 *(yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq)*, 180.3.1 *(soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə)*; 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 13 il

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**122. Səid Ələkbər oğlu DADAŞBƏYLİ**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il

**İttiham:** CM-in 28.2-ci *(yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq)*, 180.3.1 *(soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə); 204.3.1-ci (satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma, mütəşəkkil dəstə tərəfindən törədildikdə),* 204.3.2 *(satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma, külli miqdarda törədildikdə)*, 218.1 *(ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədilə cinayətkar birlik (təşkilat) yaratma, habelə belə birliklərə (təşkilatlara) və ya onların tərkib hissəsi olan struktur bölmələrinə rəhbərlik etmə, həmçinin ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi üçün plan və şərtlərin işlənib hazırlanması məqsədilə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyini yaratma),* 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə),* 228.4 *(qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla),* 234.1 *(satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama),* 274 *(dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 13 il 6 ay

**Saxlandığı yer:** 15 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 123. Ceyhun Saleh oğlu ƏLİYEV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il

**İttiham:** CM-in 28.2 *(yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq)*, 180.3.1 *(soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə)*; 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)*, 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə)*, 274 *(dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 14 il

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

## 124. Cahangir Ramiz oğlu KƏRİMOV



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 15 yanvar 2007-ci il

**İttiham:** CM-in 28.2 *(yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq)*, 180.3.1 *(soyğunçuluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə);* 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)*, 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və*

*həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə),* 274 *(dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 13 il 6 ay

**Saxlandığı yer:** 1 saylı Cəzaçəkmə Müəssisəsi

---

**125. Samir Edik oğlu QOCAYEV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 17 yanvar 2007-ci il

**İttiham:** CM-in 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Saxlandığı yer:** 7 saylı Cəzaçəkmə Müəssisəsi

---

**126. Rasim Rafiq oğlu KƏRİMOV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 20 yanvar 2007-ci il

**İttiham:** CM-in 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla*

*ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

---

**127. Bəybala Yəhya oğlu QULİYEV**



*© Ailəsi tərəfindən təqdim edilib*

**Saxlanma tarixi:** 13 mart 2007-ci il

**İttiham:** CM-in 218.2 *(cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə),* 228.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə),* 228.2.1 *(qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə),* 228.4 *(qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla)* və 278-ci *(Azərbaycan Respublikasının Konstitusiyasına zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud hakimiyyətin zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər)* maddələri

**Cəzasının müddəti:** 13 il

**Saxlandığı yer:** 11 saylı Cəzaçəkmə Müəssisəsi

# NƏTİCƏ/TÖVSİYƏLƏR

Azərbaycanda siyasi motivlərlə cinayət təqibinin aparılması, nəticədə, vətəndaşlarımızın qanunsuz, hüquqi əsaslar olmadan həbsi və azadlıqdan məhrum edilməsi bizi təəssüfləndirir və narahat edir.

Araşdırılan işlər göstərir ki, hakimiyyətin siyasətini və ya hakimiyyətdə təmsil olunan yüksək çinli məmurları tənqid edən, araşdırma yazıları və tənqidi məqalələrlə çıxış edən, sosial şəbəkələrdə fəallıq nümayiş etdirən, söz, mətbuat, sərbəst toplaşmaq, birləşmək, vicdan və digər azadlıqlar uğrunda mübarizə aparan, ümumilikdə ictimai-siyasi proseslərdə fəal olan və hakimiyyətin mövqeyini bölüşməyən istənilən şəxsin uydurma ittihamlarla həbsi mümkündür.

Siyasi motivli həbs və azadlıqdan məhrumetmə qərarları ölkə vətəndaşlarına maddi və mənəvi zərər vurmaqla yanaşı Azərbaycan dövlətinin imicinə də böyük zərbə vurmuş olur. Bu, Azərbaycanın üzvü olduğu beynəlxalq təşkilatlar, xüsusən də Avropa Şurası qarşısında könüllü olaraq götürdüyü öhdəliklərə ziddir. Hələ 2001-ci ildə Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərdən[96] biri siyasi məhbus kimi tanınan şəxslərin azadlığa buraxılması ilə bağlı idi. Bu problem indiyə qədər həllini tapmayıb, əksinə, siyasi məhbusların sayı üzvlükdən sonra daha da artıb.

Yaranmış vəziyyətdən çıxış yolu kimi aşağıdakıları təklif edirik:

**Azərbaycan hakimiyyətinə:**

- Siyahıda olan siyasi məhbusların azadlığa buraxılması istiqamətində təxirəsalınmaz addımlar atmaq;

- Siyasi məhbusların istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində təhlükəsizliyini təmin etmək;

- Problemin müzakirəsi və həlli üçün siyahını hazırlayan, dəstəkləyən şəxslərlə dialoqa başlamaq.

**Beynəlxalq ictimaiyyətə:**

- Azərbaycan hökumətini beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərə əməl etməyə və siyasi məhbusları azadlığa buraxmağa çağırmaq;

- Bakıya səfərlər zamanı və ya Azərbaycan hökumətinin rəsmilərinin səfəri zamanı siyasi məhbuslar məsələsini davamlı olaraq diqqətdə saxlamaq;

- Qısa müddətdə siyasi məhbus probleminin həlli istiqamətində ciddi və əsaslı addım atılmayacağı təqdirdə Azərbaycan hakimiyyətinə sanksiyalar tətbiq etmək.

---

[96] http://bit.ly/2cNAbOo

# ƏLAVƏ

## İşləri monitorinq altında olan məhbuslar

Bu bölmədə yer alan 54 nəfərin işini İşçi Qrup diqqətlə araşdırır, zəruri sənədlər toplanır.

Qrup həmçinin 3 iyul 2018-ci ildə Gəncə İcra Hakimiyyəti başçısına qarşı sui-qəsd, daha sonra 10 iyulda Gəncədə iki polis əməkdaşının qətli ilə bağlı həbs edilən 52 nəfəri aşağıdakı səbəblərdən monitorinq altında olanların siyahısına əlavə edib:

- dövlət orqanları həbs edilənlərin təqsirsizlik prezumpsiyasını pozub; həbs edilənlərin ailə üzvlərinə 9 gün heç bir məlumat verilməyib;
- hadisələrin mütəşəkkil dəstə tərəfindən törədildiyi iddia olunsa da, bununla bağlı sübutlar ortaya qoyulmayıb; dövlət orqanları 10 iyulda baş verən hadisənin iğtişaş olduğunu iddia etsə də, bu video çəkiliş və ya hər hansı başqa sübutla təsdiq edilməyib;
- hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyatlar zamanı aşırı gücdən istifadə olunub, nəticədə, 6 nəfər ölüb;
- məhkəmə prosesləri rəsmi olaraq açıq olsa da, faktiki olaraq yarı-qapalı keçirilir, jurnalistlərin məhkəmədə iştirakı üçün akkreditasiya tələb edilir, məhkəmə prosesi zamanı qeydlər aparılmasına icazə verilmir, prosesdə iştirak edən jurnalistlərin müəyyən edilib hakim tərəfindən məhkəmə zalından çıxarılması halları müşahidə edilib və s.

Hazırda monitorinq altında olan işlər üzrə məhbuslar aşağıdakılardır:

1. Renad ƏLIYEV
2. İkram Rafiq oğlu RƏHIMOV
3. Firudin Etibar oğlu ZEYNALOV
4. Kamal Qüdrət oğlu QULIYEV,
5. Raul Fazil oğlu SÜLEYMANOV,
6. Kamal Qabil oğlu MƏMMƏDTAĞIYEV,
7. Rauf Arif oğlu QURBANZADƏ,
8. Samir Ramiz oğlu IBRAHIMOV,
9. Mireşqin Nazim oğlu SEYIDOV,
10. Əli Hüseyn oğlu RZAYEV,
11. Xəyal Xaliq oğlu QAFAROV,
12. Qadir Fazil oğlu HÜSEYNOV,
13. Vüqar Rauf oğlu ALLAHVERDIYEV,
14. Ülvi Saləddin oğlu HƏSƏNOV
15. Tural Arzu oğlu BAYRAMOV
16. Kamal Nasir oğlu MƏHƏRRƏMOV
17. Maarif Cəmşid oğlu HACIYEV
18. Toğrul Mahir oğlu VERDIYEV
19. Orxan Zakir oğlu YAQNALIYEV
20. Seymur Ceyhun oğlu ƏLIYEV

21. Nizami Yusif oğlu ƏKBƏROV
22. Vaqif Arif oğlu ƏŞRƏFOV
23. Şahlar Eldar oğlu RZAYEV
24. Ruslan Rizvan oğlu HƏSƏNOV
25. Araz Fizuli oğlu HƏSƏNOV
26. Qənbər Cabbar oğlu QARAZADƏ
27. Elvin Bəxtiyar oğlu ƏLIYEV
28. Zabil Qabil oğlu CÜMŞÜDOV
29. Alim Vahid oğlu YUSIFOV
30. Aydin Arif oğlu RÜSTƏMOV
31. Yavər Azər oğlu ISMAYILZADƏ
32. Isa Yasin oğlu MƏHƏRRƏMOV
33. Cabir Mərdan oğlu ƏZIZOV
34. Gülmirzə Bədəl oğlu NURiZADƏ
35. Riya Bədəl oğlu NURiZADƏ
36. Fikrət Hüseyn oğlu MIRZƏLIYEV
37. Feyruz Tofiq oğlu HACIYEV
38. Səbuhi Sərdar oğlu RƏCƏBOV
39. Elman Telman oğlu QULIYEV
40. Sabir Mərdan oğlu ƏZIZOV
41. Elman Ilham oğlu MƏMMƏDOV
42. Elvin Novruz oğlu NƏZƏROV
43. Elvin Nəriman oğlu ALLAHVERDIYEV
44. Nemət Hikmət oğlu HEYDƏRLI
45. Renat Miri oğlu MƏMMƏDOV
46. Vüqar Mənsur oğlu XUDIYEV
47. Orxan Nəriman oğlu HÜSEYNOV
48. Səxavət Vaqif oğlu ƏHMƏDOV
49. Rasim Rafiq oğlu HEYDƏROV
50. Mirməcid Akif oğlu ABBASOV
51. Ariz Mübariz oğlu FEYZI-ZADƏ
52. Elmir Elxan oğlu MƏMMƏDOV
53. Nofəl Əfləddin oğlu MƏMMƏDOV
54. Eltun Ceyhun oğlu ƏLIYEV

## TƏŞƏKKÜRLƏR

Hesabatın hazırlanmasında yaxından iştirak edən, işlər barədə zəruri məlumatları və hüquqi sənədləri təqdim edən vəkillərə təşəkkürümüzü bildiririk[97].

[97] 2017-ci ilin sonundan etibarən vəkillərə qarşı intensivləşən təzyiq və təqiblərin nəticəsi olaraq, İşci Qrup ilə əməkdaşlıq edən vəkillərdən bir çoxunun vəkillik fəaliyyəti dayandırılıb. Vəkillər Kollegiyasının Rəyasət Heyəti 22 noyabr 2017-ci ildə İşçi Qrup ilə əməkdaşlıq edən Yalçın İmanovun vəkillik fəaliyyətinə xitam verilməsi üçün məhkəməyə müraciət edib; məhkəmə qərar verənədək Y.İmanovun vəkillik fəaliyyətini dayandırıb. Eyni qurumun 22 yanvar 2018-ci il tarixli qərarı ilə Fəxrəddin Mehdiyevin, 23 aprel 2018-ci il tarixli qərarı ilə Əsabəli Mustafayev və Nemət Kərimlinin vəkillik fəaliyyəti bir il müddətinə dayandırıb.

Hesabatın üz səhifəsi üçün karikatura hazırlayan və hazırda siyasi mühacir həyatı yaşayan karikaturaçı Gündüz Ağayevə təşəkkür edirik.

Hesabatın ingilis dilinə tərcüməsində iştirak edən bütün şəxslərə (təhlükəsizlik baxımından adlarının açıqlanmasını istəmirlər), xüsusən, hazırda siyasi məhbus həyatı yaşayan Fuad Əhmədliyə minnətdarlığımızı çatdırırıq.

***İşçi Qrupun üzvləri:***

Siyasi Məhbusların Vahid Siyahısı üzrə İşçi Qrupuna aşağıdakı şəxslər daxildir:

Akif Qurbanov
Anar Məmmədli
Günay İsmayılova
Xalid Ağaliyev
Xədicə İsmayıl (əlaqələndirici)
İntiqam Əliyev (əlaqələndirici)
Rövşən Hacıbəyli
Samir Kazımlı
Sevinc Vaqifqızı